# 22 İyul Milli Mətbuat və Jurnalistika Günüdür


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 152 (30268) 22 iyul 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir. Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir. Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir.**

# Azərbaycan həqiqətləri Şuşa zirvəsində

## Qlobal Media Forumunun açılış mərasimi



**İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib və sualları cavablandırıb.

*(ardı 2-ci səhifədə)*

# Mədəniyyət paytaxtımızda tarix müasirliyə qovuşur



Səhifə ⇨ 7

# Ağdam–Əsgəran yolunda "şimal küləyi"

Səhifə ⇨ 10

# Azad media Azərbaycanın misilsiz mənəvi sərvətidir

Səhifə ⇨ 12



# Qarabağ və Şərqi Zəngəzurda "ağıllı" şəhər və kəndlər boy atır

**Hazırda işğaldan azad olunan ərazilərə Böyük Qayıdışın reallaşdırılması üçün müasir şəhərsalma qaydaları nəzərə alınmaqla Qarabağ və Şərqi Zəngəzurda yaşayış və qeyri-yaşayış kompleksləri inşa edilir, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçirilir.**

Bu əsasda bütün bölgədə müasir standartlara uyğun sosial-iqtisadi və mədəni infrastruktur qurulur, kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi yaradılır. Sosial xidmət infrastrukturu bərpa olunur.

**(ardı 9-cu səhifədə)**



# Dövlət Neft Fondunun aktivləri 55 milyard dollara çatıb

Səhifə ⇨ 9

# Bir görüşün tarixçəsi

Səhifə ⇨ 14

# "Konsulluq" serialının fransız bölümü

**Son bir ildə "diplomatik layihələrin sınaq meydanı"na çevrilən Ermənistanın Sünik vilayətində İran və Rusiyanın ardınca Fransa da öz bayrağını dalğalandırmaq istəyini bəyan edib. Hər üç dövlətin rəsmiləri bu təşəbbüslərin zəminində "Ermənistanın ərazi bütövlüyünün" dayandığını bildirsələr də, əslində, onların maraq dairəsinin kəsişdiyi məkan Zəngəzur dəhlizidir.**



2020-ci il 10 noyabr Bəyanatının 9-cu, sonuncu maddəsində regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi nəzərdə tutulur. Məhz həmin bəndin ikinci cümləsində Azərbaycan və Naxçıvan arasında nəqliyyat əlaqəsinin təşkilindən və Ermənistanın hər iki istiqamətdə maneəsiz hərəkətinin təhlükəsizliyinə zəmanətindən bəhs edilir. Amma bəyanatın imzalanmasından iki il səkkiz aydan çox vaxt keçməsinə baxmayaraq, İrəvan, ümumiyyətlə, nəqliyyat dəhlizlərinin açılmasının qarşısına müxtəlif manelər diyirlədir. Hayastan liderlərinin arqumenti bundan ibarətdir ki, nə Azərbaycan, nə də Türkiyə tərəfi Meğri vasitəsilə Ermənistanın yurisdiksiyasından kənarda "əlahiddə" dəhliz əldə edə bilməz. Üçtərəfli bəyanatın şərtindən irəli gələn "Zəngəzur dəhlizi" layihəsini tənqid atəşinə tutan erməni "politoloqları" hesab edirlər ki, dəhlizin reallaşması ölkələrinin İranla birbaşa ticarət əlaqələrinə əngəl yaradacaq. Çünki dəhlizə başqa dövlət (Rusiya-red.) nəzarət edəcək.

### "Biz də orada olmalıyıq"

"Fransa Ermənistanın ərazi bütövlüyünü qorumaq üçün mühüm bir addım ata bilər. Bu, Sünikdə (Zəngəzur), Qafanın vilayət mərkəzində, yaxud Gorus şəhərində Fransanın konsulluq nümayəndəliyinin açılması ola bilər. Başqa ölkələr artıq bunu həyata keçiriblər. Belə bir addım regionda sabitliyin xeyrinə işləyər, həmçinin Fransa və Ermənistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi nöqteyi-nəzərindən qiymətli forpost rolunu oynayardı".

**(ardı 8-ci səhifədə)**



# Zaman məğlubu ağıllandırır, yoxsa...

**Şəxsən mən inana bilməzdim ki, Xocalı faciəsini törətmiş, Azərbaycan ərazilərinin 20 faizini otuz il işğal altında saxlayaraq viranəyə çevirmiş xalqın təmsilçisi nə zamansa bu fikirləri səsləndirə bilər. Hər gün, hər saat, dünyanın hər yerində Azərbaycanın əleyhinə ağlagəlməz böhtanlar, cəfəngiyyatlar səsləndirən işğalçı, terrorçu və təxribatçılarla yanaşı, həqiqəti dilə gətirməyi bacaran erməni də var imiş.**

Söhbət uydurma Artsax dövlətinin qondarma parlamentinə "sədr"lik edən, "Azat ayrenik" (Azad Vətən) partiyasının təsisçisi olmuş, parlamentdəki "Vətən" fraksiyasına rəhbərlik etmiş, indi Ermənistan Parlamentindəki Respublika partiyasını təmsil edən Artur Tovmasyanın son günlər yayılan bəyanatından gedir. O, yazır ki, Azərbaycan çoxmillətli ölkədir, min illər boyu biz burada çiyin-çiyinə yaşamışıq və bu gün də öz qonşularımızla bərabərhüquqlu vətəndaş kimi yaşaya bilərik.

**(ardı 8-ci səhifədə)**

# Millimiz Ermənistan yığmasını darmadağın etdi

**Kosovanın paytaxtı Priştina şəhərində 16 yaşlı oğlanlar arasında keçirilən basketbol üzrə Avropa çempionatı "C" divizionunun oyunları davam edir.**

B qrupunda qərarlaşmış U-16 millimiz qrupdakı ikinci oyununda Ermənistan yığması ilə üz-üzə gəlib. Qarşılaşmaya üstün başlayan U-16 yığmamız qrupun ən önəmli oyununda Ermənistan komandasına 92:58 hesabı ilə qalib gələrək, rəqibini meydançaya çıxmağa peşman edib. U-16 millimizin qrupdakı növbəti rəqibi Albaniya seçməsi olacaq. Oyun iyulun 23-də keçiriləcək.

**"Xalq qəzeti"**



# Qlobal Media Forumunun açılış mərasimi

**(əvvəli 1-ci səhifədə)**



**Mərasimdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli qonaqlar, xanımlar və cənablar, Qarabağa, Şuşaya xoş gəlmisiniz.

Mən çox şadam ki, sizi bu gün burada görürəm, çox sağ olun bizim dəvətimizi qəbul etmisiniz və Şuşa Qlobal Media Forumunda iştirak edirsiniz. Bu, bizim ölkəmiz üçün və əlbəttə, Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir.

Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda, Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir. Çünki Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı. Siz buraya gələrkən azad olunmuş ərazilərdən keçdiniz. Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi. Bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır. Biz buraya məhz bu şəkildə gəlmişik, şəhərlərimizi və kəndlərimizi azad edə-edə gəlmişik. Bu şəhər həm də bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət bu gün Qlobal Media Forumu keçirilir. Yəni, bu şəhər öz kimliyini qoruya bilmişdir. Baxmayaraq ki, işğal dövründə o, məqsədli şəkildə, qəsdən dağıdılmışdır.

Mən hesab edirəm ki, uzun nitq söyləməyim, birbaşa müzakirələrə keçək və sizi maraqlandıran suallara cavab verəcəyəm. Mən burada nitqimi dayandırıram və sözü moderatora verirəm.

**Moderator:** Zati-aliləri, icazə verin, əvvəlcə, Sizə təşəkkür edim ki, bu gün bizimlə bir yerdəsiniz. Xanımlar və cənablar, cənab Prezident qeyd etdiyi kimi, müxtəlif fikir mübadiləsi aparmaq üçün buradayıq.

Cənab Prezident, icazənizlə biz iştirakçılardan suallar qəbul edəcəyik. Məlumat vermək istəyirəm ki, bəzi iştirakçılar öz suallarını artıq əvvəlcədən təqdim ediblər ki, vaxta qənaət edək. Mən onları bir-bir səsləndirəcəyəm. Ancaq iştirakçılardan xahiş edirik ki, sualları olduqca onu cənab Prezidentə təqdim etsinlər.

Cənab Prezident, icazənizlə başlaya bilərikmi?

**TRT World, Türkiyə - Bora Bayraktar, buyurun.**

**Bora Bayraktar:** Cənab Prezident, dəvətə görə təşəkkür edirəm. Mənim sualım Qarabağ Zəfəri ilə bağlıdır. Bilirik ki, ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Əlbəttə, bu əlaqələrdə liderlərin şəxsi münasibətləri müstəsna əhəmiyyətə malikdir. Biz bilirik ki, Zati-alinizin Türkiyə Prezidenti cənab Ərdoğanla çox gözəl münasibəti var və bu xüsusi münasibətin Qarabağın azad olunmasında xüsusi rolu olmuşdur.

Cənab Prezident, Türkiyə Prezidenti artıq növbəti beş illiyə prezident seçilibdir. Bu, o deməkdir ki, Siz növbəti beş il ərzində də bir yerdə çalışacaqsınız. Zənnimcə, bu, çox gözəl bir fürsətdir. Cənab Prezident bu növbəti beş ildə Sizin prioritetləriniz nədən ibarət olacaqdır? Yəni, zənninizcə, biz bir yerdə nələri etməliyik, Türkiyə ilə əməkdaşlıq baxımından ən aktual məsələlər hansılardır?

**Prezident İlham Əliyev:** Tamamilə haqlısınız, bizim Prezident Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktdır. Bu, regional inkişaf və sabitlik baxımından çox mühüm amildir. Eyni zamanda, Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi "Azərbaycan yalnız deyil!" bəyanatı, bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi.

İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq. Həmin Bəyannamə bu mehmanxanadan bir neçə yüz metr kənarda imzalanıb və münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırıb. Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük sərvətdir. Bu Bəyannamə qarşımızda yeni üfüqlər açır. Baxmayaraq ki, bundan öncə də Azərbaycan və Türkiyə bir çox sahədə birlik, həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirib. Əməkdaşlığımızın geniş gündəliyinə nəzər salsaq, siyasət, enerji, ticarət, nəqliyyat, müdafiə, müdafiə sənayesi və bir çox sahədə əməkdaşlığın olduğunu görərik. Yəni, əməkdaşlığın yüksək səviyyədə olmadığı sahəni tapmaq çətindir. Qardaşım Prezident Ərdoğanın yenidən seçiləcəyinə mənim şübhəm yox idi. Çünki onun hakimiyyətdə olduğu 20 il ərzində Türkiyə üçün etdiyi öz xalqına və ölkəsinə sadiqliyin təzahürüdür. Bu gün Türkiyə qlobal liderlərdəndir. Türkiyənin beynəlxalq nüfuzu ildən-ilə artır. Əlbəttə, Azərbaycanda elə bir adam tapmaq çətin olar ki, seçkilərin nəticəsindən məmnun olmasın. Əlbəttə ki, növbəti beş il ərzində biz sıx tərəfdaşlığımızı davam etdirəcəyik, dünya dəyişir, regionda vəziyyət dəyişir. Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir. Həm qlobal məsələlərdə və xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmli və vacibdir, o, sabitləşdirici rol oynayır. Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir və o rol həm Azərbaycanda, həm onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir.

Bildiyiniz kimi, Prezident Ərdoğan seçkilərdən sonra ilk dövlət səfərini Azərbaycana edibdir. Bu, ənənədir. Mən də yenidən seçilərkən ilk səfərimi Türkiyəyə etmişdim. Bundan əlavə, bildiyiniz kimi, mən Prezident Ərdoğanın inauqurasiya mərasimində iştirak etdim və orada da biz gələcək əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə, mən bütün məsələləri açıqlamaq istəməzdim, ancaq bu, məlumdur ki, qarşıdan gələn illərdə Türkiyə və Azərbaycan regionda daha önəmli rol oynayacaqdır. Əlbəttə ki, bu potensialdan istifadə edəcəyik ki, ölkələrimizi daha da yaxınlaşdıraq.

**Moderator:** ABŞ-dan olan jurnalist Ceyms Flu.

**Ceyms Flu:** Təşəkkür edirəm cənab Prezident, mənim sualım Azərbaycana qarşı olan təhlükələrlə bağlıdır. Siz ölkənizlə bağlı ən əsas təhlükələri nədə görürsünüz?

**Prezident İlham Əliyev:** Bilirsiniz, torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. Birincisi, daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir. Mən rəqəmlərə varmaq istəməzdim, ancaq maraqlansanız görərsiniz ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir, biz öz resurslarımızla özümüzü təmin edirik və yaxşı idarəçilik həyata keçiririk. Bu baxımdan keçmişdə bizə olan təhlükə məhz Ermənistan və onun işğalı ilə bağlı idi. Həmin təhlükə 30 il ərzində məhz buradan qaynaqlanırdı və artıq biz bu təhlükənin öhdəsindən gəlmişik. Ancaq, əlbəttə, biz ayıq olmalıyıq, biz keçmişimizi unutmamalıyıq. Biz unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı, gözlənilmədiyi anda qonşularımız kürəyimizə bıçaq sancdı və o zaman Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Eyni zamanda, biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var. O da bizim tariximizdən qaynaqlanır və biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Biz səsimizi ucaldırdıq və deyirdik BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, Ermənistan qoşunları dərhal və qeyd-şərtsiz Azərbaycanın ərazisindən çıxarılmalıdır. Ancaq o qətnamələrə riayət edilmirdi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda sülhün təminatı yalnız gücdür. Bunu deyərkən, əlbəttə, biz gələcəkdə yarana biləcək təhlükələri istisna etməməliyik, çünki dünya və bizim regionumuz bu gün çətin proqnozlaşdırılır. Ancaq hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yəqin, bu, ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik.

**Mixail Qusman:** İcazənizlə sual vermək istəyirəm. Adım Mixail Qusmandır. Mən TASS agentliyini təmsil edirəm.

Hörmətli cənab Prezident, bir ildən bir az çox müddət əvvəl – fevralın 23-də biz TASS agentliyində həmkarlarımızla birlikdə Sizi salamlamaq şərəfinə nail olmuşduq, indi onların bir neçəsi Rusiya KİV-lərinin rəhbərləri ilə birgə bu zaldadır. Bu, Sizin Rusiya Prezidenti ilə Moskva Bəyannaməsini imzalamanızdan sonra ertəsi gün olmuşdu. Bir ildən artıq vaxt keçib. Dünya daha çox turbulent vəziyyətindədir. Azərbaycan qalib olduğu 44 günlük müharibədən sonra ardıcıl iş aparır, lakin hələ ki, Ermənistanla sülh bağlamaq mümkün olmur. Rusiya xüsusi hərbi əməliyyat aparır. Hər halda, Siz imzaladığınız bu Memorandumun inkişafını necə qiymətləndirirsiniz? O, necə yerinə yetirilir? Onun perspektivləri necədir? Fevralın 22-də Moskvada imzalanan bu Memorandumun reallaşdırılmasında problemlər varmı?

Mənim daha bir sualım olacaq. Sağ olun.

**Prezident İlham Əliyev:** Zənnimcə, ötən ilin fevralında imzalanan Bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafında bir mərhələdir. Bəyannamə özündə müstəqilliyin ayrı-ayrı dövrlərində müxtəlif cür inkişaf edən, lakin hər iki ölkənin uzun illər ərzində bəyan etdikləri kimi strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu münasibətlərin inkişafı tarixini ehtiva edir. Bu, həqiqətən də belə olub, çünki iki ölkə tərəfindən görülən işin həcminə nəzər salsaq, görmək olar ki, hər iki tərəf əlaqələrin möhkəmlənməsini və konkret nəticələrə əsaslanan əməkdaşlığı hədəf götürüb.

Biz sizinlə bu münasibətlərin dərinliyini yaxşı bilirik və qarşılıqlı fəaliyyətimizin sahəsi kifayət qədər genişdir. Uzun illər Rusiyanın vasitəçi qismində mühüm rol oynadığı, həmçinin hərbi əməliyyatların dayandırılmasında mühüm rol oynadığı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin, məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması bu sahələrdən biri olub.

Biz o günləri yaxşı xatırlayırıq. Məhz Rusiya tərəfi Ermənistan və Azərbaycan arasında, - mən rəhbərlik arasında nəzərdə tuturam, - 2020-ci il noyabrın 9-da, Üçtərəfli Bəyanatın razılaşdırılmasının getdiyi bir vaxtda həmin birləşdirici rolu oynamışdı. Bu səbəbdən də Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması möhkəm təmələ malik idi.

İmzalanmadan sonrakı dövrə gəlincə, bu dövr sülh üçün, regionumuz üçün, o cümlədən Rusiya və bizim üçün tamamilə yeni dövrdür. Lakin buna və geosiyasi vəziyyətin bu cür ciddi dəyişikliyinə baxmayaraq, Bəyannamə imzalanan andan bəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı kifayət qədər uğurlu olub. Yüksək səviyyədə xeyli təmaslar olub, hökumət başçıları, xarici siyasət qurumları və digər hökumət və ictimai strukturların təmsilçiləri səviyyəsində təmaslar olub. Buna görə də mən əminliklə deyə bilərəm ki, Bəyannamənin maddələri yerinə yetirilir. Başlıcası odur ki, rəhbərliklər səviyyəsində siyasi iradə mövcuddur. Burada media nümayəndələrinin təmsil olunmasından və sizin sabah və birigün həm əməkdaşlığı, həm də problemli məsələləri müzakirə edəcəyinizlə bağlı fürsətdən istifadə edərək demək istəyirəm ki, Rusiya kütləvi informasiya vasitələrində Azərbaycana münasibətdə və Azərbaycan kütləvi informasiya vasitələrində Rusiyaya münasibətdə gördüyümüz o kiçik nahamarlıqlar Azərbaycan və Rusiyanın siyasətinə heç bir təsir göstərmir.

Biz bunu dəqiq bilirik. Lakin bu, həmçinin necə deyərlər, media nümayəndələrinin öz qiymətləndirmələrində tam sərbəst olduqları zamanla bağlı məsələdir. Dünyada Rusiya-Ukrayna müharibəsinin başlanmasından, o cümlədən İkinci Qarabağ müharibəsindən sonra vəziyyət bizim regionda dramatik şəkildə dəyişdiyi üçün, əlbəttə, müxtəlif qiymətləndirmələr, müxtəlif təhlillər və müxtəlif rəylər qaçılmazdır. Lakin yenə də imkandan istifadə edərək demək istəyirəm ki, hər halda, belə məqamlar Azərbaycan rəhbərliyinin siyasi iradəsinə təsir etmir. Ona görə düşünürəm ki, münasibətlərimizin gələcəyi də ötən illərdə olduğu kimi, belə müsbət və uğurlu olacaqdır. Sizin sualınıza Azərbaycan dilində başladığınızı nəzərə alaraq, düşünürəm ki, Siz ikinci sualınızı da dərhal indi verə bilərsiniz. Yoxsa, növbə çatmaya bilər.

**Mixail Qusman:** Təşəkkür edirəm, cənab Prezident. Mən sualımdan əvvəl böyük minnətdarlıq ifadə etmək istərdim, şəxsən Sizə və bu Forumun təşkilatçılarına. Çünki mən iki il bundan əvvəl azad olunmuş Şuşaya səfər etdim, bu xoşbəxtlik mənə qismət oldu. Şuşa da həqiqətən möhtəşəm şəkildə dəyişir və Forum da müstəsna səviyyədə təşkil olunmuşdur. İkinci sualım, son illər ərzində Azərbaycan Qoşulmama Hərəkatına uğurla rəhbərlik edir və bir ay bundan əvvəl Sizin sələfiniz Uqanda Prezidenti Museveni ilə təmasda oldum, söhbət etdim və Azərbaycanın illər boyunca Qoşulmama Hərəkatına uğurla rəhbərliyi haqqında danışdı, ona yeni nəfəs qatdığını xüsusi vurğuladı. Mənim bununla bağlı iki sualım var. Bu hərəkatın sonrakı təşəkkülünü hansı istiqamətdə görürsünüz? İkincisi, Azərbaycan Hərəkata sədrlik etdiyi dövrdə burada qadınlar forumu, gənclər forumu yaradılıb. Burada medianı da nəzərə alırıq. Necə bilirsiniz, Qoşulmama Hərəkatında media forumu təşkil olunmasını Azərbaycanda necə görürsünüz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, çox yaxşı ideyadır. Zənnimcə, o, tərəfimizdən tam qəbul ediləcək. Bizim o qədər də çox vaxtımız qalmayıb, çünki bizim sədrliyimiz növbəti ilin əvvəlində başa çatır. Bu səbəbdən bunu etməyə nail olmaq üçün, yəqin ki, biz birlikdə çalışmalıyıq. Bildiyiniz kimi, təşəbbüs "cəzalandırılır", ona görə də sizi də bu tədbirin hazırlanmasında fəal iştirak etməyə dəvət edirəm. Xüsusilə, siz də qeyd etdiyiniz kimi, Qoşulmama Hərəkatının, mübaliğəsiz şəkildə deyə bilərəm ki, Azərbaycanın sədrliyi dövründə yeni nəfəs almasını nəzərə alsaq, bu, çox faydalı olacaq. Sirr deyil ki, son zamanlarda Hərəkat tədricən deqradasiyaya uğramışdı və o, praktik olaraq xüsusi davamı olmayan müəyyən məsələlərin müzakirə platformasına çevrilmişdi. Biz, bütün işlərdə olduğu kimi, həmçinin bu işimizə də böyük məsuliyyətlə yanaşdıq və institusional inkişaf istiqamətində addım-addım irəliləməyə başladıq. Düşünürəm ki, Azərbaycanın sədrliyinin yekdilliklə daha bir il müddətinə uzadılması faktı, - amma faktiki olaraq ilyarım müddətinə, - onu deməyə əsas verir ki, bizim fəaliyyətimiz qiymətləndirilib və ona ehtiyac var. Mən Sizin qeyd etdiyiniz formatlara əlavə olaraq, parlament platformasını da əlavə edərdim, bu, həmçinin institusional inkişaf baxımından çox mühüm elementdir. Hesab edirik ki, Hərəkat məhz bu yolla getməlidir. Şübhəsiz ki, biz bir neçə aydan sonra öz səlahiyyətlərimizi Uqandaya təhvil verdikdən sonra Uqandanın sədrlik edəcəyi müəyyən müddətdə hələ üçlükdə olacağıq və təbii ki, səylərin birləşdirilməsində, Hərəkatın fəaliyyətində konkret nəticələr əldə olunması işində fəal iştirak edəcəyik.

Deməliyəm ki, COVID-19 pandemiyası zamanı biz dünya ictimaiyyətinin bu problemə diqqətinin cəlb olunmasında liderlik nümayiş etdirdik. Azərbaycan sədr kimi, vaksin milliyyətçiliyinə qarşı fəal çıxış edən ölkələrdən biri olub. Biz heç kimdən çəkinməyərək, ölkələri öz adları ilə adlandırırdıq – onlar özlərinə lazım olduğundan beş dəfə artıq vaksin alırdılar, baxmayaraq ki, eyni zamanda, bir çox yoxsul ölkələr müdafiə olunmamış qalırdılar. Yəni, bu, digərləri ilə yanaşı, sadəcə olaraq, vicdansızlıqdır. Bizim təşəbbüsümüz ilə Hərəkat ölkələrində məlumat bazası yaradılıb, bu bazadan Ümumdünya Səhiyyə Təşkilatı da istifadə edib. Bundan başqa, biz humanitar və maliyyə yardımı məqsədilə 10 milyon ABŞ dolları ayırmışıq və bir çox ölkələrə vaksinlərlə yardım etmişik. Yəni, Hərəkat ölkələri gördülər ki, bu struktur, təşkilat olmasa da, öz məqsədlərinə nail ola bilərlər.

Bakıda keçirilən Sammitdə sədrliyi qəbul edərkən mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti və üzv ölkələrin legitim maraqlarını müdafiə edəcəyik. Düşünürəm ki, biz bu məsələnin öhdəsindən uğurla gəldik. İnanmaq istəyirəm ki, biz sədrlik səlahiyyətlərini təhvil verəndən sonra müsbət dinamika davam edəcək. Hər halda, biz bunun üçün əlimizdən gələni edəcəyik.

**Moderator:** "Real" Təhlil və İnformasiya Mərkəzi, Mirşahin Ağayev.

**Mirşahin Ağayev:** Cənab Prezident, 29 ildən sonra Şuşada Azərbaycan Respublikasının Prezidentinə sual vermək bəxtəvərliyini bizə nəsib etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Nəzərə alaq ki, sabah Milli Mətbuat Günüdür, bu, bizim hamımızın bayramıdır və bu bayramı ikiqat möhtəşəm etdiyinizə görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan olaraq bütün mediamızın adından minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.

Sualım Sizin əlinizin işarəsi ilə bağlıdır. Bu, belə də olur, əl uzadırsınız və belə də olur "Dəmir yumruq". Bu bəyanatı biz Şuşada çox eşitmişik və hər dəfə də bu bəyanatın real əks-sədasını, təsirini görmüşük. Sualım bu gün Şuşadan bir az da üzüaşağıdır, Xankəndi tərəfədir. Bilirsiniz ki, separatçı qüvvələrin tör-töküntüləri orada müəyyən hadisələr törədirlər, dezinformasiyalarla məşğuldurlar. Guya ki, Azərbaycan kimlərisə, nələrisə blokadada saxlayır. Baxmayaraq ki, bu yaxınlarda mən Laçın yolunda "Mirşahinin vaxtı"nın xüsusi buraxılışını hazırladım və orada da hər şeyi gördülər ki, "Qırmızı Xaç" maşınları necə gəlib keçir oradan, insanlara münasibət nə qədər ılıqdır, mülayimdir. Bunlar öz yerində.

"4-cü Sənaye İnqilabı dövründə Yeni Media"nın qarşısında duran vəzifələr sırasında məhz bu tipli dezinformasiyalarla mübarizədən ötrü Siz bizdən nə tələb edirsiniz? Çünki Siz bizi Qələbəyə gətirmisiniz. Bizim media mübarizəmizdə də önümüzdə Siz oldunuz və Azərbaycanın informasiya blokadasının yarılmasında əsas açar şəxs Siz oldunuz. Biz Sizin ardınızca getdik. Ona görə də Sizdən bu məsələdə tövsiyə istəyirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Mən hesab edirəm ki, bu gün Azərbaycan mediası bu istiqamətdə çox böyük işlər görür. Təbii ki, ümumi istiqamət onsuz da bəlli idi. İşğal dövründə biz hamımız, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətənpərvər azərbaycanlı bir məqsədə doğru yorulmadan gedirdi. Mən işğal dövründə öz çıxışlarımda dəfələrlə deyirdim ki, o gün gələcək, azadlıq günü gələcək, hər birimiz bu günü hər an yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq. Bu, bizim ümumxalq Qələbəmizdir. Yəni, Azərbaycan xalqı bu Qələbəyə layiq idi.

Təbii ki, beynəlxalq hüququn, ərazi bütövlüyümüzün bərpası, bütün bunlar fundamental hüquqlardır və biz bu hüququ döyüş meydanında qazandıq, qan tökərək, şəhidlər verərək. Amma, eyni zamanda, Azərbaycan mediasının bu sahədəki fəaliyyəti, o cümlədən ona görə qiymətlidir ki, dünya ictimaiyyətinə təkcə beynəlxalq hüquq prizmasından yox, ümumi insani prizmadan üzləşdiyimiz problemi çatdırmaq üçün bizim birinci vasitəmiz media olmuşdur. Ona görə mən media nümayəndələri ilə əvvəlki dövrlərdə, yəni işğal dövründə görüşlər əsnasında hər zaman bunu qeyd edirdim. Qeyd edirdim ki, biz daha çox beynəlxalq auditoriyaya çıxmalıyıq.

Siz də yəqin ki, razılaşarsınız ki, əvvəlki dövrdə daha çox biz deyirdik, biz də eşidirdik. Sanki biz özümüz-özümüzə nəyisə sübut etməyə çalışırdıq. Bu, vacib idi. Vacib idi, məsələni gündəlikdə saxlamaq üçün, gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün. Şuşanı və o vaxt işğal altında olan digər torpaqları azad edən məhz o oğullar idi ki, onların mütləq əksəriyyəti heç vaxt nə Şuşanı, nə Ağdamı, nə işğal altında olan başqa torpağı görməmişdilər. Yəni, evdəki, evlərdəki tərbiyə, məktəblərdəki tərbiyə və media tərəfindən bu məsələnin daim gündəlikdə saxlanması daxili birliyi böyük dərəcədə möhkəmləndirdi. Təbii ki, dövlət siyasəti başda olmaq şərtilə. Ancaq sonrakı mərhələdə biz daha çox beynəlxalq auditoriyaya çıxış etməyə başladıq. Yəni, bu imkanlar da bizdə yarandı və müxtəlif dillərdə bizim bir çox media resurslarımızın nəşrləri də, internet saytları da, digər elektron vasitələri də mövcuddur. Bu gün isə biz yenə də öz həqiqətlərimizi sübut etməyə məhkumuq. Çünki bizə qarşı bu gün yenə də kampaniya davam edir.

**(ardı 3-cü səhifədə)**

# Qlobal Media Forumunun açılış mərasimi

(əvvəli 2-ci səhifədə)

Bizim Qələbəmizi həzm edə bilməyən, uğurlarımıza qısqanclıqla yanaşan, bizə qarşı açıq informasiya savaşına çıxanlara biz tutarlı, real arqumentlərlə cavab verməliyik və veririk. Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır. Ona görə cəmiyyətdə mövcud olan həmrəylik və birlik, bax, bu üstünlüyü bizə təmin edir.

O ki qaldı, tövsiyələrə, sözün düzü, mən bundan bir qədər uzağam. Çünki Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir, bu, birincisi. İkincisi, siz özünüz hər şeyi yaxşı bilirsiniz və mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir və xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, yenə də media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir. Ona görə media nümayəndələrinə mənim tövsiyəm budur ki, ancaq belə də davam edin.

**Moderator:** Cənab Prezident, əslində iştirakçılardan bizə daxil olan suallar artır və kifayət qədər fəal iştirak görürük. Ümid edirik ki, sualları səsləndirmək üçün vaxtımız olacaqdır. Birləşmiş Krallıqdan Cordan Morqan.

**Cordan Morqan:** Cənab Prezident, qonaqpərvərliyə görə təşəkkür edirəm. Adım Cordandır, Birləşmiş Krallıqdanam. Suallarım ondan ibarətdir ki, Siz Azərbaycan üçün və Qərbi Asiya regionu üçün hansı imkanları görürsünüz? Çünki bildiyiniz kimi, Çin və Səudiyyə Ərəbistanı yaxınlaşır və bu baxımdan Azərbaycan üçün hansı perspektivlər var?

**Prezident İlham Əliyev:** Bizim Asiya ölkələri üçün münasibətlər baxımından? Düz başa düşdüm?

**Cordan Morqan:** Yox, bütün region üçün perspektivlər baxımından.

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində regional inkişaf, - Cənubi Qafqazı nəzərdə tuturam, - əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən üç il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı. Təəssüf ki, uzun illər - 28 il ərzində Minsk qrupu çərçivəsində gedən danışıqlar heç bir nəticə vermədi. Ümumiyyətlə, həll üçün hər hansı düstur ortaya qoyulmadı. O dövrdə çox ziddiyyətli, çox mücərrəd bəyanatlar verilirdi, bundan məqsəd münaqişənin dondurulması idi və bu, Azərbaycan üçün məqbul deyildi. Bəziləri çalışırdılar ki, bu münaqişəni dondursunlar, danışıqları sonsuz etsinlər və ictimai diplomatiya təşəbbüsləri ilə Azərbaycana müəyyən bir əməkdaşlıq təlqin olunsun. Beləliklə, biz Ermənistanla biznes qurmağa, münasibətlərin yaxşılaşmasına məcbur olaq və guya ki, münaqişə gələcək nəsillər tərəfindən həll edilməlidir.

Mən işğal dövründə dəfələrlə ictimaiyyət və beynəlxalq təşkilatlar qarşısında Ermənistana qarşı sanksiyaların tətbiq olunmasının vacibliyini bildirmişəm və bu da sözsüz ki, beynəlxalq təşkilatların bəyannamələrinə və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa Şurasının, həmçinin Avropa Şurası Parlament Assambleyasının qərarları, hətta Avropa Parlamentinin, - baxmayaraq ki, hazırda kifayət qədər ermənipərəst mövqedədir, onun da qəbul etdiyi qətnamə var idi ki, reallığı əks etdirirdi, - lakin bu sanksiyalar baş vermədi, bunlar Ermənistana qarşı tətbiq olunmadı. Çünki geosiyasi gündəlik tamamilə fərqli idi.

Odur ki, özümüz bunun öhdəsindən gəlməli olduq. Biz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri döyüş meydanında icra etməli olduq və hazırda vəziyyət dəyişib. Qeyd edim ki, həmin dövrlərdə beynəlxalq aktorların heç biri, yəni, bu gün "Qarabağ Azərbaycandır!" deyən beynəlxalq aktorlar heç vaxt bu ifadəni dilə gətirmirdilər. Postsovet məkanındakı digər münaqişələrlə bağlı belə ifadələr istifadə olunurdu. Azərbaycana gəldikdə isə deyirdilər ki, razılığa gəlməlisiniz. Deyirdilər ki, öz müqəddəratını təyinetmə və ərazi bütövlüyünü inteqrasiya etməlisiniz. Onlar bilirdilər ki, bu, mümkün deyil, bunun mümkünsüzlüyünü bilirdilər. Beynəlxalq hüququn fundamental prinsipləri var, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi bu prinsiplərdir. Lakin öz müqəddəratının təyin olunması ərazi bütövlüyü prinsipini kölgədə qoymur və nəzərə alsaq ki, Ermənistan artıq müstəqil dövlət kimi mövcuddur.

Lakin hazırda vəziyyət fərqlidir və beynəlxalq vasitəçilər, belə deyim, öz mövqelərini ifadə edirlər və onlar daha




real bir nöqteyi-nəzərdən çıxış edirlər. Bilirsiniz, mən dəfələrlə eşitmişəm, xüsusilə, işğal dövründə eşitmişəm, deyirdilər ki, Azərbaycan reallığı qəbul etməlidir, daha doğrusu nəzərə almalıdır. Mən deyirəm ki, razıyam. Hazırda hamı yeni reallığı nəzərə almalıdır. Çünki 30 illik işğal dövrünü, dağıntılar dövrünü, həmçinin İkinci Qarabağ müharibəsinin reallıqlarını qəbul etmədən həlli düşünmək mümkün deyil. Lakin hazırda beynəlxalq vasitəçilərin səyləri kifayət deyil. Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesdə dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sonuncu mühüm məqamdır. Əgər bu addım atılsa, - danışıqlar heyəti və xarici işlər nazirləri səviyyəsində danışıqlar gedir, bilirsiniz ki, növbəti danışıqlar yaxın günlərdə Moskvada baş tutacaq, - Ermənistan bu bəndlə razılaşsa və Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin ilin sonunadək imzalanması kifayət qədər mümkündür. Lakin bu olmasa, biz onları məcbur edə bilmərik. Biz 28 il onları məcbur edə bilməmişik ki, beynəlxalq hüquqa riayət etsinlər. Yalnız bunu güc hesabına məcbur etdik. Lakin bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Lakin, eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq. Beləliklə, bildiyiniz kimi, üç vasitəçi var. Bunların hər biri kifayət qədər beynəlxalq səviyyədə mexanizmlərdən istifadə edə bilər ki, müstəqil olaraq fəaliyyət göstərsin. Biz ümid edirik ki, bu üçündən birində təkamülü, irəliləyişi görəcəyik.

**Moderator:** Növbəti sual İtaliya nümayəndəsi cənab Maurisio Geri.

**Maurisio Geri:** Təşəkkür edirəm, cənab Prezident, artıq ikinci dəfədir Şuşadayam. Bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Sualım son iki həftə ilə bağlıdır. Mən iki həftə ərzində ADA Universitetində Yay Enerji Məktəbində iştirak etmişəm. Mən Azərbaycanın Avropa və Mərkəzi Asiya arasında körpü rolu haqqında soruşmaq istəyirəm. Ələlxüsus, qaz və digər enerjinin Çin və Rusiya kimi ölkələrdən tam istehlakı ilə əlaqədar. Mən bilirəm ki, Türkmənistanla layihələr var, - əgər Türkmənistan razılaşsa, bilirəm ki, siz də bu layihənin tərəfdaşısınız, - Avropa və yaxud İtaliya hansı dəstəyi verməlidir ki, bu proses inkişaf etsin?

**Prezident İlham Əliyev:** Transxəzər Qaz Boru Kəməri ilə əlaqədar mən artıq bir neçə dəfə mövqeyimi bildirmişəm. Bir daha təkrar etmək istəyirəm ki, bu, Azərbaycanın təşəbbüsü ilə başlayacaq bir layihə deyil. Çünki Azərbaycanın təşəbbüskarı olduğu layihələr həmin o layihələrdir ki, bu, ölkələrin resurslarına əsaslansın. Məsələn, Cənub Qaz Dəhlizi. Biz o layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının Prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Avropa İttifaqının enerji komissarı Azərbaycanı panAvropa qaz tədarükçüsü adlandırır. Bizim sözsüz ki, Avropaya qaz tədarükümüzün coğrafiyası genişlənir və ümidvaram ki, ilin sonuna qədər əlavə iki Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevriləcək.

O ki qaldı, Transxəzər layihəsinə, bu layihə bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır. Odur ki, bu təşəbbüsün irəli sürülməsi və yaxud ona sərmayə yatırılması bizdən asılı deyil. Biz nə edə bilərik? Biz tərəfimizdən mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin. Lakin, eyni zamanda, onu unutmamalıyıq ki, bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır. Bu, əvvəllər bizdən gözlənilmirdi. Lakin indi gözlənilir və vəziyyət dəyişib. Odur ki, biz genişlənmə haqqında niyə danışırıq? Azərbaycan daha çox qaz istehsal edəcək və hər yeni il əvvəlki ildən daha çox istehsal edir. Məsələn, 2021-ci ildə biz 19 milyard kubmetr ixrac edirdik, keçən il artıq 22-yə qalxmışdır və cari ildə 24 olacaq. Sizinlə görüşmədiyimiz bu aylarda biz ən azı 300 milyard kubmetr ehtiyatı olan "Abşeron" qaz yatağının kəşfini elan etmişik və artıq ilk quyu "Şahdəniz"dəki bütün quyulardan daha məhsuldardır. Odur ki, bizim boru kəmərləri sisteminin genişlənməsi öz resurslarımızın artması ilə bağlıdır. Xəzər dənizinin Şərq sahillərindən əlavə qaz ehtiyatlarına gəldikdə, bunun üçün Transxəzər sualtı qaz boru kəməri inşa edilməlidir və ikincisi, Bakıdan Avropa istiqamətində Cənub Qaz Dəhlizi kimi yeni infrastruktur lazımdır. Sual yaranır ki, bu mühüm layihəni kim maliyyələşdirəcək? Bu sualın hələlik cavabı yoxdur. Bu suala cavab tapana qədər layihənin icrası və yaxud da bu məsələ haqqında düşünmək bir o qədər real olmayacaq. Eyni zamanda, biz bilirik ki, Avropa bankları mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmir. Odur ki, bu layihə üçün ciddi vəsait cəlb etmək çətin olacaq. Məsələn, Cənub Qaz Dəhlizini inşa edəndə biz korporativ maliyyə ilə bərabər, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından, həmçinin Asiya İnkişaf Bankından və Asiya İnfrastruktur İnvestisiya Bankından vəsait cəlb etmişdik. Lakin indi isə bunlardan ikisi – Avropa institutları mədən yanacağı ilə əlaqədar layihələri hazırda maliyyələşdirmir. Onlar yaşıl keçid layihələrini maliyyələşdirirlər. Bu da sözsüz ki, vəziyyəti daha çətinləşdirir. Avropada qaz qiymətlərinin dəyişkənliyi də yeni-yeni suallar ortaya qoyur. Həmçinin qiymətə qoyulan məhdudiyyət, - mən düşünürəm ki, bu, qəbulolunmazdır, istehlakçılar həmin yuxarı həddi təyin edir, - bu da istənilən bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Avropa ölkələri illərlə bazar iqtisadiyyatı prinsiplərinin tərəfdarı olub. Beləliklə, real baxışdan bu, çox ciddi bir problemdir. Lakin kimsə Transxəzər boru kəmərini inşa etmək istəsə biz şad olarıq. Nəticədə bizə əlavə tranzit rüsumları ödəniləcək və yeni əməkdaşlıq imkanları yaranacaq.

**Vüsalə Mahirqızı, "APA Group"un icraçı direktoru:** Cənab Prezident, qayıdışla bağlı soruşmaq istəyirəm. Hazırda Böyük Qayıdış Proqramı üzrə əhali Laçına köçürülür. Növbəti hansı rayonumuzun sakinləri öz rayonlarında qarşılanacaq? İkinci sualım isə Sizə bir az bəlkə şəxsi görünə bilər. Qarabağ azad olunanda buraya Ordumuzun ardınca ilk Siz gəldiniz. Sonra çox tez-tez Qarabağa səfərlər edirsiniz, hər dəfə gələndə biz izləyirik, yeni layihələr, yeni yerlər açılır. O, Sizdə necə bir hiss yaradır? Tamamilə dağılmış bir yer və hər dəfə onu daşbadaş tikmək. Necə hiss edirsiniz? Ümumiyyətlə, qalib Prezident olmaq necə bir hissdir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, mənim hiss etdiyim duyğular Azərbaycan xalqının hiss etdiyi duyğulardan heç də fərqlənmir. Sadəcə olaraq, fərq ondadır ki, mən bu yerləri, necə deyərlər, tez-tez görürəm. İnsanların əksəriyyəti bunu televiziya vasitəsilə görür. Ancaq, eyni zamanda, bildiyiniz kimi, azad edilmiş bölgələrə indi turlar da təşkil edilir və qeyd etdiyiniz kimi, vətəndaşlar da sürətlə azad edilmiş torpaqlara qayıdırlar.

Əlbəttə, ilk növbədə, qürur hissi duyuram. Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə, ilk növbədə, hiss etdiyim qürur hissidir. Çünki xalqımla, Ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil. Mən bilirəm, həmçinin siz də bilirsiniz ki, Şuşaya çatmaq üçün bizim qəhrəman əsgərlərimiz və zabitlərimiz Zəfər yolunu necə keçiblər, yüngül silahlarla, qarşılarında topla, tankla, artilleriya ilə silahlanmış düşmənlə üz-üzə, bəzi hallarda əlbəyaxa döyüşlərdə ölümə necə gediblər. Azərbaycan xalqının ruhu necə də yüksəkdir. Yəni, bütün bunlar xalqımızı hər birimizə bir daha tanıtdı. Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha hər birimizə, ilk növbədə, bütün dünyaya göstərdi.

Dağılmış şəhərləri, kəndləri görmək hər birimiz üçün çox ağırdır. Bu ağrı ilə biz barışa bilmirik. Baxmayaraq ki, mən artıq son üç ilə yaxın dövrdə azad edilmiş ərazilərdə bəlkə yüz dəfədən çox olmuşam. Hər dəfə dağıntıları görəndə ürəyim ağrıyır, hər dəfə özümə sual verirəm: nə üçün bizim qonşu saydığımız insanlar bu barbarlığa əl atıblar? Axı, biz onlara nə etmişdik? Özü də Birinci Qarabağ müharibəsində məğlub olan tərəf biz idik. Biz onların şəhərlərini dağıtmırdıq, biz onların qəbirlərini dağıtmırdıq, onların ölülərinin sümüklərini çıxarmırdıq. Nə üçün bunu ediblər? Bu insanların ürəyində bizə qarşı nə qədər nifrət var idi ki, insanlığa sığmayan bu əməlləri etsinlər. Yəni, bunu mən bu günə qədər anlaya bilmirəm və yəqin ki, heç vaxt normal insan bunu anlaya bilməz.

Eyni zamanda, hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur.

O ki qaldı, Böyük Qayıdış Proqramına, biz 30-dan çox şəhər və kəndin Baş planını təsdiqlədik, bir çox kəndlərin təməli də qoyuldu və artıq bu rəqəmlər səsləndirilmişdir. Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Ümid edirəm ki, Şuşa şəhərinə gələn il ilk sakinlər gələcək, yerləşəcəklər. İndi siz də yəqin ki, bu gün hələ vaxtınız olmayıb, ya axşam, ya sabah gəzəcəksiniz, görəcəksiniz ki, bir neçə yerdə artıq inşaat layihələrinin, yeni, yaşayış binalarının tikintisi gedir.

Təbii ki, minatəmizləmə prosesi ən böyük əngəldir. Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var. Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə - 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də vaxtaşırı məlumatlandırılır, həm planlar haqqında, həm də görülmüş işlər haqqında. Şəhərlərin Baş planları təsdiq olunanda həmin şəhərlərdə yaşamış insanların rəyi də nəzərə alınmışdır. Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Yəni, biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsunlar və buna doğru gedirik və gedəcəyik.

**Moderator:** Növbəti sual, Misirdən olan Məcid Şalki.

**Məcid Şalki:** Cənab Prezident, mən Yaxın Şərq Xəbər Agentliyindənəm. Cənab Prezident, Siz ölkənizə qarşı olan təhlükələrdən və müharibədən sonrakı səyləriniz haqqında danışdınız. Siz minaları qeyd etdiniz. Minalar insanların gündəlik həyatına necə təsir edir? Bu, həm də inkişaf layihələrinə necə mane olur? Bunun öhdəsindən necə gəlirsiniz? Çünki minatəmizləmə çox bahalı prosesdir.

**Prezident İlham Əliyev:** Bəli, siz ən vacib məsələyə toxundunuz. Çünki minalar müharibə bitəndən sonra üç yüzdən artıq insanın həyatına son qoyub və ya onları ağır şəkildə yaralayıbdır. Yəni, üç yüzə yaxın minanın partlaması azad olunmuş ərazilərdə baş vermişdir. Bu isə müharibə cinayətidir, minaları basdırmaq müharibə cinayətidir. Amma həmin minaların xəritəsini təqdim etməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır. Biz bilirik ki, o xəritələr onlarda var, çünki minalar məhz belə basdırılır. Minaları basdıranların əlində xəritə olur, çünki onlar özləri həmin minaya düşə bilərlər. Əvvəl onlar ən yüksək səviyyədə Ermənistan baş naziri şəxsən rəsmi bizə deyirdi ki, onlarda belə bir xəritələr yoxdur. Nəhayət, boyunlarına aldılar ki, belə bir xəritələr var. Bəs, nəyə görə bizə yalan deyirdilər? Çünki istəyirdilər ki, azərbaycanlılar ölməkdə davam etsinlər, şikəst olsunlar. Onlar daha sonra bizə mina xəritələrini təqdim etdilər. Amma həmin xəritələrin dəqiqliyi heç 25 faiz deyildi. Yəni, bunun heç bir mahiyyəti yox idi. Bu, çox mənasız xəritələr idi. Biz ciddi səylər göstəririk, tədbirlər həyata keçiririk ki, minalardan azad olaq. Biz avadanlıq almışıq, xüsusi maşınlar gətirmişik. Bizim yerli şirkətlərdən biri artıq Azərbaycanda onları istehsal etməyə başlayıb. Biz özəl şirkətləri dəvət etmişik və bu istiqamətdə bir neçə özəl şirkət yaradılıbdır, onlar da bu prosesə qoşulublar. Bizim dövlət minatəmizləmə agentliyimiz ANAMA Müdafiə Nazirliyinin müvafiq bölmələri və Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri ilə birlikdə gecə-gündüz çalışırlar ki, əraziləri minadan təmizləsinlər. Ancaq bizdə olan hesablamaya görə, ərazilərimizdə bir milyondan artıq mina basdırılıb. Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni, onlar etiraf etdilər ki, 400 mindən artıq mina basdırıblar. Ancaq biz bilirik və bu, olduqca dəqiq məlumatdır ki, minaların sayı 1 milyona yaxındır. Biz beynəlxalq şirkətlərdən bir neçə təklif almışıq ki, onlar bu sahədə işləsinlər. Təəssüf ki, qiymət çox yüksək idi. Mən təfərrüata varmaq istəmirəm, ancaq bu rəqəm bizdə olan rəqəmlərlə müqayisədə 8-10 dəfə artıq idi. Yəni, bizim yerli şirkətlərimiz və ANAMA minatəmizləmə fəaliyyətini beynəlxalq şirkətlərlə müqayisədə 8 və ya 10 dəfə ucuz həyata keçirir. Biz dronlardan fəal şəkildə istifadə edirik. Bizim bəzi parlaq zəkaya malik insanların sayəsində artıq belə dronlar var. Bu, bizə böyük yardım olur. Ancaq biz dərk edirik ki, bu, çox uzun bir prosesdir. Təəssüflər olsun, bilməliyik ki, gələcəkdə də qurbanlar olacaqdır, ermənilərin bizə qarşı terroru davam edir. Minalardan təmizlənməmiş əraziləri biz təcrid etmişik və azad olunmuş ərazilərə hələ də giriş məhduddur. Bu, bizə imkan verir ki, itkilərin qarşısını alaq. Ancaq keçmiş məcburi köçkünlər kütləvi şəkildə qayıdanda çox ehtiyatlı olmalıdırlar. Mən buradan onlara müraciət edirəm ki, icazə olmayan ərazilərə səfər etməsinlər. Bu, olduqca təhlükəlidir. Bu, ən böyük təhlükələrdən biridir. Təəssüf ki, bizi qarşıda uzun illər belə bir təhlükə gözləyir.

**Moderator:** Gürcüstandan Gela Vasadze.

**Gela Vasadze:** Cənab Prezident, hər şeydən əvvəl, belə irimiqyaslı və gözəl tədbirin təşkilinə görə sağ olun. Həqiqətən, təsirləndim. Mən sülhə doğru bir neçə addım və ya bir addım olması barədə Sizinlə razıyam. Lakin sülh Qarabağın erməni əhalisinin inteqrasiyası prosesinin necə keçəcəyindən asılıdır. Dostlarımla söhbət zamanı o xalq haqqında danışanda mən onlardan soruşuram: "Mənə bu xalqın telefonunu verin". Siz Qarabağ ermənilərinin telefonunu tapmısınız? Siz bu telefonu bilirsiniz? Sağ olun.

**Prezident İlham Əliyev:** Biz bu məsələ ilə bağlı öz mövqeyimizi dəfələrlə bəyan etmişik və maksimum konstruktivlik göstərmişik. Lakin təəssüf ki, Qarabağda hakimiyyəti ələ keçirmiş xunta və özlərini gah "prezident", gah "nazirlər", gah da "deputatlar" adlandıranlar artıq hər kəsdə gülüş doğurur. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüblər.

Biz təşəbbüs göstərdik, mən Qarabağ ermənilərinin nümayəndələri ilə təmasla məşğul olmaq üçün xüsusi nümayəndə təyin etdim və bu təmasların qurulması məqsədilə o, Qarabağa göndərildi. Birinci görüş məhz orada, Xocalı qəsəbəsində Rusiya sülhməramlı kontingentinin bazasında oldu. Bundan sonra biz Qarabağ ermənilərinin nümayəndələrini dialoqu davam etdirmək üçün Bakıya dəvət etdik. Lakin onlar imtina etdilər, həm də nümayişkaranə şəkildə. Müəyyən vaxtdan sonra biz onları yenidən dəvət etdik. Ola bilərdi ki, hansısa səhv olub, onların həqiqətən də bunu istəmədiklərinə əmin olmaq məsələsində yanlışlıq ola bilərdi. Yenə də imtina etdilər. Lakin mən onda dedim ki, üçüncü dəvət olmayacaq. İstəmirlərsə, demək, istəmirlər.

(ardı 4-cü səhifədə)

# Qlobal Media Forumunun açılış mərasimi

(əvvəli 3-cü səhifədə)

Amma sonra nə olduğunu yəqin ki, yaxşı bilirsiniz. Azərbaycan ilə Ermənistanın dövlət sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması. Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz. Biz utana biləcəyimiz və ya "bəli, bax, burada biz haqsızıq" deyəcəyimiz heç bir şey etməmişik. Biz hər şeyi düzgün etmişik.

Biz İkinci Qarabağ müharibəsinin başlanmasına qədər iki il müddətində erməni rəhbərliyinə də şans vermişik, amma onlar bundan istifadə etmədilər. Biz Laçın-Xankəndi yolunun, sadəcə, "özbaşına keçid" olduğu, Ermənistanın 2021-ci ildə istehsal etdiyi minaların bu yol vasitəsilə göndərdiyi vaxtda da şans verirdik. Biz bu minaları aşkar etdik, tapdıq. Biz Rusiya sülhməramlı kontingentinin, həmçinin Ağdamda yerləşən Rusiya-Türkiyə monitorinq mərkəzinin nümayəndələrini dəvət etdik, göstərdik və sual verdik: "Bu minalar Qarabağa necə gətirilib? Onları kim gətirib? Kim diqqətdən qaçırıb?". Halbuki, bu, mümkün deyil. Ermənistan terroru davam etdirdiyindən, biz Qələbədən sonra öz ərazimizdə nə üçün həlak olmalıyıq?!

Ona görə də bizim bütün addımlarımız məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli idi. Bu səbəbdən sərhəddə nəzarət-buraxılış məntəqəsinin qoyulması postmünaqişə dövründə mühüm mərhələ idi və şəraiti əhəmiyyətli dərəcədə dəyişdi. Həmçinin bu hərəkətlərin, hərçənd dərhal və bütün aktorlar tərəfindən heç də həvəslə deyil, tam qəbul edilməsi nəticədə legitim olaraq qəbul olundu. Bu da bir mesaj idi. Lakin biz neçə dəfə mesaj göndərməliyik, neçə dəfə işarə etməliyik? Məgər bunlar artıq az idi? Həm Fərrux əməliyyatı, həm 2021-ci ilin mayında Ermənistan-Azərbaycan sərhədində vəziyyət, həm 2022-ci ilin sentyabrında sərhəddə vəziyyət, həm də nəzarət-buraxılış məntəqəsi. Axı biz neçə dəfə onlara mesaj verməliyik? Məgər belə anlamazdırlar?

Ona görə indi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. İndi də istismar edirlər, çünki ekofeallar Laçın-Xankəndi yoluna çıxanda, Xankəndideki sözdə "erməni rəhbərliyi" sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi. Onlar blokpost qoyaraq, bizi blokadada ittiham edirdilər. Bu gün onlar yenə Ağdam-Əsgəran yolunda beton plitələr qoyublar. Siz "nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı "Qarabağ Azərbaycandır" dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox. Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır.

Bu gün çadırlarda oturub və kiməsə etiraz edilməsi komediya şousudur. Bu, sadəcə, lətifədir. Özünü "prezidentlər" adlandıran şəxslərin etiraz etməsi, oturaq tətil bizdə bəzi jurnalistlər tərəfindən zarafat mövzusu olub. Yəqin ki, növbəti mərhələdə "uzanan" tətil olacaq. Sonra nə bilim, hansı olacaq, lakin bu, məsələyə kömək etməyəcək. Biz Qarabağdakı erməni azlığının hüquqları və təhlükəsizliyinə əməl etməklə Konstitusiyamız çərçivəsində və Azərbaycanda bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübə çərçivəsində yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırıq.

Azərbaycan çoxmilləti və çoxkonfessiyalı dövlətdir, bizim gücümüz də bundadır. Azərbaycanda yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Nə üçün hansısa etnik qrup bu fonda fərqlənməlidir, bu, mənə də tam aydın deyil. Bax, bizim yanaşmamız belədir. Biz indiyədək Xankəndidə və ətrafında yaşayan cəmiyyətin sağlam düşüncəli hissəsinin Azərbaycana belə məhəl qoyulmamasının bütün perspektivsizliyini başa düşəcəyinə və sağlam düşüncənin üstünlük təşkil edəcəyinə inamımızı itirməmişik. Əks halda, düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər. Onların reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub.

Onlar müxtəlif instansiyalara, qonşulardan başlayaraq uzaqda yerləşən bəzi ölkələrə qədər müxtəlif dövlətlərə müraciət edirlər. Amma, zənnimcə, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonunda bu reallıqları başa düşməli və barışmalıdırlar. Artıq söylədim ki, işğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdi ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar.





**Paolo von Schirach, "Global Policy" İnstitutunun prezidenti:** Cənab Prezident, qonaqpərvərliyə görə təşəkkür edirəm. Siz müharibədə qalib gəlmisiniz, indi isə sülhü təmin etməlisiniz. Siz bu gün Azərbaycanda çalışmaq istəyən Amerika şirkətlərinə hansı mesajı verə bilərsiniz? Təbii ki, neft və qaz sahəsi bəllidir. Ancaq digər sahələrdə Amerika şirkətlərinə və biznes liderlərinə hansı mesajınız ola bilər ki, qarşılıqlı, faydalı, şəffaf fəaliyyət göstərsinlər. Bu fəaliyyət təbii ki, Sizin müharibədən əziyyət çəkmiş xalqınızın da mənafeyi naminə olmalıdır. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əlbəttə, bu gün bizim prioritetimiz təbii ki, qeyri-neft sektorunun inkişafıdır. Biz ümumi daxili məhsulda iqtisadiyyatımızın qeyri-neft sektorunun payını ildən-ilə artırırıq. O, artıq 50 faizdən yüksəkdir. Bu gün biz həm də qeyri-neft ixracını artırırıq. Mənim Amerika şirkətlərinə mesajım o ola bilər ki, bu gün kapital və sərmayə proqnozlaşdırılabilən və sabit məkanlara gedir, belə bir məkan məhz Azərbaycandır. Hətta işğal dövründə də Azərbaycan sabitlik məkanı idi. Ancaq əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalması müəyyən çətinliklər yaradırdı, müəyyən risklər doğururdu. Ancaq İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra həmin risklər ümumən minimuma endirilib.

Bizim hökumətimizin çox uzaqgörən və proqnozlaşdırılabilən proqramı var. İnkişafla bağlı, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı proqramımız var. Hesab edirəm, Azərbaycanda yaşayan əcnəbi insanlar təsdiq edə bilərlər ki, ölkəmizdə idarəçilikdə çox müsbət dəyişikliklər var, xüsusilə də bizim maliyyə sistemimizdə. Korporativ menecment baxımından da bizim şirkətlərdə böyük dəyişikliklər var. Biz artıq həmin prosesin yekun mərhələsindəyik və məqsədimiz də tam şəkildə beynəlxalq standartlara uyğun olmalıdır. Bizim ölkəmizin iqtisadiyyatı sabitdir. Xarici borcumuz ümumi daxili məhsulla müqayisədə təqribən 10 faizə bərabərdir. Bizim valyuta ehtiyatlarımız da ümumi daxili məhsuldan 10 dəfə artıqdır və biz xarici borcumuzu bir həftə içərisində bağlaya bilərik.

Ticarət dövriyyəmiz böyük profisitlə həyata keçirilir. Bu son altı ay ərzində ixrac-idxalla müqayisədə bizim profisitimiz 10 milyard dollara bərabər idi. Siyasi vəziyyət sabitdir. Azərbaycan özünü neftqaz sahəsində etibarlı tərəfdaş kimi sübut edib və bu gün coğrafi yerləşməni, artıq çox müasir nəqliyyat infrastrukturunu nəzərə alaraq əlaqələndirmə məsələlərində fəal çalışır. Beləliklə, şirkətlər üçün bizim ümumi mesajlarımız budur. Hesab edirəm ki, bu, Azərbaycana gəlmək istəyən şirkətlər üçün yaxşı bir mesajdır.

Prioritet sahələrə gəldikdə, əlbəttə ki, bir nömrəli məsələ azad olunmuş ərazilərin yenidən qurulmasıdır. Azad olunmuş ərazilərdə bu gün çoxsaylı beynəlxalq şirkətlər kontraktor kimi fəaliyyət göstərir.

Bizim fəal çalışdığımız digər bir mühüm sahə rəqəmsallaşmadır. Həmin sektora böyük həcmdə maliyyə vəsaiti ayrılıb. Böyük potensialımız var. Mən bilirəm ki, bəzi Amerika şirkətləri artıq bərpaolunan enerji sahəsinə maraq göstərir. Biz bu sahədə çox böyük potensiala malikik. Bakını yaxşı tanıyan insanlar bilirlər ki, Bakı çox küləkli şəhərdir və əlbəttə, bəzən külək güclü olanda bu, problem yaradır. Ancaq, eyni zamanda, biz görürük ki, külək Xəzər dənizində də böyük gəlir gətirəcək. Artıq Beynəlxalq Maliyyə Korporasiyası hesablama aparıb. Hesablamaya görə, təkcə Xəzər dənizində 157 qiqavat həcmində potensial var. Yeni bərpaolunan enerji sahəsində şirkətlər artıq fəaliyyət göstərir. Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında saziş imzalandı və Avropa İttifaqının Prezidenti də orada iştirak edirdi. Həmin layihəyə əsasən, biz Azərbaycandan Avropaya Qara dənizin dibi ilə yaşıl enerji xətti inşa edəcəyik. Artıq ilkin hesablama aparılıb və texniki-iqtisadi əsaslandırmanın yəqin ki, sentyabr-oktyabr aylarında təqdim olunacağını gözləyirik. Layihə üzrə Rəhbər Komitənin ilk iclası fevralda Bakıda keçirilib.

Bu ilin sonunadək 240 meqavat gücündə birinci Günəş enerjisi stansiyası istifadəyə veriləcəkdir, lakin bu, yalnız birincidir. Biz 10 qiqavat səviyyəsində memorandumlar və sazişlər imzalamışıq. Beləliklə, texniki-iqtisadi əsaslandırmaya başlanılıb. Həmin memorandumların yarısı belə həyata keçirilsə, bu, bizim üçün kifayət edəcək ki, Avropada geniş coğrafiyaya elektrik enerjisini ixrac edə bilək. Bu, bizə elektrik enerjisi istehsal etmək üçün təbii qaza da qənaət etməyə imkan verəcək və biz həmin həcmləri beynəlxalq bazara çıxaracağıq. Yəni, bu, hər kəs üçün uduşlu bir vəziyyətdir.

Mən Amerika şirkətlərini kənd təsərrüfatı sahəsində də görmək istərdim. Biz, əlbəttə ki, kənd təsərrüfatı sahəsində, suvarmada Amerika şirkətlərinin aparıcı avadanlıqlarından istifadə edirik. Ancaq mən investor görmək istəyirəm, çünki Azərbaycanın kənd təsərrüfatı sahəsinin, xüsusilə azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialı olduqca böyükdür. Burada çox məhsuldar torpaqlar var və bizim su resurslarımızın 25 faizi məhz Qarabağdan qaynaqlanır. Təsəvvür edirsiniz, biz 30 il bundan məhrum edilmişdik. Ermənilər platinaları və dambaları bağlayırdılar və bizim 100 minlərlə hektar torpağımız sudan məhrum edilirdi. Biz məcbur idik ki, artezian quyuları qazaq. Bu gün isə artıq həmin su nəinki Qarabağın həyat mənbəyidir, həmin su ehtiyatlarını Azərbaycanın mərkəzi rayonlarına da gətirəcəyik. Belə bir boru kəməri inşa ediləcəkdir.

Kənd təsərrüfatına nəqliyyat sahəsini də əlavə etmək istərdim. Təbii ki, nəqliyyat sektoru beynəlmiləl sektordur, yəni, bir ölkə nəqliyyat qovşağı ola bilməz. Yəni, qovşaq olmaq üçün qonşularla işləmək lazımdır. Bu sahədə bizim qonşularla böyük beynəlxalq əməkdaşlığımız var və nəqliyyat infrastrukturunun genişləndirilməsi üçün böyük potensial mövcuddur.

**Moderator:** Zati-aliləri, növbəti sual, "Əl-Cəzirə" televiziyasından Muhammed Əl Kadi.

**Muhammed Əl Kadi:** Çox sağ olun, hörmətli Prezident. Bu gözəl Şuşa şəhərində, Azərbaycanın mədəniyyət paytaxtında qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm. Sual ərəb dilində olacaq, qoy bilinsin ki, həqiqətən də bu Forumda ərəblər də var. Çünki ərəblər, həmçinin Qarabağda olan müharibəni böyük maraqla izləyirdilər və görürdük ki, Siz onlarla muzeylərə, məktəblərə, məscidlərə dəyən zərərlərdən danışırdınız. Həmçinin tarixi yerlərdən, abidələrdən və minlərlə əlyazmaları, kitabları tələf etmələrindən danışırdınız. Sizin fikrinizcə, ermənilər Azərbaycanın mədəni irsinə qarşı planlaşdırılmış bu dağıntıları nəyə görə etdilər?

Digər sualımız, Qarabağın yenidən qurulması nə vaxt bitəcək və nə qədər çəkəcək? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. Böyük Qayıdış Proqramı qəbul edilib. Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq. Yəni, bu, ancaq başlanğıcdır. Mərhələlərə bölünən bu proqramın icrasının da nə qədər çəkəcəyini demək çətindir. Çünki birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində.

Ancaq bu proses tədricən gedir. İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcminin daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq.

Mən Laçın şəhərinin timsalında deyə bilərəm ki, bu şəhər cəmi səkkiz ay ərzində tamamilə yenidən quruldu və orada 700-dən çox ailə üçün bu gün şərait var. Həm fərdi evlər, həm çoxmənzilli evlər. Sentyabrın 15-dək məktəb də hazır olacaq, uşaq bağçası da hazır olacaq, xəstəxana da hazır olacaq və digər sosial obyektlər də inşa edilir.

Ona görə növbəti beş il ərzində əminəm ki, azad edilmiş bütün şəhərlərdə artıq insanlar yaşayacaqlar. Amma şəhərlərin inkişaf planı, əlbəttə ki, daha genişmiqyaslıdır. Çünki məsələn, əgər Ağdam şəhərini götürsək, işğaldan əvvəlki dövrdə bu şəhərdə təqribən 40, bəlkə də 50 min insan yaşayırdı. Bizim Baş planımıza görə Ağdam şəhərində 100 minə yaxın insan yaşayacaq. Təbii ki, bütün bunlar mərhələli yollarla ediləcək. Çünki vəsait o zaman xərclənməlidir ki, artıq insanlar oraya getməyə hazır olsunlar.

O ki qaldı birinci sualınıza, mən öz şərhlərimdə qeyd etdim ki, bu günə qədər də başa düşə bilmirəm bu qəddarlığın, bu nifrətin mənbəyi haradan qaynaqlanır? Çünki ermənilər Azərbaycan ərazisində uzun müddətdir ki, yaşayırlar. Onların kütləvi surətdə Qarabağa köçü XIX əsrin birinci yarısında başlamışdır. 1805-ci ildə Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığı, ondan sonra imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə isə Azərbaycanın digər xanlıqları Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Görkəmli dövlət xadimlərinin yazıları, məktubları, açıqlamaları - bütün bunlar tarixən təsdiqlənir. Yəni, onlar bu torpaqlara - Qarabağ torpağına qonaq kimi gəlmişdilər, o cümlədən Şuşaya. Onlar iddia edirdilər ki, Şuşa erməni şəhəridir. Birincisi, Şuşa şəhərinin tarixi o qədər də uzaq illərə getmir. 1752-ci ildə Pənahəli xan Şuşada şəhər salmışdır və keçən il Azərbaycanda "Şuşa İli" elan olunmuşdur. Çünki biz Şuşanın 270 illiyini qeyd edirdik. Yaradılandan işğala qədər Şuşada yaşayanların mütləq əksəriyyəti azərbaycanlılar olub.

Əgər Şuşa erməni şəhəri idisə, nə üçün belə acınacaqlı vəziyyətdə idi? Nə üçün Şuşanın 17 bulağı da işğal dövründə ermənilər tərəfindən qurudulmuşdur? Mən Şuşaya 2021-ci il noyabrın 14-də gələndə xüsusilə maraqlandım. Çünki Şuşa 17 məscid, 17 bulaq şəhəri idi. Əgər bu, sizin şəhəriniz idisə, nə üçün siz bulaqları qurutdunuz? Nə üçün siz Şuşada bir daşı daş üstə qoymadınız? Şuşada işğal dövründə tikilən təzə iki və ya üç villa var, onlar da Laçın-Xankəndi yolunun üstündə. Onların da biri Qarabağda, Xankəndidə yerləşən xunta başçısınındır. Deyilənə görə, biri xunta başçısı tərəfindən Ermənistan rəhbərlərinin birinə bağışlanıb, digərinin isə sahibi bəlli deyil.

Bundan başqa, Xankəndi xuntası Şuşada bir daşı daş üstə qoymayıb. O ki qaldı digər şəhərlərə, onların Azərbaycana qarşı, xalqımıza qarşı nifrəti normal insan psixikasına sığışmır. Gərək psixoloqlar, psixiatrlar daha çox təhlil aparıb bizə desinlər ki, bu qəddarlığın, barbarlığın səbəbi nədir? Yəni, qəbir daşlarını oğurlayıb orada azərbaycanlıların adlarını silib öz yaxınları üçün qəbir daşları kimi istifadə edirdilər. Bu, hansı mənəviyyata sığan bir məsələdir? Yaxud azərbaycanlıların qəbirlərini qazıb orada ölülərin kəllələrindən qızıl dişlərini çıxararaq əridib bazarda satmaq hansı mənəviyyata sığır? Mən hələ ekologiyaya vurulmuş ziyanı demirəm - 60 min hektar meşə fondu ermənilər tərəfindən məhv edildi, doğrandı və sonra parket kimi satıldı.

İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya tərəfindən bizə müraciət olundu ki, onlara vaxt verin torpaqlardan çıxsınlar - Ağdam, Kəlbəcər, Laçın. O biabırçı mənzərəni biz hələ unutmamışıq. Ağacları qırırdılar, evləri yandırırdılar, ağacları yandırırdılar və azərbaycanlıların yaşadıqları evlərdə, harada ki, qanunsuz məskunlaşmışdılar, hətta, necə deyərlər, ən ucuz əşyalarını söküb bellərində aparırdılar bütün dünyanın gözü qarşısında. Yəni, buna hansı ad vermək olar? Ona görə biz bu əməllərin sahiblərindən nə gözləyə bilərik? Mənim bütün dediklərim 100 faiz həqiqətdir. Mən heç nəyi zərrə qədər şişirtmirəm. Hələ çox şeyləri demirəm.

Bir səbəb də ola bilər ki, bu bölgəni tamamilə erməniləşdirmək, Azərbaycanın mədəni irsini silmək üçün və öz aləmlərində bu torpaqları gələcəkdə yaşayış üçün yararsız hala salmaq məqsədilə bunları ediblər. Çünki gördüyünüz bu dağıntılar, - ən böyük dağıntılara məruz qalan Füzuli və Ağdam şəhərləridir, orada bir dənə də salamat bina qalmayıb, - müharibə zamanı olan dağıntılar deyil. O dağıntılar Birinci Qarabağ müharibəsindən sonra bu evlərin sökülməsi nəticəsində olan dağıntılardır. Daşları bir-bir söküb aparıb orada-burada satıblar. Yəni, buna nə ad vermək olar?

Biz erməni xalqının tarixi mirasına əl dəymirik. Bax, burada, Şuşada erməni kilsəsi var. Hər kəs gedib baxa bilər, orada bir daşa da dəyilməyib, əksinə, ora qorunur. Yəni, bizim münasibətimiz budur və biz onlardan törətdikləri əməllərə görə qisas almaq fikrində deyilik. Mən hələ müharibə vaxtı və müharibədən sonra onu demişdim ki, biz qisası döyüş meydanında almalıyıq və aldıq da, şəhidlərimizin qanını da döyüş meydanında aldıq. Biz heç vaxt dinc əhaliyə qarşı vuruşmamışıq. Amma onlar müharibə zamanı bizim dinc şəhərlərimizi "İsgəndər", "Toçka", "Skad" raketləri ilə atəşə tuturdular. Yüzə yaxın günahsız insan, o cümlədən 12 uşaq bu namərd atəş nəticəsində həlak olmuşdur.

Yəni, bilirsiniz, bütün bunları deməklə mən yenə də bildirmək istəyirəm ki, bu yaddaş silinmir, silinməyəcək və silinməməlidir. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır. Yenə də deyirəm, qisas almaq üçün yox, unutmamalıdır ki, heç vaxt təkrarlanmasın. Çünki biz bir dəfə səhv buraxmışdıq, qonşulara çox inandıq və sonra onun acısını çəkməli olduq.

Hər halda, hər şey göz qabağındadır. Bu toplantılar məhz, o cümlədən ona görə əhəmiyyətlidir ki, burada toplaşan beynəlxalq media nümayəndələri hər şeyi öz gözləri ilə görəcəklər və görürlər, Azərbaycan həqiqətlərini öz ölkələrinə, öz ölkələrinin nümayəndələrinə, ictimaiyyətinə çatdıracaqlar. Biz bunu istəyirik.

İşğal dövründə bura bir növ qadağan edilmiş zona idi. Şuşa şəhərinə hələ bəzi xariciləri buraxırdılar, amma Ağdam, Füzuli bölgələrinə heç kimi buraxmırdılar. Çünki gələn adam hər şeyi görəcəkdi. Amma indi hər şey göz qabağındadır və bu, bir daha göstərir ki, biz hansı tarixi nəticə əldə etmişik. Biz təkcə Ermənistanı məğlub etmədik, bizim ermənı faşizminin belini qırdıq. Biz erməni xalqını demək olar ki, bu bədəməllərdən xilas etdik. Bəlkə İkinci Qarabağ müharibəsindəki bu acı məğlubiyyət onlara dərs olacaq və onlar oturub fikirləşəcəklər ki, bundan sonra bu bölgədə necə yaşasınlar, öz günahlarını etiraf edəcəklər, öz cinayətlərini etiraf edəcəklər, cinayətkarları məsuliyyətə cəlb edəcəklər. Artıq bu proses başlayıb. Ermənistanda əli Azərbaycan xalqının qanına batmış cəlladlar elə erməni hakimiyyəti tərəfindən cəzalandırılır. Bu, ədalətlidir və bunun davamı olmalıdır. Ancaq o təqdirdə xalqlar arasında real barışıq ola bilər. Sülh müqaviləsi imzalana bilər, ancaq əsas məsələ ondadır ki, ictimai müstəvidə barışığa doğru addımlar atılsın və onlardan birincisi ermənilər tərəfindən öz günahlarının etiraf edilməsidir.

**İqor Korotçenko, rusiyalı hərbi ekspert:** Təşəkkür edirik, cənab Prezident. Siz öz çıxışınızda qeyd etdiniz ki, dünya təlatümlüdür, hər şey çox sürətlə dəyişir və bu fonda Azərbaycan uğura nail olur. O, qaya kimi dayanıb. Bir çox ölkə üçün Azərbaycan bu gün ən müxtəlif problemlərin həllinin örnəyidir. Cənab Prezident, Azərbaycanın gələcəyinin strateji baxışı Sizin əllərinizdədir, Siz Azərbaycanın gələcəyini necə görürsünüz? Sağ olun.

**Prezident İlham Əliyev:** Əvvəlcə, bizim gördüyümüz işlərə və ölkənin özünü hansı mövqedə nümayiş etdirməsinə verdiyiniz qiymətə görə sağ olun. Prinsip etibarilə strateji inkişaf istiqamətləri bir çox illər bundan əvvəl müəyyən edilmişdir. Yeganə məqam odur ki, həyat öz dəyişikliklərini əlavə edir və dəyişən reallıqları planlarımıza inteqrasiya etməli oluruq. Amma deməzdim ki, bu, təməl xarakter daşıyır. İşğal altındakı ərazilərin azad olunmasından sonra əlbəttə ki, sosial-iqtisadi məsələlər ön planda dayanır. Çünki Azərbaycan siyasi proseslər düzgün istiqamətdə gedir. Cəmiyyətdə gələcəyimizin əsas məsələləri üzrə konsensus var, həmrəylik var - istər siyasi, istər iqtisadi inkişaf olsun, yaxud da ki, sosial siyasətlə bağlı məsələlər olsun. Odur ki, hazırda Azərbaycan xalqının rifahının yüksəldilməsi əsas məsələdir. Bundan əvvəl də bu, əsas prioritetlərdən biri idi. Lakin başlıca prioritet, əlbəttə ki, ərazilərin işğaldan azad edilməsi və müvafiq olaraq Silahlı Qüvvələrin potensialının artırılması məsələsi idi. O ki qaldı indi Azərbaycanın müdafiə qabiliyyətinə, bu məsələ yenə də diqqət mərkəzində qalmaqdadır, İkinci Qarabağ müharibəsinin təcrübəsini, bizə daha çox lazım olanları, daha az lazım olanları, daha çox nəyin istifadə olunduğu, daha az nəyin istifadə edildiyini nəzərə almaqla.

(ardı 5-ci səhifədə)

# Qlobal Media Forumunun açılış mərasimi

(əvvəli 4-cü səhifədə)



Siz hərbi quruculuq məsələlərinə yaxşı bələd olan bir insan kimi məni yaxşı başa düşürsünüz. Bununla belə, birinci planda, əlbəttə ki, dayanıqlı inkişaf məsələləri durur, neft və qaz sektorundan asılılığın azaldılması dayanır. Düşünürəm ki, bu hədəf, bu məqsəd neft hasil edən bütün ölkələrin qarşısında dayanır. Neft sənayesinin iqtisadiyyatda önəmli yer tutan ölkələrdə bunu etmək o qədər də asan deyil. Amma bunsuz dayanıqlı inkişaf mümkün olmayacaq. Çünki təbii resurslar bitən resurslardır, biz iqtisadiyyatın istənilən şəraitdə və vəziyyətdə dayanıqlı olmasını təmin etməliyik. Təbii ki, biz ehtiyat yaradırıq, valyuta ehtiyatlarımızı artırırıq, idarəetmə sistemini təkmilləşdiririk. Bütün bunlar bizə əlavə imkanlar qazandırır.

Statistik olaraq vergi və gömrük orqanlarının proqnozları həyata keçirmə qabiliyyətinə baxsanız, mənzərə kifayət qədər təsiredicidir. Artıq ilk il deyil ki, may və iyun aylarında biz büdcəyə əlavələri artım istiqamətində qəbul edirik və bunun əsası odur ki, vergi və gömrük orqanları planlaşdırılandan daha çox gəlir əldə etmişlər. Bu, yalnız və yalnız şəffaflıq və yeni idarəetmə yanaşması sayəsində mümkün olmuşdur. O ki qaldı daha geniş kontekstdə, bilirsinizmi, burada heç də hər şey bizdən asılı deyil. Ermənistanla münasibətlərin tənzimlənməsində də biz sülh müqaviləsinin imzalanmasına nail olsaq, bu, ümumiyyətlə, Cənubi Qafqazda vəziyyəti sağlamlaşdıracaq və Cənubi Qafqazı yüksək risk zonasından çıxarmış olacaq. Çünki yüksək risk zonası təkcə ekspertlərin qiyməti deyil, bu, həmçinin reytinqlərdir, kreditlənmə imkanlarıdır. Bunlar birbaşa olaraq xarici sərmayələrlə bağlı məsələdir, xüsusilə indi. İnvestorlar, ilk növbədə, potensial və mümkün riskləri nəzərə alırlar. Ermənistanla münasibətlərin tənzimlənməsi bu sualı gündəmdən çıxaracaq. Münasibətlərin normallaşması həm bizim iqtisadiyyat, həm də Ermənistan iqtisadiyyatı üçün və ümumiyyətlə, daha genişmiqyaslı planların gerçəkləşdirilməsinə imkan verəcək. Müdafiə potensialı ilə bağlı bu qədər maliyyələşdirməyə ehtiyac qalmayacaq. Odur ki, müəyyən maliyyə resursları ixtiyarımızda sərbəst olacaqdır.

Qeyri-energetika sahəsində də mən məhz Qarabağı və Şərqi Zəngəzuru görürəm. Çünki təbii və iqlim şəraitinə, turizm potensialına, kənd təsərrüfatı və həmçinin bərpaolunan enerji mənbələri resurslarına, potensialına görə bu regionlar bizim ümumi daxili məhsulda ciddi artım təmin edəcək. Məsələn, qeyd edim, növbəti ilin sonuna qədər 200 meqavat gücündə olan 30 hidroelektrik stansiyanın tikintisini başa çatdıracağıq. Artıq 50 meqavatdan çox istismara verilib. Müqayisə üçün, mən ola bilsin ki, bir az təfərrüata varıram, amma ola bilsin sizin üçün maraqlı ola bilər. Qarabağda su elektrik stansiyalarının istifadə səmərəliliyi Azərbaycanın hər hansı digər bölgəsi ilə müqayisədə dəfələrlə yüksəkdir. Yəni, o dərəcədə güclü axın var çatlar o dərəcədə suludur. Hər bir elektrik stansiyası öz səmərəlilik əmsalına malikdir, buxar, qaz, istərsə də su elektrik stansiyası olsun. Yəni, burada son dərəcə səmərəlilik mövcuddur. Yəni, Kəlbəcər-Laçın zonasında külək enerjisinin nəhəng potensialı mövcuddur. Cəbrayıl rayonunda isə demək olar ki, bir neçə aydan sonra 240 meqavat gücə malik günəş stansiyasının tikintisinə başlanacaq. Yəni, bu, olduqca böyük enerji potensialıdır. Üstəgəl, logistik mərkəz. Çünki Zəngəzur dəhlizini heç kim ləğv etməyib, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq. Bu isə olduqca böyük potensial açır. İndi belə bir müasir kəlmə var "bağlantı", yəni, ingilis dilində "konnektiviti". Amma tam mənada suala cavab vermək üçün ayrıca bir müsahibəyə ehtiyac var. İnşallah, bunu da edərik. Təşəkkür edirəm.

**Moderator:** Növbəti sual, Xəlil Muhamməd İbrahim (Çad).

**Xəlil Muhamməd İbrahim:** Hörmətli Prezident, torpaqlarınızı azad etdikdən sonra bir çox ölkələr Sizə mənəvi, logistik və diplomatik dəstək verdilər. Bir çox ölkələrin mövqeləri aydın deyildi. Sizin diplomatik əlaqələriniz gələcək Azərbaycan üçün necə olacaqdır? İkinci sual, bu kontekstdə Azərbaycanın Afrika dövlətləri ilə əlaqələri necə olacaq. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Afrika ölkələri ilə bizim əlaqələrimiz sürətlə inkişaf edir. Bir müddət bundan əvvəl Afrika İttifaqında səfirliyimiz də açılmışdır. Bununla bərabər, biz Qoşulmama Hərəkatı çərçivəsində Afrika ölkələri ilə sıx əlaqədəyik. Mən artıq bunu qeyd etmişəm, COVID dövründə bizim göstərdiyimiz humanitar yardımın bir hissəsi Afrika qitəsinə də istiqamətləndirilmişdir. Onu da bildirməliyəm ki, bu günə qədər iqtisadi-ticari sahədə əlaqələr o qədər də yüksək səviyyədə deyil, necə ki, siyasi müstəvidə. Bunun yəqin ki, təbii səbəbləri var. Hesab edirəm ki, təmaslar daha sıx olduqca bu istiqamətdə də imkanlar dəyərləndiriləcək. Hər halda biz bunda maraqlıyıq.

O ki qaldı İkinci Qarabağ savaşı dönəmində ölkələrin mövqeyinə, artıq bu, tarixdə qalıb. Biz bilirik bizim yanımızda kim olub, biz bilirik Ermənistanın yanında kim olub, neytral mövqedə kim olub. İndi bu məsələnin yenidən gündəmə gətirilməsi hesab edirəm ki, düzgün olmaz. Bizim əsas vəzifəmiz torpaqlarımızı azad etmək idi, buna da nail olduq. Hər bir ölkənin öz gündəliyi var, öz xarici siyasəti var, necə deyərlər, öz daxili səbəbləri var. Biz bunu da başa düşürük. Bəzi ölkələrdən bəlkə daha çox dəstək gözləyirdik, bəzi ölkələrdən, ümumiyyətlə, heç nə gözləmirdik. Yəni, bu, beynəlxalq münasibətlərin qanunlarıdır. Deyə bilərəm ki, bizim təcrübəmizdə belə məsələlər ikitərəfli münasibətlərə o qədər də böyük təsir göstərmir. Deyə bilərəm ki, heç işğal dövründə də bir çox ölkələr tərəfindən neytral mövqe görmüşdük, halbuki, bununla razı deyildik, çünki biz haqlı olaraq tələb edirdik ki, haqq-ədalət mövqeyi üstünlük təşkil etsin. Eyni zamanda, işğal dövründə Ermənistanla həmrəy olan ölkələrin mövqeyini görmüşdük. Ancaq yenə də deyirəm, bu, bizim o ölkələrlə münasibətlərimizin dondurulmasına gətirib çıxarmamışdır, bu birincisi. İkincisi, mən hesab edirəm ki, biz buna müəyyən dərəcədə nail olduq, biz qarşı tərəfin meydanında da oynamağa cəhd etməli idik və bunu da etdik. Ermənistanın yaxın müttəfiqləri sayılan ölkələrlə də, - işğal dövründə, mən o dövrü nəzərdə tuturam, - bizim əlaqələrimiz uğurla inkişaf etdi. Biz o ölkələrə göstərməyi bacardıq ki, onların real olaraq həm siyasi, həm iqtisadi və digər maraqları məhz Azərbaycandadır, Ermənistanda yox. Bu amil də imkan verdi ki, həmin ölkələrin ermənipərəst mövqeyinə müəyyən dərəcədə düzəlişlər edilsin. Düzdür, İkinci Qarabağ müharibəsi dövründə və müharibədən sonra Ermənistana yaxınlığı ilə seçilən ölkələr artıq öz ermənipərəst mövqeyini gizlədə bilməmişdilər, yaxud da bunu istəməmişdilər. Bu, bizim o ölkələrlə münasibətlərin müəyyən dərəcədə gərginləşməsinə gətirib çıxarmışdır. Ancaq bu, o demək deyil ki, bu, əbədi belə olacaq. Bu mərhələ də başa çatacaq, yeni mərhələ açılacaq və əsas odur ki, sənin gündəliyin olsun.

Biz postmüharibə dövründə hər şeyi ardıcıllıqla etmişdik, bir addım əvvəlki addımın məntiqi davamı idi . Biz hədəfə doğru gedirdik və gedirik, bir çox hədəflərə çatmışıq. Bəzi hədəflər var ki, biz hələ onlara çatmamışıq, amma onlara da çatacağıq. O hədəflərə çatmaq üçün əlbəttə ki, siyasi səriştə də az önəmli deyil. Ona görə bütün ölkələrlə bizim əlaqə kanallarımız açıqdır. Bununla paralel olaraq, biz yeri gələndə öz narazılığımızı da, etirazımızı da, cavab addımlarımızı da lazımi səviyyədə ifadə edirik və atırıq.

**Qırğızıstandan Nurcan Qasımalıyeva:** İkinci Qarabağ müharibəsindən sonra bir sıra Mərkəzi Asiya ölkələri öz marağını ifadə etmişdir ki, Azərbaycana işğaldan azad olunmuş ərazilərin bərpasında dəstək göstərsinlər. Azərbaycan Mərkəzi Asiya ölkələrindən artıq hansı dəstəyi, yaxud da hansı köməyi alıb? Ümumiyyətlə, Siz Mərkəzi Asiya ölkələri ilə münasibətləri necə xarakterizə edərdiniz, xüsusilə Qırğızıstanla?

**Prezident İlham Əliyev:** Biz göstərdikləri dəstəyə görə Mərkəzi Asiyadan olan dostlarımıza və qardaşlarımıza təşəkkürümüzü ifadə etmək istəyirik. Siz Füzuli Hava Limanından gələndə binaların inşası layihəsini gördünüz. Orada, həmçinin məktəb var və o, səxavətli şəkildə Özbəkistan tərəfindən inşa edilməkdədir. Həmçinin incəsənət mərkəzi var, Qazaxıstan tərəfindən ianə kimi ayrılıb. Hər ikisi hazırda inşa mərhələsindədir. Məktəb avqustun sonuna qədər hazır olmalıdır, gənclər üçün olan incəsənət mərkəzi isə ilin sonuna qədər. Bu, iki dəstək rəmzidir və müharibədən sonra xaricdən aldığımız dəstək bu qədər olmuşdur. Qeyd etməliyəm ki, bu, çox mühüm bir jest idi və həmrəylik nümunəsi idi. Düşünürəm, aydın məsələdir ki, biz məktəbləri özümüz də inşa edə bilərik və biz bunu edirik. Lakin bu, onların həmrəylik nümayiş etdirmək üçün həqiqi istəyidir və doğrudan da qarşımızda böyük işlər var.

O ki qaldı Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa, bu münasibətlər dinamikdir. Mən keçən il, həmçinin bu il Mərkəzi Asiya ölkələrinin bir çoxuna rəsmi səfər etmişəm. Eyni zamanda, Mərkəzi Asiya ölkələrinin prezidentləri Azərbaycana rəsmi səfər etmişlər. Həmçinin ilin sonuna qədər dost ölkələrdən əlavə səfərlərin həyata keçirilməsini gözləyirik. Biz ikitərəfli əsaslarda çox fəal işləyirik, xüsusilə sərmayələr və ticarət sahələrində. Biz Özbəkistanla birgə İnvestisiya Fondu yaratmışıq və həmçinin Qırğızıstanla da belə bir təşəbbüs artıq başlayıb. Qeyd etməliyəm ki, aktivlərin həcmi bir o qədər də çox deyil. Lakin bu, layihələrin mövcudluğundan asılı olacaq. Özbəkistanla fond yarım milyard ABŞ dollarına bərabərdir, Qırğızıstanla isə iyirmi beş milyon. Çünki hələ icra üçün layihələr yoxdur. Sözsüz ki, bu fondlar genişləndirilə bilər və düşünürəm ki, genişləndiriləcək.

Eyni zamanda, sualınızda Qırğızıstanla münasibətlərə toxundunuz. Bu münasibətlər çox yaxşıdır, dost münasibətləridir. Mən sizin ölkənizə rəsmi səfər etmişəm və ölkənizin Prezidenti Azərbaycana səfər etmişdir. Bizim, həmçinin Türkdilli Dövlətlər Təşkilatının Sammitində, eyni zamanda, MBD ölkələrinin sammitlərində vaxtaşırı görüşlərimiz olur. Biz, həmçinin Mərkəzi Asiya ölkələri ilə rabitə və nəqliyyat əlaqələrinin qurulması üzərində işləyirik. Bir həftə əvvəl Özbəkistanın Baş naziri, ondan əvvəl isə Qazaxıstanın Baş naziri Azərbaycanda səfərdə olmuşlar. Görüşlərdə müzakirələrin əsas mövzusu nəqliyyat, Xəzər dənizindən keçməklə nəqliyyat yollarının Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropaya çıxmasıdır. Bu yol Mərkəzi Asiya ölkələri üçün ən mühüm nəqliyyat marşrutlarından biri olacaq. Çünki Azərbaycanın nəqliyyat infrastrukturu müasirdir və eyni zamanda, hazırda yükdaşıma potensialı çox yüksəkdir. Düşünürəm ki, münasibətlərimizin çox gözəl gələcəyi var.

**Moderator:** Növbəti sual İranın İRNA xəbər agentliyindən Muhammed Rizapurdandır.

**Muhammed Rizapur:** Cənab Prezident, dəvətə görə Sizə təşəkkür edirəm. Sizi İRNA xəbər agentliyi adından, İran adından salamlayıram. Cənab Prezident, İran və Azərbaycan hökumətləri tərəfindən böyük səylər göstərilir ki, iki ölkə arasında münasibətlər inkişaf etsin, güclənsin. Yaxın günlərdə icra olunacaq layihənin başlanması münasibətlərin güclənməsinə necə təsir edir?

**Prezident İlham Əliyev:** Üzr istəyirəm, sualınız aydın olmadı. Xahiş edirəm, sualınızı təkrar verin.

**Muhammed Rizapur:** "İRNA Azəri"nin fəaliyyətə başlaması münasibətlərin güclənməsinə necə təsir göstərəcək?

**Prezident İlham Əliyev:** Bəlkə bizdən bir az uzaqsınız, odur ki, sualınızı tam eşidə bilmirik. Xahiş edirəm, sualınızı moderatora söyləyin, o da bizə çatdırsın.

**Moderator:** İRNA-nın Azərbaycandakı bürosunun açılışı? Yaxın günlərdə İRNA agentliyi Azərbaycanda öz bürosunu açacaq və "İRNA Azəri" iki ölkə arasında nə kimi rol oynaya bilər?

**Prezident İlham Əliyev:** Mən ümid edirəm ki, "İRNA Azərbaycan" doğrudan da iki ölkə arasında münasibətin güclənməsinə müsbət təsir göstərəcək. Çünki məsuliyyətli KİV kimi sözsüz ki, qonşu ölkələr arasında münasibətlərin güclənməsinə müsbət təsir göstərə bilər. Düşünürəm ki, ən yaxşı üsul İrandakı auditoriyanızı Azərbaycandakı reallıqlar, Qarabağın və Şərqi Zəngəzurun bərpa prosesi haqqında məlumatlandırmaqdır. Əlbəttə, yaxşı olardı ki, İranda daha çox insan İkinci Qarabağ müharibəsi və postmüharibə vəziyyəti, ələlxüsus, Azərbaycanın daha geniş regional əməkdaşlıq gündəliyi haqqında məlumatlı olsun. Sizə fəaliyyətinizdə uğurlar diləyirəm. Əminəm ki, siz münasibətlərin güclənməsində müsbət rol oynayacaqsınız.

**Moderator:** Növbəti sual, TRT World Araşdırmalar Mərkəzinin rəhbəri Tarek Çerkauididəndir.

**Tarek Çerkauidi:** Zati-aliləri, Siz döyüş meydanında Qələbədən sonra indi bərpa və yenidənqurma işlərində də qələbə çalırsınız. Mənim sualım Şuşa ilə bağlıdır. Növbəti 10 ildə Şuşanı necə görmək istəyirsiniz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Əlbəttə, Şuşanın bərpası başlanılıbdır, bir müddət öncə Baş plan təsdiq edilibdir və indi artıq ilk yaşayış layihəsi icra olunur. Siz onları şəhərin bir neçə yerində görə bilərsiniz. Həmin layihələr çərçivəsində Şuşa sakinləri yenidən evlərinə qayıdacaqlar. Bununla yanaşı, artıq qeyd etdiyim kimi, Şuşa Prezident Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilibdir və bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız olacaqdır, insan axını olacaqdır. Çünki bu, nadir, misilsiz bir məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir. Əlbəttə ki, bu şəhər qaya üzərində qurulubdur, qədim şəhərdir və bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır. Biz hazırda fəal sürətdə tarixi memarlıq abidələrini bərpa edirik. Üç məscidimiz yenidən qurulubdur. Biri bərpa olunub, digərləri yenidən inşa edilib, çünki onlar dağıdılmışdı. Bizim bərpa etdiyimiz ilk tarix-memarlıq abidəsi dahi şairimiz və Qarabağ xanlığının vəziri Vaqifin məqbərəsi idi. O da işğal dövründə ermənilər tərəfindən dağıdılmışdı. Biz onu yenidən qurduq, bərpa etdik. Biz bulaqları bərpa etdik. Artıq beş bulaq su ilə doludur.

Şuşanın infrastrukturu da inkişaf etdirilir. Çünki ermənilər qaçarkən burada supaylayıcı şəbəkəni dağıtmışdılar. Ona görə də biz şəhərdə sıfırdan yeni supaylayıcı sistem qurmuşuq. Ümumiyyətlə, Baş plan çərçivəsində Şuşa şəhərinin bütün infrastrukturu yenidən qurulub, yeni yollar yaradılıbdır. Bu ilin sentyabr ayında biz min şagird yerlik məktəbin açılışını edəcəyik və 90 çarpayılıq xəstəxana da ilin sonuna qədər hazır olacaqdır. Şuşada hər şey Baş plan əsasında edilir. Bu isə imkan verəcəkdir ki, şəhər daha gözəl olsun. Yəni, heç vaxt olmadığı qədər gözəl olacaqdır. Çox rahat, müasir şəhər olacaqdır. Eyni zamanda, təbii ki, onun orijinallığı qorunacaqdır, çünki bütün tarixi-memarlıq abidələri hazırda bərpa edilir. Şuşaya səyahət edən insanlar burada tez-tez dəyişikliklərin şahidi olurlar. Çünki bu şəhər gündən-günə gözəlləşir. Bəzi söküntü işləri hələ də qarşıdadır, çünki sovet dövründə tikilmiş binalar var və onların dözümlülüyü bizə imkan vermir ki, onları yenidən istismara verək. Ancaq Şuşanın Baş planı möhtəşəmdir, hesab edirəm ki, 3-4 il ərzində bu şəhər təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhəri olacaqdır.

Yeri gəlmişkən, bu mehmanxana da yenidir, tamamilə yenidir və o da bizim işlərimizin gözəl təzahürüdür. İki mehmanxana - "Qarabağ" və "Xarıbülbül" bərpa edilib, bu isə sıfırdan inşa edilmiş ən yeni mehmanxanadır. Bu mehmanxana ilə bağlı maraqlı bir fakt ondan ibarətdir ki, burada separatçılar özlərinə qondarma parlamentin binasını inşa edirdilər. Mən Şuşa azad olandan sonra buraya ilk dəfə gələndə gördüm ki, bina tam yekunlaşmamışdı. Onlar öz qondarma "parlament"ini buraya köçürmək istəyirdilər və bu şəhəri - Şuşanı erməniləşdirməyə davam etməyə çalışırdılar. O binanın qarşısında dayanarkən onu şeytan yuvası adlandırdım. Şeytan yuvası söküldü və biz bu 5 ulduzlu gözəl hoteli inşa etdik. Ümid edirəm ki, qonaqlarımız burada özlərini rahat hiss edirlər. Bu, Şuşanın necə sürətlə inkişaf etdiyini göstərir.

**Moderator:** Cənab Prezident, iki saatdan artıqdır ki, biz Sizinlə birlikdəyik. Aydındır ki, hamı bu prosesin bir hissəsi olmaq istəyir. Lakin biz Sizin qonaqpərvərliyinizdən həddən artıq istifadə etmək istəmirik. Ola bilərmi cənab Markova da imkan verək. Çünki əvvəldən sual verməyə çalışır, buna müvəffəq olmayıb.

**Rusiyalı politoloq Sergey Markov**: Təşəkkür edirəm, cənab Prezident. İcazənizlə, sualımı ingiliscə verim. Yadımızdadır, bizim ilk kiçik beynəlxalq konfransımız burada keçirildi. Buraya səfərə gələndə də yolboyu partlayış oldu. Ümid edirəm ki, bundan sonra heç bir partlayış olmayacaq və artıq ermənilər də bu reallıqlarla barışacaqdır. Mən təkcə siyasi xadimə deyil, həm də qalib gələn bir şəxsə sual verirəm: Siz çox təcrübəli şəxssiniz. Siz bu gün üç vasitəçini qeyd etdiniz və onlar arasında da müəyyən rəqabət var. Hər bir vasitəçi uğurlu olmağa çalışır. Eyni zamanda, onlar Minsk qrupu çərçivəsində bir yerdə işlədilər, amma bu, heç bir nəticə vermədi. Onlar uğursuzluğa düçar oldular. Çünki onların fəaliyyətsizliyi nəticəsində İkinci Qarabağ müharibəsi baş verdi. Yəni, 28 il ərzində onlar mənasız danışıqlar apardılar və bu da İkinci Qarabağ müharibəsi ilə nəticələndi. Yəni, bu gün biz onun şahidi oluruq ki, vasitəçilərin sayı artır. Ancaq mənə elə gəlir ki, burada mənə bir balaca itir. Yəni, Sizcə, vasitəçilərin hansı daha uğurlu olacaqdır? Yəni, vasitəçilər uğurlu olmaq üçün nə etməlidirlər və daha geniş mənada necə hesab edirsiniz, hansı beynəlxalq təşkilatlar böhranla üz-üzə qalmamaq üçün necə inkişaf etməlidirlər? Yəni, BMT bu gün böhrandadır, ATƏT-in Minsk qrupu da ATƏT-in fəaliyyətsizliyini göstərdi. Yəni, Siz beynəlxalq münasibətlər sahəsində böyük təcrübənizə əsaslanaraq, bu beynəlxalq təşkilatların necə daha uğurlu və səmərəli ola biləcəyi barədə nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** Sualınıza görə çox sağ olun. Mən bir balaca aydınlıq gətirmək istəyirəm. Burada vasitəçilərlə bağlı iki prosesimiz var. Biri Azərbaycan və Ermənistanladır, birbaşa orada vasitəçi olaraq Rusiya və ABŞ var. Eyni zamanda da Brüssel formatımız var. Bu, rəsmi danışıqlar formatı deyil, çünki danışıqlar xarici işlər nazirləri, onların heyətləri və ekspertlər səviyyəsində aparılır. Brüssel formatı isə bir balaca əlavə dəstəkverici mexanizmdir ki, Ermənistan və Azərbaycan liderləri təmas qursunlar. Hesab edirəm ki, o, bu günə qədər müəyyən dərəcədə uğurlu olubdur. Bu formatlar arasında müəyyən fərq var. Minsk qrupu ilə bu formatın fərqi ondan ibarətdir ki, Minsk qrupunda üzvün biri Fransa idi, bu gün Fransa artıq prosesdə yoxdur. Ancaq Avropa İttifaqı rəsmi vasitəçi olmasa da, mən onu müəyyən təzyiqləri azaldan, iki liderin bir-biri ilə danışıqlar aparmasına və mövqelərini daha yaxşı başa düşmələrinə imkan verən amil adlandırardım. Minsk qrupuna gəldikdə, demək istəyirəm ki, onun fəaliyyətsizliyini mən yox, onlar özləri etdilər. Yəni, İkinci Qarabağ müharibəsindən sonra onlar da özlərinə sual verməyə başladılar ki, növbəti hansı addımlar atmalıdırlar. Bizimlə təmas quranda mən qeyd etdim ki, münaqişə artıq bitib. "Madrid prinsipləri" adlandırılan sənədin bir çox müddəaları artıq həll edilibdir. Ona görə də mən hesab etdim ki, onlar fəaliyyətini davam etdirəcəksə, etimad, quruculuq tədbirləri həyata keçirə bilərlər və 10 noyabr 2020-ci il Bəyannaməsinin müddəalarının tam həyata keçirilməsinə nail olsunlar. Bildiyiniz kimi, iki müddəa hələ də həllini tapmayıb. Bunun birincisi, erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması, ikincisi isə Naxçıvana çıxışın təmin edilməməsidir. Ermənistan hələ də bu iki müddəanı təmin etməyib. Bu, bir növ geosiyasi toqquşma nəticəsində Minsk qrupu artıq fəaliyyətinə son qoydu. Bu gün Minsk qrupunun yenidən canlandırılması qəbuledilməzdir və biz bunu qəbul etməyəcəyik. Bu qırılmış vazanı yenidən bir yerə gətirmək üçün bu gün müəyyən fikirlər, danışıqlar var. Amma bu, praktiki cəhətdən də mümkün deyil. Eyni zamanda, Azərbaycan buna razı olmayacaqdır. Çünki bizim onların fəaliyyəti ilə bağlı o qədər də xoş xatirələrimiz yoxdur. Rəqabətə gəldikdə, bəli, biz vasitəçilər arasında bu rəqabəti görürük. Bu isə qlobal rəqabətin bir parçasıdır, hətta o rəqabətin harada olmadığını tapmaq çətin olardı, yəni, Cənubi Qafqaz və Azərbaycan istisna deyil.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təbii ki, təşəbbüsü Rusiya öz üzərinə götürdü. Çünki artıq qeyd etdiyim kimi, Rusiya 10 noyabr Bəyannaməsinin hazırlanmasında vasitəçilik edirdi. Rusiya sülhməramlıları hazırda regionda müvəqqəti yerləşdirilib. Rusiya Azərbaycanın qonşusudur, ancaq Ermənistanla qonşu olmasa da, onunla olduqca yaxın ölkədir. Ona görə bu, təbii idi. Daha sonra biz, əlbəttə, gördük ki, Rusiyanın digər məsələlərə bir balaca başı qarışdı və rəqiblər belə demək olarsa, fürsətdən istifadə etdilər. Bu rəqabətin Cənubi Qafqaza hansı təsiri olacağını demək çətindir. Mənim üçün Prezident olaraq hər zaman vacib olub, hətta işğal dövründə də vacib olub ki, Azərbaycan rəqabət meydanına çevrilməməlidir. Bu, bizim üçün və istənilən ölkə üçün ən pis ssenaridir. Biz bu gün görürük ki, məhz bu, Ermənistanda baş verir. Ermənistan elə bir ölkəyə çevrilir ki, orada ciddi rəqabət gedir və bu, ciddi problemlər yarada bilər.

(ardı 6-cı səhifədə)

# Qlobal Media Forumunun açılış mərasimi

(əvvəli 5-ci səhifədə)

Təkcə Rusiya və Amerika deyil, digər ölkələr də bu prosesə fəal surətdə qoşulurlar. Hesab edirəm ki, Ermənistan hökumətinin hazırda aydın xarici siyasət strategiyası yoxdur. İkinci Qarabağ müharibəsinə qədər müəyyən strategiyaları var idi. Bu gün isə bu, yoxdur və bu da onlar üçün ciddi nəticələr yaradacaq.

Azərbaycana gəldikdə isə bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Bildiyiniz kimi, Rusiya və Amerika silahlı qüvvələrinin yüksək səviyyəli nümayəndələri, çox yüksək, yəni ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bu isə bizə olan etimadın, etibarın göstəricisidir. Belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir, hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir. Yəni, bu, o vaxt idi ki, bu rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə belə təmaslar potensial olaraq Azərbaycanda yenə də bərpa edilə bilər.



Yekun nəticənin nədən ibarət olacağını demək çətindir. Əsas məsələ odur ki, istər Moskva, istərsə də Vaşinqton olsun, hər iki vasitəçi danışıqlar üçün şərait yaradır. Bu, üçtərəfli danışıqlar deyil, bu, ikitərəfli danışıqlardır. Bu yaxınlarda Vaşinqtonda olub, bir neçə gündən sonra Moskvada olacaq. Yəni, bu, kimin dəvət etməsindən asılıdır. Bir neçə gün əvvəl Rusiya xarici işlər naziri belə bir dəvət edəndə mən tapşırdım ki, buna razılıq verilsin və tarix müəyyən edilmişdi. Sonra ermənilər tarixin dəyişilməsini xahiş etdilər. Biz də buna razılıq verdik. Amerikalılar nazirləri daha tez-tez dəvət edirlər, ancaq bunu aydın bilmək lazımdır ki, bu, ikitərəfli danışıq formatıdır. Ermənistan ilə Azərbaycan arasında aparılan danışıqlara dair yanaşma odur ki, bu, ikitərəfli olmalıdır. Bu, bizim yanaşmamızdır. Bu görüşlərin harada keçirilməsi, əlbəttə ki, vacibdir. Bunun öz rolu var və biz hər cür vasitəçilik səylərinə açığıq ki, mövqelərimizi yaxınlaşdıraq.

Hazırda danışıqlar masasında əsas məsələlərdən biri Ermənistanın rəsmi olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsidir. Onlar bunu şifahi şəkildə ediblər, bu, onların mövqeyidir. Biz onu qəbul etdik. Onların baş naziri dedi, "Qarabağ Azərbaycandır". Kaş ki, o, bunu 2019-cu ildə deyəydi. Amma o, Xankəndidə tamamilə başqa bir söz demişdi. Ancaq o, bu gün həmin sənədə öz imzasını qoymalıdır. Bizim sülh sazişimizin layihəsində belə bir bənd var ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası yoxdur. Çünki hazırda onların mövqeləri qeyri-müəyyəndir. Bir tərəfdən deyirlər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, amma digər tərəfdən də deyirlər ki, Qarabağdakı erməni icması da sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməlidir. Bu məsələ mümkünsüzdür. Mətnlə bağlı müəyyən təkliflər var. Onlar milli azlıqların hüquqları və təhlükəsizliyi ilə bağlıdır və bu, hər iki ölkəyə aiddir. Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır. Ümid edirəm ki, biz yekun mərhələyə çatacağıq. Proqnoz vermək çətindir. Mən bizdən asılı olan məsələlərlə bağlı proqnoz verə bilərəm. Ancaq biz danışıqlarla bağlı ümidliyik. Amma biz o qədər də nikbin deyil, real olmalıyıq.

**Moderator:** Cənab Prezident, bu, son sualımız olacaq, ADA Universitetindən Şəfəq Mehrəliyeva.

**Şəfəq Mehrəliyeva:** İcazənizlə, mən də sualımı ingilis dilində verərdim. Cənab Prezident, mən ADA Universitetində kommunikasiya sahəsində dərs deyirəm. Bu gün ərzində biz həmkarlarımızla müasir media trendləri haqqında danışacağıq və bu sahədə yaranan sual sosial media ilə peşəkar KİV-lər arasında əlaqələrə aiddir. Burada müəyyən rəqabət var. Siz sosial şəbəkələrdə çox fəalsınız, Sizin fəaliyyətiniz işıqlandırılır. Sizi müxtəlif nəsillərin nümayəndələri izləyirlər. Mənim oğlum da Sizin fanatınızdır və birinci xanım da bilməlidir ki, biz onu çox diqqətlə izləyirik. Onun mesajları, videoları çox isti və səmimi olur və o da Sizinlə birbaşa təmasın vasitəçisidir, heç bir maneəsiz, süzgəcsiz. Sosial şəbəkələrdən istifadə baxımından Siz sosial medianın rolunu necə görürsünüz və Siz ondan istifadə edirsiniz?

**Prezident İlham Əliyev:** Mən sizə deyə bilərəm ki, ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrənirəm. Media ilə təmaslarımda həmişə deyirdim ki, siz mənim gündəlik işimdə mənə yardımçı olursunuz. Çünki hər bir prezidentin bir-birinə bənzər fəaliyyəti var. Xüsusilə də Azərbaycan kimi ölkədə insan 24 saat işləməlidir və istənilən xəbərə, yaxşı və ya pis xəbərə hazır olmalıdır. Eyni zamanda, fəaliyyətin miqyası o qədər böyükdür ki, bəzən bir də görürsünüz, cəmiyyətin nəbzini müəyyən qədər hiss etməmək olur. Çünki cəmiyyətin nəbzini hər zaman hiss etmək lazımdır. Mən ölkədə səyahət edirəm, insanlarla görüşürəm və təbii ki, sosial mediadan istifadə edirəm. Azərbaycanda baş verən bir çox hadisələr və mənə məruzə edilməmiş bəzi hadisələr, istər bürokratik maneələr və ya bilərəkdən mənə məruzə edilməyən müəyyən məsələlər olubdur və ya mən digər məsələlərlə məşğul olmuşam, hətta mənim nəvələrim mənə müəyyən məlumatları verirlər. Övladlarım sosial mediada gördüklərini mənə deyirlər və mən özüm də sosial medianı izləyirəm. O, mənə çox yardımçı olur. Bəzi məsələlər var ki, məni də müəyyən dərəcədə qıcıqlandırır. Ölkəmizdə ədalətsizlik, bürokratiya, pis idarəçilik və ya digər mənfi hallar, əlbəttə ki, bizim həmvətənlərimiz, hər bir vətəndaş kimi məni də qıcıqlandırır. Ona görə də mənim kommunikasiya kanallarım fərqlidir, müxtəlifdir. Postmüharibə dövrünü və hazırkı vəziyyəti nəzərə alsaq, təhlükəsizlik məsələləri, sülh prosesi, enerji diplomatiyası, qlobal təhlükəsizlik və Azərbaycanın inkişafı mənim gündəlik fəaliyyətimin böyük hissəsini, əsasını təşkil edir. Ona görə də belə bir şəraitdə müəyyən məsələlər mənim diqqətimdən yayına bilər. Həm sosial media, həm ənənəvi KİV-lər mənə kömək edir ki, məsələlərdən xəbərdar olum və ona dərhal reaksiya verim. Sizə deyə bilərəm ki, bir çox hallarda müəyyən dövlət məmurlarının reaksiyası verilir, hətta bir ağacın belə kəsilməsi, - mən onu mediadan bilmişəm, - o, məmurlarda da intizam yaradır. Çünki mən ölkəni gəzirəm, ölkədə səyahət edirəm və mən bunu avtomobillə edirəm. Buna səbəb isə mən avtomobillə hərəkət edəndə daha çox görürəm, nəinki helikopter və ya təyyarə ilə səyahət edəndə. Yerlərdə olan məmurlar bilirlər ki, gələn dəfə gələndə mən bunu yoxlayacağam, buna nəzarət edəcəyəm. Ona görə də mən gələcək fəaliyyətimdə də əlbəttə ki, mediadan istifadə edəcəyəm. Mən, əlbəttə ki, istədiyim qədər fəal deyiləm, çünki məşğulam. Ancaq cəmiyyətdə müəyyən narahatlıq doğuran məsələlərə gəldikdə, mən dərhal təmasdayam, mənim ailəm də mənimlə təmasdadır, qohumlarım təmasdadır və belə görüşlər də çox vacibdir.

Ötən il burada, Şuşada Azərbaycanın media nümayəndələrinin birinci Forumu keçiriləndə mən bu tədbirdə iştirak etmədim. Prezident Administrasiyasına göstəriş verdim ki, gələn dəfə bu tədbiri beynəlxalq Forum səviyyəsində təşkil etmək lazımdır. Bu, artıq baş verir və mən qərara aldım ki, gəlim burada iştirak edim. Mən bu tədbirdə çıxışçı kimi təqdim edilmişdim. Ancaq mən hesab etdim ki, burada uzun-uzadı çıxış etməyə ehtiyac yoxdur. Hesab etdim ki, bu sorğu-sual daha maraqlı olar.

Sizə səbirli olduğunuz üçün təşəkkür edirəm. Üç saata yaxındır ki, bir yerdəyik. Əminəm ki, siz bu müzakirələr sayəsində ölkələrinizə çox yaxşı nəticələrlə qayıdacaqsınız. Bizim hökumətimiz üçün də müəyyən maraqlı ideyalar, istiqamətlər olacaqdır. Sonuncu təklifim isə ondan ibarətdir ki, bu forum müntəzəm olaraq keçirilsin və buna birinci Şuşa Qlobal Media Forumu adı verilsin.

**Moderator:** Beləliklə, rəsmi hissəmiz başa çatır. Cənab Prezident, Sizə bir daha təşəkkür edirik. Gələn il görüşənədək.

x x x

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin Forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi nəzərdə tutulur. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə edəcəklər.

Forum çərçivəsində Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü də irəli sürüləcək.

Qeyd edək ki, bugünədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri indi də müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin Şuşa mesajları dünya mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumundakı çıxışı dünya mediasının diqqət mərkəzindədir.**




Prezident İlham Əliyevin Forumdakı çıxışı qardaş Türkiyənin "TRTHaber", "Takvim", "Yeni Şafak", "HaberGlobal", "Milliyet, "Anadolu" agentliyi, "CNN Türk" və başqa telekanal, agentlik, qəzet və portallarında vurğulanıb ki, dünyada və regionda vəziyyətin dəyişməsinə, yaranan yeni reallıqlara toxunan Azərbaycan Prezidenti dayanıqlı sülhün, təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini qeyd edib. O, Türkiyənin bu məsələdə mühüm rolunu vurğulayıb, Ankaranın qarşıdakı illərdə daha çox qlobal nüfuz qazanacağını bildirib.

Pakistanın rəsmi "Associated Press of Pakistan" agentliyi Prezident İlham Əliyevin Forumda çıxışından əsas məqamları dərc edib. Bildirilib ki, Azərbaycan rəhbəri forumda medianın insanların maariflənirilməsində və problemlərin həllində mühüm vasitə olduğunu, ənənəvi media ilə yanaşı, sosial medianın da informaisiya məkanında önəmli rolunu qeyd edib.

ABŞ-nin "Associated Press" agentliyində yayımlanan "Şuşa Qlobal Media Forumu: Dünyanın media liderləri arasında ilhamverici birlik" sərlövhəli məqalədə Forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin mühüm mesajlarına, o cümlədən ölkəmizin yeni media sahəsində irəliləyişləri və Azərbaycanın regionda strateji əhəmiyyəti ilə bağlı fikirlərinətoxunulub.

ABŞ-ın "Newyorkinsider.net", Fransanın "France11", Kubanın "Prensa-latina.cu", Qırğızıstanın "AKİ Press", eləcə də digər xarici KİV-lərdə də yayımlanan məqalələrdə Şuşa Qlobal Media Forumunun əhəmiyyəti qeyd olunub, bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı və dövlətimizin başçısının fikirləri diqqət mərkəzində saxlanılıb.




Şuşa Qlobal Media Forumu Rusiya mediasının da diqqət mərkəzindədir. Bu ölkənin rəsmi TASS agentliyinin yaydığı, habelə "News.ru" və "Ria.ru" saytında yerləşdirilən xəbərlərdə Prezident İlham Əliyevin Rusiya-Azərbaycan münasibətləri, Türkiyə ilə əlaqələrin daha da güclənəcəyi, Bakının Qoşulmama Hərəkatına yeni nəfəs verməsi, Qarabağa yaxın üç ildə 150 min azərbaycanlının qayıdacağı, Ermənistanla sülh sazişinin bu ilin sonuna qədər imzalanması ehtimalı barədə fikirləri yer alıb".




"Belarus seqodnya" nəşrində qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında Rusiya-Azərbaycan münasibətləri barədə fikirlər də yer alıb. O, Moskva ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, həmçinin konkret nəticələrə əsaslandığını bildirib.

Albaniya Teleqraf Agentliyinin yaydığı xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunub. Xəbərdə diqqətə







çatdırılıb ki, Prezident İlham Əliyev Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Moskva ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, müharibədə qazanılmış Qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs edib.

İspaniyanın "El Periodista" nəşrində dərc olunan xəbərdə də Azərbaycan Prezidenti İlham Əliyevin Forumdakı önəmli mesajları yer alıb. Materialda dövlətimizin başçısının dünyada və Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar, Qarabağda son vəziyyət və bu regionda yaşayan erməni azlığı ilə bağlı fikirləri, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi və azərbaycanlıların öz torpaqlarına qayıtması barədə fikirləri yer alıb.

**"Xalq qəzeti"**

# Mədəniyyət paytaxtımızda tarix müasirliyə qovuşur

## Daşaltı kəndində yaşayış və turist kompleksi salınır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub.**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhəri üçün strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin bərpası qarşıya qoyulan əsas məqsədlərdəndir. Kəndin inkişafı, burada məskunlaşacaq əhali üçün rahat və sağlam yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi prioritetlər arasındadır. Bunu nəzərə alaraq yenidənqurma üzrə təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur.

Qeyd olundu ki, görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev - ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə, həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, otel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır.

Bildirildi ki, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) evlər konsepsiyası kənd ərazisində şəhərin praktikliyini təmin etmək məqsədi daşıyır. Bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış blokları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda, onların hər birini şəxsi həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında ən optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub.

Qeyd edildi ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda otel və istirahət mərkəzi tikiləcək. Otel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nömrədən ibarət olacaq otel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

## Şuşada yeni və böyük şəhər xəstəxanası yaradılır



**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.**



Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Xatırladaq ki, Şuşa şəhər xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Məlumat verildi ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya–reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa şəhər xəstəxanasının ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

Qeyd edək ki, əhalinin sağlamlığı daim dövlətimizin başçısının diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Şuşa şəhər xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Bu, həm də onu göstərir ki, azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

## Qədim şəhər yenidən təhsil mərkəzi olacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub.**





Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 960 şagird yerlik üçmərtəbəli binasında tədrisin təşkili üçün hər cür şərait yaradılıb. Məktəbdə hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, 1 STEAM mərkəzi, kitabxana və oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, tibb otağı, müayinə otağı, yeməkxana, həmçinin akt və idman zalları, inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, transformator, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası da yekunlaşıb.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında da özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verib. Şuşada 1 saylı tam orta məktəb binasının inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəb binasının inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.

***AZƏRTAC***

## Belçikalıların Kralı Əlahəzrət Filipə

**Əlahəzrət!**

Belçika Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

## XİN rəhbərləri arasında telefon danışığı

**İyulun 21-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli münasibətlər, bölgədə sülh və sabitliyin təmin edilməsi istiqamətində tədbirlər, Azərbaycanla Ermənistan arasında normallaşma prosesi və bu istiqamətdə mövcud çətinliklər müzakirə edilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## YAP Mərkəzi Aparatının rəhbəri ICAPP-ın baş katibi ilə görüşüb

**Kamboca Krallığında keçiriləcək parlament seçkilərini Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) missiyasının tərkibində müşahidə etmək məqsədilə bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov iyulun 21-də ICAPP-ın baş katibi Ahn Myung-soo ilə görüşüb.**



Görüşdə Tahir Budaqov Yeni Azərbaycan Partiyasının ICAPP ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini, qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsinin önəmini vurğulayıb. Öz növbəsində Ahn Myung-soo Yeni Azərbaycan Partiyasının ICAPP-ın Daimi Komitəsinin üzvü kimi qurumun fəaliyyətində yaxından iştirak etdiyini bildirərək birgə səylərlə əməkdaşlığın davamlı inkişaf edəcəyinə əminliyini ifadə edib. Görüşdə YAP-ın yeni yaradılmış ICAPP Biznes Şurasındakı fəaliyyəti və əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

Sonra ICAPP-dan olan müşahidəçilər "Kamboca Milli Assambleyasına seçkilərin tarixi və perspektivləri" mövzusunda Kamboca Milli Seçki Komitəsi, Vətəndaş Cəmiyyəti Alyansı Forumu və Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunmuş brifinqdə iştirak ediblər. Brifinqdə Kamboca Milli Assambleyasına Seçkilər haqqında Qanunun mahiyyəti, VII çağırış Milli Assambleyaya seçkilərdə təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən tədbirlər, eləcə də Kambocanın tarixi və mövcud ictimai-siyasi vəziyyəti haqqında məruzələr dinlənilib, iştirakçıların sualları cavablandırılıb.

***"Xalq qəzeti"***

# “Konsulluq” serialının fransız bölümü

## Fransa parlamentariləri Ermənistanın Sünik (Zəngəzur) vilayətində konsulluq açmaq təşəbbüsü irəli sürüblər

**(əvvəli 1-ci səhifədə)**

Bu fikirlər Hayastanın “armenpress” agentliyinin yaydığı məlumatda yer alıb. Məlumatda deyilir ki, Fransa Milli Assambleyasındakı Fransa-Ermənistan dostluq qrupunun sədri Ann-Lorans Petel və Senatdakı oxşar qrupun rəhbəri Jilber-Lyük Devinaz ölkənin xarici işlər naziri Ketrin Kolonnaya bu təkifin yer aldığı rəsmi məktub göndəriblər. Fransız parlamentarilərin fikrincə, hərçənd Sünik vilayəti Ermənistanın cənubunda yerləşir, əhalinin sıx məskunlaşdığı dağ regionudur, amma özünün 4500 kvadrat/kilometrlik sahəsinə, coğrafi baxımdan mərkəzdən uzaqda yerləşməsinə baxmayaraq, Cənubi Qafqazın geosiyasi məsələlərində önəmli yerə malikdir.

Müraciətin müəllifləri hesab edirlər ki, bu vilayəti önəmli edən əsas amil, birinci növbədə, zəngin faydalı qazıntı yataqları və bunun da emalının Ermənistan iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olmasıdır.



“Düzdür, Sünik İrəvanla yalnız bir dağ yolu ilə bağlıdır, amma İran sərhədi vasitəsilə xarici aləmlə əlaqə saxlamaq üçün olduqca vacib dəhliz rolunu oynayır. 35 kilometrlik Ermənistan-İran sərhədi bu ölkə üçün böyük əhəmiyyət kəsb edir. 2020-ci ilin payızında, 44 günlük müharibə zamanı açıq qalmış yeganə ərazi kimi Ermənistanı “tam boğulmaqdan” qurtardı. “Armenpress”in senatorların Fransa XİN-ə məktubundan gətirdiyi bu sitat Parisin Azərbaycan-Ermənistan sərhədi yaxınlığında özünün konsulluğunu açmaq planının altında hansı niyyətin gizləndiyini aşkara çıxarır. Bəli, senatorların bu təşəbbüsünün mahiyyətində “Ermənistanın ərazi bütövlüyünün” qayğısına qalmaq deyil, transmilli kommunikasiya şəbəkəsinə çevrilməyə iddialı Zəngəzur dəhlizində pay və söz sahibi olmaq iddiası dayanır. Yəni bölgədə özünün siyasi-iqtisadi maraqlarını güdən digər aktorlar kimi “biz də orada olmalıyıq” iddiası.

### Saxtakarların “təəssübkeşliyi”

Onlar Bakının bu layihə ilə bağlı Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında quru əlaqənin yaradılmasına nail olmaq kimi tam qanuni tələbinin Xəzər hövzəsi ilə Bosforun türk əhalisini birləşdirəcək daha böyük “pantürkist planın” tərkib hissəsi olduğunu iddia edirlər. Necə deyərlər, burada xoruzun quyruğu aydın görünməyə başlayır. Bunlar üçün Zəngəzur dəhlizinə burunlarını dürtməkdən daha vacib və həm də əndişə yaradan məsələ Azərbaycanın Türk dünyasını birləşdirəcək Transxəzər layihəsinin qarşısını almaqdır. Müsyö senatorların Bakının, guya, yeni hərbi əməliyyatlara hazırlaşması, bu “yeni təcavüzün” ermənilər üçün fəlakətli nəticələrə səbəb olacağı barədə bağırtıları isə saxta həyəcan siqnalı, iz azdırmaq cəhdindən başqa bir şey deyil. XİN-ə məktubda “Ermənistana ən sadiq dövlətlərdən biri, onun ərazi bütövlüyünün və təhlkəsizliyinin təminatçısı” kimi ölkələrini misal çəkən Fransa Senatının üzvləri Sünikdə konsulluğun açılmasının zəruriliyini bir daha qeyd ediblər. Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi digər qərəzli və ədalətsiz qərar və qətnamələri kimi, yeni saxtakar təəssübkeşliyinin də kağız üzərindən uzağa getməyəcəyini indidən söyləmək mümkündür.





Yeri gəlmişkən, bir müddət öncə Qafanda İran konsulluğunun açıldığı barədə məlumat yayan “Joğovurd” qəzeti Tehranın ardınca Moskvanın da burada diplomatik nümayəndəliyini yaratmaq istəyində olduğunu yazmışdı. Kremlin belə bir niyyətdə olmasını müxtəlif kanallarla Ermənistan hakimiyyətinə çatdırdığı da mediaya sızmışdı.

Xatırladaq ki, İranın Qafan şəhərində Baş Konsulluğu 2022-ci il oktyabrın 21-də fəaliyyətə başlayıb. Tehranın yeni diplomatik nümayəndəliyinin rəsmi açılış mərasimində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və onun iranlı həmkarı Hüseyn Əmir Abdullahian iştirak ediblər. Bakı Tehranın bu addımını Azərbaycana qarşı düşünülmüş təxribat kimi qiymətləndirdi. Bunun başqa adı yoxdur, çünki Sünikdə bu darmacalda konsulluğa heç bir zərurət yox idi.

### İrəvan məsələni qəsdən uzadır

Bu məqamda oxucuların diqqətini Rusiyanın Zəngəzurda konsulluq açmaq qərarının Ermənistan baş naziri Nikol Paşinyanla görüşdə razılaşdırıldığı barədə məsələyə yönəltmək istərdik. Bununla bağlı Paşinyan təxminən bir ay əvvəl Moskvada təşkil olunan Avrasiya İqtisadi İttifaqının Ali Zirvəsində Zəngəzur narahatlığını dilə gətirmişdi. Həmin toplantıya qonaq qismində dəvət olunmuş Azərbaycan Prezidenti İlham Əliyevin “Biz həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük” sözlərini Paşinyan ölkəsinə qarşı “ərazi iddiası” kimi qiymətləndirmişdi.

Həmin debatda Prezident Əliyev Paşinyanın diqqətinə bunları çatdırmışdı: “Dəhliz” sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar, yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər. Dediyim Zəngəzur dəhlizinə gəlincə, əgər mənim çıxışıma diqqətlə qulaq asılsa, orada deyilir ki, “Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb”. Prezidentin “Zəngəzur dəhlizinin açılmasını Rusiya, Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinə cəlb olunmuş digərləri tərəfindən də dəstəkləyir” sözləri də Paşinyanı sakitləşdirməmiş, o, “mən ilk dəfədir bunu eşidirəm” – demişdi. Putin isə “terminologiya başqa sözlə hüquqi texnikadır, dəhliz, digərləri, – bu, vacibdir və burada müəyyən ziddiyyət var. Amma daha vacib olanı indi Sizin - həm Azərbaycan Prezidentinin, həm Ermənistan baş nazirinin dediyi kimi, prinsipial məsələ ərazi bütövlüyü məsələsidir”, – deyə Paşinyanı sakitləşdirməyə çalışmışdı.

Fransız senatorların narahatlığına səbəb olan Zənəgəzur dəhlizinin bütün Türk dünyasını birləşdirəcək Transxəzər layihəsinin bir hissəsinin reallaşması variantı heç də uzaqda deyil. Bunu Cənubi Qafqazda sülhün vasitəçisi, yaxud tərəf kimi marağı olan dövlətlərdən heç biri əngəlləyə bilməyəcək.

Zəngəzur layihəsinin daha çox regional dəhliz kimi nəzərdə tutulduğunu söyləyən siyasi şərhçi Yeganə Hacıyeva dəhlizin qlobal daşımalarda vacib tranzit keçid sayıldığına diqqəti yönəltdi: “Bu tranzit keçidin ən vacib hissəsi Azərbaycan ərazisinə düşür. Azərbaycan da öz növbəsində Zəngəzur dəhlizi ilə bağlı konstitusiyanın tələblərinə və beynəlxalq hüququn prinsiplərinə uyğun davranacağını bəyan edib. 2020-ci il 10 noyabr Bəyanatı ilə müharibə bitib və Rusiya həm Zəngəzur, həm də Laçın dəhlizində təhlükəsizliyi təmin etməyə dair öz üzərinə öhdəlik götürüb. Amma göründüyü kimi, bu öhdəlik birtərəfli qaydada həyata keçirildi. Zəngəzur dəhlizi hələ işə düşməyib, çünki Ermənistan öz üzərinə götürdüyü öhdəliyə uyğun olaraq, yolun bir hissəsini qismən inşa edib, qalan hissədə isə işlər dondurulub. Bu da danılmaz faktdır ki, İrəvan Zəngəzur dəhlizinin çəkilməsi adı altında Qərbdən maliyyə yardımı alsa da, real iş görməyə tələsmir”.



Zəngəzur dəhlizi və Sünikdə konsulluqlar. Artıq bir-birnə üzvi şəkildə bağlı olan bu məsələ özünün kulminasiya nöqtəsinə yaxınlaşmaqdadır. Görünən odur ki, bu müstəvidə oynanılan bütün səhnələrin ssenarisi İrəvanın başı üzərindən yazılır.

Beləliklə, “Konsulluq” adlı çoxseriyalı səhnə əsərinin növbəti siyasi bölümləri də Sünik “pavilyonunda” çəkiləcək. Bu dəfə əsərin qəhrəmanı rolunda Paris, daha doğrusu, Fransa Senatı çıxış edir. Bizə, Azərbaycan tamaşaçılarına bunu sadəcə bir məzhəkə kimi izləmək qalır...

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Fransa Senatı mənasız işlərlə məşğuldur. İran, Rusiya Qafanda konsulluqlarını açmaqla orada yaşayan erməniləri nədən və nə cür müdafiə edə bildilər? Əgər sabah həmin ərazidən Azərbaycana qarşı hər hansı təxribat həyata keçirildiyi təqdirdə, Bakı orada İranın, Rusiyanın, yaxud digər ölkənin konsulluğunun yerləşməsinə baxmayacaq. Təxribatçılara elə bir cavab veriləcək ki, uzun müddət yadlarından çıxmayacaq.

Fransa konsulluğu barədə də eyni sözləri demək mümkündür. Onlar nə fikirləşirlərsə, getsinlər eləsinlər. Əslində, fransızlar ermənilərin yersiz inadkarlığına bu cür dəstək vermək əvəzinə, başlarına ağıl qoysunlar ki, beynəlxalq hüquq çərçivəsində Azərbaycana qarşı ərazi iddialarından, bizim daxili işlərimizə qarışmaqdan əl çəksinlər. Bu, onların öz ərazilərinin toxunulmazlığının ən yaxşı təminatıdır. Təkrar edirəm, indi Kolonna Qafana bir nəfər göndərməklə və hansısa binanın üstündə Fransanın bayrağını sancmaqla, o bölgənin müdafiəsini təmin edəcəklərini düşünürsə, bu, olduqca yanlış və gülünc yanaşmadır.

# Zaman məğlubu ağıllandırır, yoxsa...

## *Artur Tovmasyan: Biz tankları traktorla, silahları əmək alətləri ilə əvəz etməliyik*



**(əvvəli 1-ci səhifədə)**

Erməni deputat israr edir ki, onun xalqı sülhpərvərdir, əməksevərdir, mehriban qonşuluq münasibətlərinin yaradılmasına çalışandır və regiondakı mövcud vəziyyət, mütləq siyasi yolla həll edilməlidir. İndi mən bilmirəm, ermənilər Xocalı faciəsini törədəndə və ya Azərbaycan ərazilərini işğal edəndə, şəhərlərimizi xəritədən siləndə həmin addımları siyasi yolla atmışdılarmı? Atmamışdılarsa, Tovmasyan kimi aldadır?

Tovmasyanın bu fikirlərində və “Belə olan halda biz tankları traktorla, silahları əmək alətləri ilə əvəz etməliyik” çağırışındakı müsbət tendensiyanı təqdir etsək də, ortada bir erməni hiyləgərliyinin olduğu da göz qabağındadır. Çünki biz ermənilərin bu əraziyə son iki əsrdə köçürüldüyünü tarixi sənədlərlə sübut etsək də, Tovmasyan kimisə inandırmağa çalışır ki, biz min illərdir ki, burada yaşayırıq. Yalandır!

Onun başqa bir yalanı isə “Ötən il dekabrın 12-dən biz həbsxana rejimində yaşayırıq” – ifadəsində özünü göstərir. Guya, bizim təbiətsevər könüllülərimiz Şuşa–Laçın yolunda etiraz aksiyasına başlayandan sonra onlar ətraf aləmlə əlaqə saxlaya bilməyiblər. Ağ yalandır! Çünki dünya mətbuatı Laçın–Xankəndi yolunun bütün humanitar məsələlər üçün açıq olduğunu hər gün yazıb və göstərib.

Yeri gəlmişkən, Artur Tovmasyanın Xankəndidə oturaraq Ermənistanın problemləri haqqında yazdıqları da maraqla qarşılanır. Onun iyulun 20-də “Kalibr”də verilmiş “Ermənistan demoqrafik böhranın astanasındadır” adlı məqaləsi işğalçı ölkə üçün həyəcan təbili ola bilər. Ancaq bu yazıda da “iri qabaritli” yalanlar var. Məsələn, bu adam deyir ki, gizli sövdələşmələrə gedənlər (ifadəyə bax ha...) SSRİ-ni dağıtmasaydılar, Ermənistan əhalisi 2000-ci ildə 4 milyon 650 min nəfər olardı. Onun fikrincə, son otuz ildə Ermənistan əhalisi nəinki artmayıb, əksinə, bir milyon azalıb.

Müqəssir isə dövlətdir. Dövlət həm gənclərin ailə qurmasına zəmin yaratmır, həm də istənilən valideynə məhz gəlir mənbəyi kimi baxır. Bunun nəticəsidir ki, təkcə bu il Ermənistanın ali məktəblərində 350 ödənişsiz, 8764 isə ödənişli tələbə yeri boş qalıb. Yəni Ermənistan heç zaman görünməmiş bir demoqrafik problem yaşayır və o, artıq “əhalisi qocalmış” ölkələr siyahısına daxildir. Bütün bunları sadalayan Tovmasyan sonda soruşur ki, “siçanların oynadığı” ciblərlə əhalini necə artırmaq olar?

Bu adamın iyulun 15-də “Panorama.am” erməni saytında verilmiş başqa bir yazısını oxuyanda isə belə qənaətə gəldim ki, o, həqiqətən “ağır” xəstədir. Belə ki, son günlər “biz azərbaycanlılarla mehriban qonşular kimi yaşamağa hazırıq”-deyən və bu məqsədlə tankların, silahların mülki texnika ilə dəyişdirilməsini təklif edən Tovmasyan beş gün əvvəl BMT Təhlükəsizlik Şurasının üzvlərinə xitabən yazıbmış ki, dünya dövlətləri “xilas naminə” Dağlıq Qarabağın müstəqilliyini tanımalıdır.

Yəni, doğrudanmı, o, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra aparılan danışıq və müzakirələrin heç birində “Dağlıq Qarabağ” ifadəsinin işlədilmədiyindən xəbərsizdir? Xəbərsizdirsə, “o boyda” parlamentə necə sədrlik edir? Xəbəri ola-ola müstəqillikdən dəm vurursa, deməli, bu qeyri-ciddi adamdan nəinki parlament sədri, heç briqadir olmaz.

Sonda bir daha yazının sərlövhəsinə qayıtmaq zərurəti yaranır: “Yox, hələ heç bir erməni ağıllanmayıb. Deməli, hələ “dəmir yumruğ”a ehtiyac ola bilər”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Pyotr Tolstoy “bəlkə də qaytardılar” xülyası ilə yaşayır

**Rusiya ilə Azərbaycan arasında ikitərəfli strateji münasibətlərin daha da genişləndirilməsindən narahat olan qüvvələr son zamanlar fəallaşıblar. Azərbaycanın yeritdiyi müstəqil xarici siyasət, dövlətlərarası münasibətlərdə nümayiş etdirdiyi balanslı mövqe anti-Azərbaycan qüvvələri təşvişə salıb. Beləleri ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq üçün yalan və böhtanlardan əl çəkmir, cəfəng bəyanatlar yayırlar. Bəzi hallarda Kremlə yaxın dairələr tərəfindən də ikitərəfli münasibətlərə kölgə salan bəyanat və uydurmalarla dolu açıqlamalar yayılır. Bu məsələdə Rusiya Dövlət Dumasının ermənipərəst deputatları özlərini “daha fəal” göstərməyə çalışırlar.**



Qatı ermənipərəst mövqeləri ilə seçilən deputatlar Konstantin Zatulin və Sergey Mironovun sırasına daha biri–Pyotr Tolstoy da qoşulub. O, böhtan və yalan üzərində qurulmuş açıqlamasında postsovet məkanına daxil olan dövlətləri, o cümlədən, Azərbaycanı, Ermənistanı, Ukraynanı Rusiyadan asılı ölkələr sırasına daxil edir, Moskvasız inkişafın mümkünsüzlüyünü bildirir.

Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun bu sayıqlamaları ilə əlaqədar Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova müraciət etdik. Komitə sədri dedi ki, Pyotr Tolstoyun açıqlaması heç bir halda başadüşülən deyil, iki ölkə arasında mövcud münasibətlərə və bunu tənzimləyən müqavilələrə xələl gətirir.

Komitə sədrinin fikrincə, Azərbaycanla Rusiya arasında 22 fevral 2022-ci tarixli müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməni xatırlatmaq kifayətdir ki, hər şey aydın olsun: “Həmin bəyannamədə hər iki dövlətin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, eyni zamanda, bir-birlərinin daxili işlərinə qarışmaması xüsusi vurğulanıb. Hesab edirəm ki, Pyotr Tolstoy bu bəyannaməni təsdiq edən Rusiya Prezidenti Vladimir Putinin imzasına hörmətlə yanaşmalıdır. İkincisi, Azərbaycan 30 ildən artıqdır ki, müstəqil dövlətdir, müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan heç kimdən asılı deyil. Azərbaycan Rusiya ilə münasibətlərdə beynəlxalq hüququn bərabər subyektliliyi prinsipinə əsaslanır”.

**Z.Əsgərov Azərbaycanın müstəqilliyinin əbədi olduğunu vurğulayaraq dedi ki,** Rusiyada Azərbaycanla əlaqələrə kölgə salan Zatulin, Milonov kimilərinin sayı yüksələn xətt üzrə çoxalır. Onların sırasına qoşulan Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun açıqlaması da dövlətlərarası münasibətlərə xələl gətirir. Son zamanlar Rusiya mediasında da anti-Azərbaycan ab-havası artır, ölkəmizin ünvanına böhtan və şantajla dolu kəskin hücumlar özünü açıq büruzə verir: “Qırx dörd günlük Vətən müharibəsi bir daha Azərbaycanın hansı gücə malik olduğunu göstərdi. Rusiyanın belə rəsmi şəxsləri bunları nəzərə almalıdırlar. Dağlıq Qarabağ və “Stepanakert” kimi anlayışlar isə artıq tarixin arxivinə qovuşub.

Pyotr Tolstoy “bəlkə də qaytardılar” xülyası ilə yaşayırsa, bilməlidir ki, qatar artıq çoxdan gedib və bununla razılaşmalıdır. Hamı bilməlidir ki, müstəqil dövlət kimi Azərbaycan öz ərazisində prosesləri ölkə qanunvericiliyi çərçivəsində tənzimləməlidir və tənzimləyir. Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası da daxil olmaqla, bütün məsələlər bu kontekstdə qiymətləndirilməlidir. Bu, zəruri prosesdir və bu prosesə maneçilik törədilməsi cəhdləri mənasızdır”.

***Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”***

# Qarabağ və Şərqi Zəngəzurda "ağıllı" şəhər və kəndlər boy atır

## *2026-cı ilədək 66 min sakin doğma yurda qayıdacaq*



**(əvvəli 1-ci səhifədə)**

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun yaşayış məntəqələrində zəruri sosial-iqtisadi infrastruktur təminatı, iqtisadi canlanmanın sürətləndirilməsi, habelə nəqliyyat potensialının artırılması və yaşayış məntəqələrinin "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında yenidən qurulması yüksək templə davam etdirilir.

Vətən müharibəsi dərhal başa çatandan sonra düşməndən təmizlənən ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə də başlanılıb, qısa zaman ərzində bu bölgədəki müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılması diqqət mərkəzində saxlanılıb.

Bütün bunlarla bərabər, işğaldan azad edilən ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Erməni faşizmi tərəfindən tamamilə dağıdılan iqtisadiyyatın qurulması üçün iqtisadi fəaliyyətin canlanması sürətləndirilir və əlverişli biznes mühitinin formalaşdırılması təmin edilir.

İşğaldan azad olunan yaşayış sahələrində yol tikintisinə xüsusi əhəmiyyət verilir. Çünki yaşayış məntəqələrində hərəkətin tənzimlənməsi üçün, ilk növbədə, yol infrastrukturunun yenidən qurulması, körpü və tunellərin inşası xüsusi əhəmiyyət daşıyır. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan bu məsələ daim diqqətdə saxlanılır.

Prezident İlham Əliyevin cari il iyulun 20-də Füzuliyə səfəri çərçivəsində 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olması da bu önəmli məsələni diqqətdə saxlamasının bariz ifadəsidir. Xatırladaq ki, düşməndən təmizlənən ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində həmin avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsinin altı, 33,7 kilometrlik hissəsinin isə dörd hərəkət zolağından ibarət olacağı nəzərdə tutulur.

Yol tikintisindən söhbət düşmüşkən, xatırladaq ki, Böyük Qayıdışın təmin edilməsi üçün ərazilərin minalardan təmizlənməsi ilə paralel olaraq, ilkin mərhələdə baza və sosial infrastrukturun qurulması prioritet məsələdir və bu istiqamətdə işlər sürətlə həyata keçirilir.

Qarabağ iqtisadi rayonuna daxil olan işğalçıdan azad edilən ərazilərdə uzunluğu 513,1 kilometr olan 10 avtomobil yolu layihəsinə başlanılıb ki, bunlardan da 4-ü artıq tamamlanıb. Əlavə olaraq, uzunluğu 157,5 kilometr olan 2 dəmir yolu layihəsinin də icrasına başlanılıb.

Dövlətimizin başçısı iyulun 21-də isə Şuşa rayonuna səfəri çərçivəsində Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub, 90 çarpayılıq Şuşa şəhər xəstəxanasında və Şuşa şəhər 960 şagird yerlik 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə maraqlanıb.

İşğaldan azad edilən ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində də sistemli tədbirlər reallaşdırılır. Eyni zamanda, ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər – mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet və s. təşkil edilir.

Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası elan olunub. Hazırda bu iqtisadi rayonlarda elektrik enerjisi təminatı məqsədilə ötürücü və paylayıcı şəbəkənin qurulması üçün genişmiqyaslı və təxirəsalınmaz tədbirlər həyata keçirilir, rayon və şəhərlərin əksəriyyətinə ölkənin ümumi enerji sistemindən elektrik enerjisi verilməsi üçün infrastruktur formalaşdırılır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, "AzərEnerji" tərəfindən indiyədək işğaldan azad olunan ərazilərdə 11 su elektrik stansiyası yenidən qurularaq bərpa edilib və hazırda Kəlbəcər, Laçın və Zəngilanda 7 tikintisi aparılan su elektrik stansiyalarında işlər yaxın aylarda yekunlaşacaq. Eləcə də Kəlbəcər və Laçında daha 9 yerdə su elektrik stansiyasının tikintisinə başlanılıb.

Sosial infrastruktur baxımından 2026-cı ilin sonunadək Qarabağ iqtisadi rayonu üzrə Ağdam və Füzuli şəhərlərində 8 yaşayış məhəlləsinin, Hadrut və Suqovuşan qəsəbələrinin və 32 kəndin tikilməsi planlaşdırılıb. Artıq Talış kəndində 1-ci faza üzrə 20 fərdi yaşayış evi və 10 qeyri-yaşayış obyekti tamamlanaraq keçmiş məcburi köçkünlərə təhvil verilib.

Bütün bunlarla yanaşı, Qarabağda bərpa-quruculuq işlərinə başlanan ilk vaxtlardan təhsil müəssisələrinin tikintisi də diqqət mərkəzində saxlanılır. Hazırda 4 məktəb layihəsi həyata keçirilir. Tərtər rayonunun Suqovuşan tam orta məktəbində bərpa işləri yekunlaşıb, Talış kənd tam orta məktəbi və uşaq bağçası isə artıq istifadəyə verilib. Ağdam şəhərində 2, Füzuli şəhərində isə 1 uşaq bağçası üzrə layihələndirmə işləri aparılır.

Ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranıb. İşğaldan azad edilən ərazilərdə logistika və ticarət fəaliyyətinin həyata keçirilməsi, xidmətlərin göstərilməsi məqsədilə dövlət başçısının müvafiq fərmanına əsasən Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Bu sənaye parkında artıq 5 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Hazırda həmin layihələrin ümumi investisiya dəyəri təxminən 200 milyon manata qədər təşkil edir ki, burada 1800-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzurda mədəni və dini irsin qorunub saxlanılması da prioritet istiqamətlərdən biridir. Hazırda Ağdamdakı Cümə və Qiyaslı məscidləri bərpa olunur, Suqovuşan və Hadrut qəsəbələrində isə yeni məscidlərin tikintisi üzrə layihələndirmə işləri aparılır. Pənahəli xanın sarayı – İmarətdə və Şahbulaq qalasında yaxın vaxtlarda bərpa işlərinə başlanılacaq. İmarətdə yerləşən Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın qəbirüstü abidəsi özünün ilkin görkəmində artıq bərpa olunub.

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq işğaldan azad edilən ərazilərdə bütün bərpa və reabilitasiya prosesini 3 əsas mərhələyə bölmək olar. Birinci mərhələdə, 2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə 2 şəhər mərkəzinin və 32 kəndin tikilməsi, 3 məntəqənin turizmyönlü inkişaf etdirilməsi, torpaq islahatı ilə bağlı təkliflərin hazırlanması və ən azı 66 min sakinin öz dədə-baba torpaqlarına geri qayıdışının təmin edilməsi qarşıda əsas hədəflərdir.

Sonda qeyd edək ki, Azərbaycan hökuməti işğalçıdan təmizlənən ərazilərin yenidən qurulmasına və bərpasına 1 milyard 967,9 milyon manat vəsait yönəldib. Maliyyə Nazirliyinə məlumatına görə, bu, 2023-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulan 3 milyard manat vəsaitin 65,6 faizi deməkdir. Həmin vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında istifadə olunub.

Dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə icraçıların verdiyi sifarişlər əsasında 758,7 milyon manat maliyyələşdirilmə həyata keçirilib ki, bu da cari ildə həmin məqsəd üçün nəzərdə tutulan xərclərin 28,5 faizinə bərabərdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***



# Nazir müavini vətəndaş qəbulu keçirib

**İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Masallı şəhərində Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.**

Nazirlikdən bildiriblər ki, qəbula gələn vətəndaşların müraciəti sahibkarlığın inkişafı, o cümlədən güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, infrastruktur və s. məsələlərlə bağlı olub.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciəti diqqətlə dinlənilib, onlara müraciət etdikləri məsələlərlə bağlı izahat verilib, araşdırma tələb edən müraciətlər isə qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə baxılması üçün qeydiyyata alınıb.

Nazir müavini Sahib Ələkbərov Masallı Sənaye Məhəlləsində taxta məmulatları, mətbəx və uşaq mebeli, xovlu xalça, qadın və kişi üst geyimləri, döşək və metal yay hissələri istehsalı müəssisələrinin fəaliyyəti ilə də tanış olub.

***"Xalq qəzeti"***

# Sənaye zonalarında 4,8 mindən artıq yeni iş yeri yaradılacaq

**İndiyədək ölkəmizin sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib. Artıq onlardan 68-i istehsal fəaliyyətinə başlayıb.**



Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. Onun sözlərinə görə, sənaye zonalarına 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10,6 mindən çox daimi iş yeri yaradılıb. Nazir qeyd edib ki, mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 616 milyon manat investisiyanın yatırılması və 4,8 mindən artıq yeni iş yerinin yaradılması nəzərdə tutulur.

# "Abşeron" yatağının ikinci mərhələ layihəsi gerçəkləşdirilir

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "TotalEnergies" şirkətinin baş vitse-prezidenti Jean-Luc Guiziou ilə görüşüb.**



SOCAR-dan bildirilib ki, görüşdə cari ilin ilk 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə verilən tapşırıqları rəhbər tutaraq layihənin icrası ilə bağlı görüləcək işlər müzakirə edilib.

Görüşdə "Abşeron" qaz-kondensat yatağının işlənməsinin ilkin hasilat sxemi mərhələsi üzrə bu ayın əvvəlində hasilata başlanılmasından məmnunluq ifadə olunub, layihənin cari vəziyyəti və ölkəmizin hasilat potensialının artırılması baxımından əhəmiyyəti vurğulanıb.

Xatırladaq ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsi iki mərhələdə həyata keçirilir. İHS layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur.

***"Xalq qəzeti"***

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) ölkəmizin əsas gəlir mənbəyi kimi həm dövlət büdcəsinin formalaşdırılmasında, həm də bir sıra ümummilli layihələrin reallaşdırılmasında əvəzsiz maliyyə mənbəyi rolunu oynayır. 2023-cü il iyunun 30-na ARDNF-in aktivləri ilin əvvəlinə (49 milyard 33,6 milyon ABŞ dolları) nisbətən 12 faiz artaraq 54 milyard 915,1 milyon ABŞ dolları olub.**

# Dövlət Neft Fondunun aktivləri 55 milyard dollara çatıb



Dövlət Neft Fondundan verilən məlumata görə, cari ilin yanvar-iyun ayları ərzində fondun büdcə gəlirləri 11 milyard 701,4 milyon manat, büdcə xərcləri isə 2 milyard 680,8 milyon manat təşkil edib. Hesabat dövründə ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8 milyard 624,3 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 milyard 854,6 milyon manat, bonus ödənişləri 765,3 milyon manat, tranzit gəlirləri 0,8 milyon manat, akrhesabı ödənişlər 3,6 milyon manat olub. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlir 3 milyard 77,1 milyon manat təşkil edir. Bütövlükdə isə, valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-in büdcədənkənar gəlirləri 977,6 milyon manat olub. Yanvar-iyun ayları ərzində ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri 11 milyon manat təşkil edib.

Azərbaycan Respublikasının suveren fondu olan ARDNF-in ölkə iqtisadiyyatında ən böyük rolu onun dövlət büdcəsinə transfertindən başlayır. Bu isə 2003-cü ilə təsadüf edir. Bu il həmin əlamətdar hadisənin 20 il tamam olur. Ötən müddətdə Azərbaycan xarici şirkətlərlə əməkdaşlıq çərçivəsində əldə etdiyi neft gəlirlərini dövlət büdcəsi xətti ilə ölkə iqtisadiyyatına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2003-cü ildən etibarən Dövlət Neft Fondunda olan kapitalın təqribən 140,6 milyard manatdan artıq hissəsi məhz dövlət büdcəsinə transfert edilib. Bu da ümumi xərclənmənin faktiki olaraq 95 faizi deməkdir. Büdcəyə transfert olunan vəsaitlər isə öz növbəsində Azərbaycanın istər infrastruktur, istər elm və təhsil, istərsə də sosial və iqtisadi cəhətdən inkişaf etməsində mühüm rol oynayıb. Yanvar–iyun aylarında ARDNF-in 2023-cü il büdcəsinin icrası çərçivəsində 2 milyard 661 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Bütövlükdə isə, 2007-2022-ci illər ərzində bizim büdcə gəlirlərinin məhz yarısı Azərbaycan Dövlət Neft Fondunun vəsaitləri hesabına təmin edilib.

Cari ilin ilk yarısında aktivlərin artımı ARDNF-in büdcə gəlirlərinin büdcə xərclərini üstələməsi, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub. Müvafiq dövr ərzində ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə edilib. Fonddan bildiriblər ki, ilin əvvəlindən iqtisadi canlanma müşahidə olunsa da, sərt monetar siyasətin davam etməsi iqtisadiyyatda yavaşlama riskini artırıb. Eyni zamanda, inflyasiyanın aparıcı mərkəzi bankların hədəf dərəcələrindən hələ də yuxarı olması gələcəkdə faiz dərəcələrinin artmasını istisna etmir. Aktivlərin həcminin artmasına həm də qızılın qiymətinin qalxması və investisiya portfelinin tərkibində yer alan əsas valyutaların məzənnələrinin ABŞ dollarına qarşı güclənməsi ilə büdcədənkənar gəlirlər töhfə verib.

ARDNF fəaliyyət göstərdiyi illər ərzində bir sıra məqsədli dövlət proqramlarının və layihələrin icrasına mühüm töhfələr verib. Belə ki, ötən müddətdə fond tərəfindən qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma problemlərinin həlli ilə bağlı tədbirlərin, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, Oğuz–Qəbələ–Bakı su kəmərinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının, "Cənub qaz dəhlizi"nin, Türkiyə Respublikasında "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının, həmçinin "Azərbaycan İnvestisiya Şirkəti"nin nizamnamə kapitalının formalaşdırılması kimi tədbir və layihələrin maliyyələşdirilməsi bu baxımdan diqqəti cəlb edir.

Azərbaycan dövlətinin məqsədyönlü siyasəti nəticəsində ölkəmiz əsl sahibi olduğu neft kimi əvəzsiz sərvəti insan kapitalına çevirə bilib. Ötən müddətdə ölkədə həyata keçirilən quruculuq işlərindən, yeni istehsal müəssisələrindən tutmuş, Azərbaycan tələbələrinin xaricdə təhsilinədək bir çox uğurlarımızın təməlində məhz neftdən gələn gəlirlər dayanır. Fondun hesabatına əsasən, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 5,2 milyon manat yönəldilib. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 3,6 milyon manat vəsait ayrılıb.

Göründüyü kimi, hazırda Azərbaycan iqtisadiyyatı ümummilli lider Heydər Əliyevin yaratdığı təməl üzərində hərtərəfli və dinamik inkişaf edir. Güclü, qüdrətli Azərbaycan quruculuğu davam edir. Qlobal proqramlar, irimiqyaslı layihələr, dövlət proqramları ən ümdə məqsədə–Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artırılmasına xidmət edir. Dövlət Neft Fondunun vəsaitlərinin artması isə Azərbaycanın maliyyə potensialının və bütövlükdə ölkənin iqtisadi qüdrətinin artması deməkdir. Qarşıdakı perspektivlər onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti bundan sonra da artacaq, iqtisadiyyat sürətlə inkişaf edəcək, xalqımızın maddi-rifah halı daha da yaxşılaşacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iyulun 15-də Azərbaycanın Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında özünün vasitəçiliyi ilə Brüsseldə keçirilmiş görüşünün yekunlarına dair açıqlamasında Qarabağa humanitar yardımların daşınması üçün Ağdam yolundan istifadəni təqdir etməsi, Ermənistanın siyasi dairələrində nəinki böyük narazılıq yaradıb, hətta aşkar qıcıq doğurub.**

# Ağdam–Əsgəran yolunda "şimal küləyi"

*Erməni separatizminin anti-Azərbaycan ritorikası Qərbin Cənubi Qafqaz maraqlarına qarşı*




Cənab Mişel belə fikir bildirərkən, əlbəttə, ilk növbədə insan amilinə söykənib. Yəni, Aİ üçün prinsipial məqam Qarabağda ermənilərin yaşam hüququnun təminatıdır. Qurum bunun kim tərəfindən gerçəkləşdirildiyinə elə də əhəmiyyət vermir. Ancaq, heç şübhəsiz, ərazi Azərbaycanındırsa, öz əhalisinin də qayğısına qalmalı olan tərəf odur. Doğrudur, Ş.Mişel bu fikri açıqdan-açığa bildirməsə də, mövzuya toxunması onun Qarabağın Azərbaycana sahibliyi ilə razılaşdığını göstərdi. Böyük ölçüdə razılaşan, Bakının haqlarını tanıyan isə kollektiv Qərbdir.

***

Məlum olduğu kimi, Brüssel görüşündən bir neçə gün keçməmiş, Qarabağdakı separatçılar bir qrup kütləni Ağdam-Əsgəran yoluna etiraz aksiyasına çıxartdılar. Aksiyaçılar açıq şəkildə bildirdilər ki, məqsədləri Azərbaycandan gələn humanitar yardımın qarşısını kəsməkdir. O da şübhə doğrumur ki, bu, bəyanat səsləndirib Azərbaycanla Ermənistan arasındakı normallaşmaya əks mövqe qoyan Rusiya tərəfindən idarə olunan "ssenari" idi. Hər halda "təşəbbüsün" Moskvanın bölgədəki adamı olan Ruben Vardanyanın başçılığı ilə gerçəkləşməsinə başqa ad tapmaq olmur. Biləvasitə bəyanata gəldikdə isə söhbət Rusiyanın Xarici İşlər Nazirliyinin iyulun 15-də yaydığı sənəddən gedir. Belə nəticəyə gəlmək mümkündür ki, Kreml Brüssel görüşünün, ümumən Qərb vasitəçiliyinin nəticələrini tanımamaqda israrlıdır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı, bir növ, ehkamlaşdırmaqda da həmçinin.

***

Təbii ki, istər Rusiya XİN-in bəyanatı, istərsə də Ermənistan daxilində baş verən proseslər Qərbi də hərəkətə keçməyə vadar edir. Qərb görür ki, Moskva hər həchlə Cənubi Qafqaz bölgəsində normallaşmaya maneçilik törədir. İndiki halda məsələyə reaksiya verən isə vasitəçilik missiyasını üzərinə götürmüş Avropa İttifaqının özüdür. Bu baxımdan qurumun Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın fikirləri maraqlıdır.

Ş.Mişeldən fərqli olaraq, Klaar daha konkret mövqe orataya qoyub və bildirib ki, "Laçın bağlanıb, Ağdamdan istifadə etsinlər". Yəni, təxminən belə: demirsiniz ki, Qarabağın erməni əhalisi humanitar böhran yaşayır, məhrumiyyət və iztirab içindədir, buna səbəb Laçın yolunun bağlanması və humanitar yüklərin daşınmasında problemlərin yaranmasıdır? Deyirsiniz, o zaman buyurun, yol var – Ağdam-Əsgəran yolu. Üstəlik, Qarabağ ermənilərinin düşdükləri pis durumdan çıxarılmasına yönələn niyyət də ortadadır. Söhbət ölkəmizin xoş niyyətindən, humanist mövqeyindən, ən əsası isə bölgə ermənilərinə vətəndaş kimi yanaşmasından gedir. Nəzərə alaq ki, bu yanaşma, eyni zamanda, dövlətin konstitusyon təminatları gerçəkləşdirmək funksiyasının icrasını rəhbər tutmaqdadır. Görünür, belə bir təminatın həyata keçməsini, yəni Azərbaycanın Qarabağa sahiblənməsini istəməyənlər var və onların hərəkətə keçdikləri aşkardır.

Əlbəttə, cənab Klaar fikirləri ilə əslində Azərbaycanın xoş niyyətinə köklənir. Axı, Ermənistan rəhbərliyi uzun müddətdir beynəlxalq ictimaiyyəti Bakının Qarabağda, guya etnik təmizləmə gerçəkləşdirmək istəməsi kimi avantürist fikirlə çaşdırmağa çalışır. İstər Mişelin, istərsə də Klaarın açıqlaması göstərir ki, belə bir niyyət yoxdur və olmayacağına da yüksək səviyyəli təminat var. Deməli, Qərb Azərbaycan Prezidentinin, ümumən ölkəmizin rəsmilərinin sözlərinə etimad edir. O da görünür ki, Qarabağa sahiblənməyimizi istəməyənlər bu etimada da qısqanc münasibət bəsləməkdədirlər.

***

Ancaq Mişelin və Klaarın açıqlamaları onu da göstərdi ki, Ermənistanın rəhbərliyi və siyasi dairələri Qarabağda separatizmə son qoymaq niyyətindən uzaqdır. Həm rəsmi İrəvan, həm də həmin siyasilər, eləcə də Qarabağdakı separatçı tör-töküntülər əməlləri ilə sübuta yetirirlər ki, məqsədləri qondarma rejimin mövcudluğunu qorumaqdır. Əlbəttə, ikincilər birincilərdən fərqli olaraq, daha aktivdirlər.

Ermənistan hakimiyyəti yaxşı anlayır ki, baş nazir Nikol Paşinyan iyulun 15-dəki Brüssel masasında Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini uduzub. Ona görə əvvəlki sarsaq ritorikanı qabartmır. Yalnız seyriçi kimi prosesləri müşahidə edir ki, gedişata əsasən hansısa, belə demək mümkünsə, tutacaq yer tapsın. Nəzərə alsaq ki, susmaq razılıq əlamətidir, o zaman Paşinyan iqtidarının ölkədəki ruspərətslərin, habelə revanşist kəsimin fəallaşmasına göz yumması diqqətdən yayınmır.

***

Həmin revanşistlərdən biri də Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın Respublikaçılar Partiyasının sədr müavini, hazırda həbsdə olan Armen Aşotyandır. Əlbəttə, azadlıqdan məhrub edilmiş şəxsin özünün facebook profilində fikir paylaşmasının nə dərəcədə mümkünlüyü barədə söz açmayacağıq. Aşotyan bu işi kiməsə tapşıra bilər. Həmin fikrin mediada tirajlanmasında da qeyri-adi heç nə yoxdur. Çünki Ermənistanın media seqmenti Rusiyanın və ruspərəstlərin nəzarətindədir. Başlıca məqam isə vurğuladığımız kimi, susmağın razılıq əlaməti olmasıdır.

Bəli, Ermənistan hakimiyyəti Azərbaycanla normallaşma prosesinin hazırkı gündəmini təşkil edən humanitar yardım məsələlərinə münasibətdəki əks fikirləri müqavimətsiz qarşılayır. Görünür, bu cür fikirlərdə özünə təhlükə hiss etmir. Habelə, belələrinin etirazını dünyaya Qarabağın erməni ictimai rəyinin dirənişi fonunda göstərməyi planlaşdırır. Xankəndidəki aksiyaya oxşar şeylər də bundan xəbər verməkdədir. Paşinyan iqtidarı susur, ancaq İrəvandakı ruspərəst media "fəaliyyətdədir" və faktiki olaraq hakim çevrənin müəyyən mənada qapalı saxladığı barışmazlıq ritorikasına immunitet qazandırır.

Əlqərəz, Aşotyan cənab Klaarın "Laçın bağlanıb, Ağdamdan istifadə etsinlər" düşüncəsinə qarşı çıxarkən, uzaq tarixə baş vurur və bildirir ki, Aİ təmsilçisinin dediklərini Fransa inqilabı zamanı başı kəsilən Kraliça Maria Antuanettanın məşhur ifadəsi ilə müqayisə etmək olar – "Kasıbın çörəyi yoxdur, qoy tort yesin!".

Sarkisyanın müavini çörək dedikdə dövlət quruluşu qismində təqdim etdiyi separatçılığı nəzərdə tutur. Tort isə hər halda Azərbaycanın Ağdam yolu ilə göndərmək istədiyi və qarşısı alınan humanitar yardımıdır. Belədə sual yaranır: kasıbın tortu yoxdursa, çörək nəyinə lazımdır? Quru-quru yemək üçün? Bəli, illərlə Aşotyanın da sıralarında təmsil olunduğu partiyanın lideri S.Sarkisyan nəinki Ermənistan əhalisini, eləcə də Qarabağ ermənilərini kasıb, ac-yalavac yaşamağa məhkum duruma salıb. Bu gün arsız-arsız həmin kasıblardan mübarizə tələb edir. Özü də bilə-bilə ki, mübarizə haqsızdır, tam şəkildə səmərəsizdir.

Hazırda Ermənistan cəmiyyətində haqqında söz açdığımız haqsız və səmərəsiz ritorikanı gücləndirmək yolu tutulmaqdadır. Bu məqsədlə ölkə hakimiyyətinin zaman-zaman Azərbaycana qarşı istifadə etdiyi "arqumentə" baş vurulur. Arqument isə budur ki, guya Azərbaycan iqtidarı anti-demokratikdir və belə bir hakimiyyət Qarabağ ermənilərinin normal yaşamını təmin edə bilməz. Bu fikri qabardanlar isə ölkədəki revanşist kəsimin təmsilçiləridir. Barəsində söz açdığımız Aşotyan da onların ən "irəli" gedənlərindən biridir. Baxın, Aşotyan Klaarı nəzərdə tutaraq sual verir ki, "görəsən, bir avropalı məmur, əgər belə imkanı olsaydı, Varşava gettosunun təqib etdiyi yəhudilərə, onları mühasirəyə alan nasistlərlə "inteqrasiyanı" təklif edərdimi?"

***

Göründüyü kimi, Qarabağda separatizmin davamı baxımından ölkəmiz barədə mənfi rəy yaradılması əsas götürülür. Əslində, durumun belə şəkil almasında elə həmin Klaar da günahkardır, onun dostları da. Onların, ümumən Qərbin zaman-zaman Azərbaycana qarşı həyata keçirdiyi ikili standartlar siyasəti və həmin siyasətdən irəli gələn yanlış və qərəzli yanaşma hazırda bumeranq effekti kimi Avropanın özünə qayıdır. Yəni, erməni separatizmi bəzi beynəlxalq dairələrin ölkəmizlə bağlı, obrazlı desək, səpdikləri qərəz toxumlarını cücərtməklə məşğuldur və aydın görünür ki, bu "məşğuliyyət" Avropanın Cənubi Qafqaz maraqları ilə ziddiyyət təşkil etməkdədir. Deməli, Qərb əvvəldən strateji düşünməli, praqmatik olmalı və indiki durumu görməli idi. Amma bacarmadı. Halbuki bunun üçün yalnız bir şey lazım idi - ədalətli olmaq.

Bəli, ədalətsizlik başqa bir ədalətsizliyi doğuran təbiətə malikdir. Baxın, Aşotyanla yanaşı, Qarabağdakı separatçı rejimdə saxta ombudsman vəzifəsini tutan Geqam Stepanyan da Klaarın bəyanatını tənqid edərkən, eyni "motivə" əsaslanmaqdadır. Stepanyan həm Azərbaycan hakimiyyətinin, guya qeyri-demokratik olduğunu qabardır, həm də ölkəmiz daxilində ermənilərə qarşı kəskin nifrətin olduğunu iddia edir.

Əlbəttə, demək olmaz ki, orta statistik azərbaycanlı ermənilərə xoş münasibət bəsləyir. Ortada 30 ilə qədər davam etmiş işğal dövrü, Xocalı dəhşəti var. Necə deyərlər, yaraların qaysaq bağlaması üçün zaman lazımdır. Eyni şeyi ermənilərlə də bağlı söyləmək mümkündür. Nəzərə alaq ki, 44 günlük müharibə nəinki Ermənistan dövlətini çökdürüb, ümumən dünya erməniliyini rüsvay duruma salıb...

***

Bəli, ümumən, saxta ombudsmanın dedikləri absurddur. Bu absurdu tapıb çıxarmaq üçün Stepanyanın gün ərzində hansı qidaları qəbul etdiyini müəyyənləşdirməyə ehtiyac var. Çünki o, fikirləri ilə sarsaqlığın dibinə enir və bildirir ki, Azərbaycanda bu günlərdə keçirilmiş sorğuda respondentlərə belə bir sual ünvanlanıb: 2025-ci ildə Rusiya sülhməramlıları Qarabağdan çıxdıqdan sonra erməni uşağı ilə görüşəndə nə edəcəksiniz? Sən demə, respondentlərin 17 faizi uşağı köləyə çevirib satacağını, 22 faizi isə onu balta ilə tikə-tikə doğrayıb itlərə yedizdirəcəyini bildiribmiş. Absurd olar, ta beləsi görünməyib...

Əslində, G.Stepanyanın haqqında söz açdığı sorğunun "nəticələrində" əksini tapanlar tipik erməni vəhşiliyinin, o cümlədən onların havadarlarının tarix boyu törətdikləri qeyri-insani hərəkətlərin ifadəsindən başqa bir şey deyil. Yaşadığım coğrafi məkanın tarixi belə vandallıq səhnələri ilə doludur. Yəni, saxta ombudsman öz düşüncəsinin "məhsulu" olan nacinsliyi azərbaycanlılar üzərinə kökləmək yolu tutur. O, açıqlamasının sonunda nəticəyə gəlir: "Ağdamdan Xankəndinə humanitar yardım? Toivo Klaar, sən dürüst deyilsən. Azərbaycan cəmiyyəti ermənilərə qarşı nifrətlə doludur".

***

Göründüyü kimi, G.Stepanyan 2025-ci ildən, yəni Rusiya sülhməramlılarının Qarabağda qalma müddətinin bitəcəyi tarixdən danışır. Məlumdur ki, Moskva Qərb tənzimləməsinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına yönələn məntiqini Qarabağdakı Rusiya sülhməramlılarının mövcudluğuna təhlükə kimi görür. Həqiqətən də Bakı ilə İrəvan anlaşırsa, bölgənin Azərbaycana məxsusluğu qəbul edilirsə, üstəlik ölkəmizin erməni əhali ilə bağlı təminatları məqbul sayılırsa, o zaman Rusiya sülhməramlılarına ehtiyac qalmır. Deməli, ehtiyacı "əsaslandırmaq" zərurəti meydana çıxır. Və deməli, Stepanyan üçün "sorğu" keçirənlərin kimin "tapşırığını" yerinə yetirdiyini də müəyyənləşdirmək çətinlik yaratmır. Ehtimal etmək mümkündür ki, 2025-ci ilədək Azərbaycanda belə saxta sorğular çox "keçiriləcək". Axı "Şimal küləyi" əsməlidir. Əsməlidir ki, Stepanyanlar və digər separatçı yanların "geyindikləri" görünsün.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

---

**Bir müddətdir blokadada olduqlarını iddia edərək haray-həşir salan Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti zonasında yaşayan erməni azlığının başbilənləri bu hay-küydən nəticə çıxmadığını görüb yeni üsullara baş vurmaqdadırlar. Onlar bu dəfə İrəvanda mitinq keçirməklə, Xankəndidə "oturaq aksiya"lar düzənləməklə, dünyanın aparıcı dövlətlərinin başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə məktublar ünvanlamaqla və sair formalarda təxribatçı əməllərini davam etdirməyə çalışırlar.**

# Separatçıların "müddətsiz aksiya" şousu



Dünən onlar İrəvanın mərkəzi meydanlarından birində etiraz aksiyası keçiriblər. Aksiyadan öncə Azərbaycan torpaqlarında vaxtilə mövcud olmuş separatçı rejimin tör-töküntülərinin "dövlət naziri" Qurgen Nersisyan İrəvanda olan Qarabağ ermənilərini orada fəal iştiraka səsləyib. O, özünün "Facebook" səhifəsində yazıb: "44 günlük müharibə nəticəsində məcburi köçkün düşmüş (?) və hazırda Ermənistanda olan "artsaxlılar" İrəvanın Aleksandr Myasnikyan meydanında "Artsaxın və xalqımızın" hüquqlarının müdafiəsi üçün mitinq təşkil edəcəklər. Hər kəsdən fəal iştirak etməyi xahiş edirəm".

Q.Nersisyanın daha sonra "biganə biznesmenlərlə" bağlı yazdığı fikirlər daha çox diqqət çəkir: "Çoxsaylı çağırışlardan sonra mən İrəvan restoranlarında vaxt keçirən, öz biganəliyi ilə həmvətənlərimizin "Artsax"ın müdafiəsi uğrunda apardığı mübarizəni dəyərsizləşdirən, illərdir "Artsax"ın ictimai vəsaitlərini yeyən və istifadə edən "biznesmenləri" öz davranışlarına yenidən baxmağa və soydaşlarımızın "Artsax"ın müdafiəsinə yönəlmiş səylərində iştirak etməyə çağırmaq məcburiyyətindəyəm. Onları tək buraxmaq xəyanətə bərabərdir".

Edilən bu çağırışa, aparılan təbliğata baxmayaraq, "qarabağlı"ların İrəvandakı "mitinqi"nə qatılanların sayının azlığı diqqət çəkib. Onlar əllərində ənənəvi şüarlar yazılmış plakatlar qaldıraraq və yazıq görkəm alaraq beynəlxalq ictimaiyyətdən imdad diləyiblər. Yeri gəlmişkən, hayların bu davranışı 1988-ci ildə baş verən hadisələri yada salır. Həmin dövrdə də onlar Azərbaycanı qaralama kampaniyası aparır, Bakının Qarabağ ermənilərinin hüquqlarını pozduğunu bildirirdilər. Məhz bu kampaniyanın nəticəsi idi ki, ölkəmiz informasiya blokadasına düşmüşdü. Nəinki Qərbdə səsimizə səs verən yox idi, əksinə, bizim əleyhimizə müxtəlif sənədlər qəbul olunurdu. ABŞ Konqresinin 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə qəbul etdiyi və Amerikanın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan Azadlığa Dəstək Aktına 907-ci düzəliş bunun bariz nümunəsi idi. Bu düzəlişlə Azərbaycan ABŞ Administrasiyasının keçmiş sovet respublikalarına göstərdiyi yardımından xaric edilən yeganə ölkə olub. Bütün bunlar o vaxt baş verirdi ki, ABŞ-da heç Azərbaycanın səfirliyi fəaliyyət göstərmirdi. Yalnız 2001-ci ilin 11 sentyabr terror hadisəsindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib. İndi isə erməni lobbisi hər nə qədər çalışsa da, Azərbaycanın fəal, hücumçu mövqeyi, aktiv diplomatik iş aparması nəticəsində istədiyi nəticəni əldə edə bilmir.

Hayastanın xəbər saytları dünən separatçı rejimin tör-töküntüsünə rəhbərlik edən Arayik Arutyunyanın da Xankəndinin mərkəzi meydanında, guya, oturaq aksiyanı davam etdirməsi (?) barədə xəbər yayıblar. Ancaq bununla bağlı yayılan xəbərləri oxuduqda, heç bir oturaq aksiyadan söhbət getmədiyi məlum olur. Onun, həmçinin müxtəlif şəxslər və vətəndaş qrupları ilə mütəmadi görüşlər keçirdiyi bildirilir. 44 günlük müharibədə ölən və itkin düşən hərbçilərin qohumları ittifaqı adlı qondarma qurumun üzvləri ilə görüşdə A.Arutyunyan oturaq aksiya keçirmək qərarının səbəblərini açıqlayıb. O, gələcək proqramlardan da danışıb və istənilən qərarın "xalqla" birgə veriləcəyini vurğulayıb.

Yeri gəlmişkən, Qarabağın "parlamenti" dünən "növbədənkənar sessiya" keçirib və BMT-nin bölgədə sülhün təmin edilməsi üçün müvafiq tədbirlər görməsinə dair müraciət göndərib. Müraciətdə deyilir ki, Qarabağdakı Rusiya sülhməramlı kontingentinin beynəlxalq mandatı yoxdur və bu vəziyyət, guya, Azərbaycanın üçtərəfli bəyanatı və beynəlxalq hüququn norma və prinsiplərini "pozmasına" yaşıl işıq yandırır. Ona görə də "parlament" Ermənistanı BMT Təhlükəsizlik Şurasına, Baş Assambleyaya müəyyən olunmuş proseduru tətbiq edərək, regionda sülhün və təhlükəsizliyin qorunması naminə Qarabağda yerləşən sülhməramlı missiyaya beynəlxalq mandat vermək üçün dərhal tədbirlər görməyə çağırıb.

Qondarma "Artsaxın təhlükəsizlik və inkişaf cəbhəsi"nin koordinatoru, sabiq "dövlət naziri" Ruben Vardanyan isə deyib ki, yaranmış "böhran"dan çıxmaq üçün atılmalı olan addımların biri Rusiya sülhməramlılarının Qarabağdakı missiyasının BMT-nin rəsmi beynəlxalq mandatını almasıdır. O qeyd edib ki, BMT, məsələn, Çin sülhməramlı kontingentini cəlb etməklə, Qarabağda sülhməramlı missiyanın genişləndirilməsi variantlarını nəzərdən keçirə bilər. Onun digər sərsəmləməsi humanitar hava dəhlizinin işə salınması ilə bağlı olub. Həmçinin Qarabağa mümkün qədər tez BMT və ya digər beynəlxalq təşkilatlar (AŞPA, Avropa İttifaqı) faktaraşdırıcı missiya göndərməlidir.

Qondarma parlamentin "xarici əlaqələr komitəsinin sədri" Vahram Balayan isə separatçıların gizli hazırlıq içində olduğunu etiraf edib. Qeyd edək ki, bir müddət öncə A.Arutyunyan "müxtəlif tədbirlərə" əl atacaqlarını açıqlayıb. Qondarma "dövlət naziri" Nersisyan isə bu addımların bir həftədən daha tez atıla biləcəyini deyib. Məlumatlar deməyə əsas verir ki, separatçılar "dönüş" adlandırdıqları addımları yaxın günlərdə atmağa hazırlaşırlar. Bu addımların ordumuzun mövqelərinə qarşı təxribat ola biləcəyi də istisna edilməməlidir.

Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni azlığının separatçı tör-töküntüsünün "təhlükəsizlik şurasının sabiq katibi" Samvel Babayan da dünən Xankəndidəki "müddətsiz aksiya" şousu haqda danışıb. O deyib: "Hazırda Qarabağda ən çox işlənən söz "mübarizə" sözüdür. Mübarizə üçün müxtəlif yanaşmalar təklif olunur. Təklif edirəm ki, şüar siyasətindən uzaqlaşaq, mübarizə imitasiyasından əl çəkib praktik işə keçək. "Parlamentdəki ikinci qüvvənin lideri" kimi təklif edirəm ki, Xankəndi-Bakı dialoqu vasitəsilə qarşılıqlı etimad mühiti yaradaq. Qarabağda beynəlxalq zəmanətli sülhməramlı mandatı almaq, həmçinin Azərbaycanın BMT-yə qəbul olunduğu ərazi üzrə üzvlük məsələsinə baxılması üçün bu təşkilata müraciət etmək lazımdır. Qarabağ ətrafında yaranmış vəziyyəti həll etmək üçün SSRİ-nin hüquqi varisi kimi, Rusiya Federasiyasına müraciət etməliyik".

Qeyd edək ki, S.Babayan, guya, Azərbaycana reinteqrasiya tərəfdarı kimi çıxış etdiyi üçün separatçılar arasında "satqın" adlandırılır. Halbuki, o, hazırkı durumda Azərbaycanla danışıqlar yolu ilə hansısa "status" almağa, guya, danışıq tərəfdarı kimi çıxış edərək, beynəlxalq müstəvidə ölkəmizə qarşı mənfi rəy yaratmağa çalışan və əli günahsız azərbaycanlıların qanına batmış şəxsdir. Onun hazırkı "təklifləri" də qəbuledilməzdir. Çünki "Xankəndi-Bakı dialoqu" deyilən bir format ola bilməz. Digər tərəfdən, Qarabağda beynəlxalq zəmanətli sülhməramlı mandatı almaq üçün rəsmi Bakının razılığı lazımdır. Azərbaycan isə 2025-ci ildə bölgədə qalma müddəti bitən Rusiya sülhməramlı kontingentinin Qarabağı tərk etməsində maraqlıdır. Ölkəmiz mücərrəd beynəlxalq zəmanət adı altında hansısa yeni sülhməramlı kontingentin bölgəyə gəlişində maraqlı ola bilməz.

Samvel Babayanın təklifi, yəni Qarabağ ətrafında yaranmış vəziyyəti həll etmək üçün SSRİ-nin hüquqi varisi kimi Rusiyaya müraciət etmək fikri də ölkəmiz üçün qəbuledilməzdir. Bu münaqişə Ermənistanın Azərbaycana ərazi iddiası, sonra isə açıq hərbi işğalı ilə başlayıb. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı ağır məğlubiyyətə uğradıb, onu kapitulyasiya aktı imzalamağa məcbur edib. Bu ilin mayında isə ölkənin baş naziri Nikol Paşinyan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan edib. Bütün bunların baş verməsindən sonra yenidən sıfıra qayıtmaq Azərbaycan üçün heç cür qəbul oluna bilməz.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*

**Zaur MƏMMƏDOV,**
**politoloq**



– Görünən odur ki, həm Arayik Arutyunyan, həm də Ruben Vardanyan bölgədə yenidən qan tökülməsini istəyirlər. İstər Arutyunyan, istərsə də Vardanyan öz çıxışlarında Azərbaycana tabe olmayacaqlarını qeyd edirdilər. Onların son zamanlar "cəsarətli" çıxışlar etmələri də bunun göstəricisidir. Sanki özlərini qan tökülməsindən sığortalayıblar. Ancaq başa düşməlidirlər ki, Azərbaycanın hələ də təmkin nümayiş etdirməsinin səbəbləri var. Onların arxasında dayanan qüvvələrin kimliyi də məlumdur. Hər halda onların çıxışları Azərbaycana separatçılara qarşı əməliyyat keçirmək üçün legitim əsaslar verir. Yaxşı olardı ki, bu gün başından böyük danışan Arayik Arutyunyan 44 günlük müharibə zamanı hansı vəziyyətdə olduqlarını, hansı zirzəmilərdə gizləndiklərini unutmasın. Onlar öz çıxışları ilə Ermənistanla Azərbaycan arasındakı sülh danışıqlarına da ciddi zərbə vururlar. Bunu rəsmi İrəvan da nəzərə almalıdır.

Yeni qərarın şərhi

# İnvestisiya təşviqi sənədi sahibkarlığın inkişafına “yaşıl işıq” yandırır

**Nazirlər Kabineti “İnvestisiya təşviqi sənədini alan hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı”nı təsdiq edib. Baş nazir Əli Əsədov bununla bağlı 18 iyul 2023-cü il tarixli qərar imzalayıb.**



Nazirlər Kabinetinin təsdiqlədiyi siyahıda istehsal vasitələri, qızdırıcı sobalar, dəzgahlar üçün məsrəf materialları, mühərriklər, buxar qazanları, sənaye sobaları, avtoyükləyicilər, kənd təsərrüfatı avadanlıqları, generatorlar, qida məhsullarının daşınması üçün avtomobillər və s. qeyd edilib.

Xatırladaq ki, investisiya təşviqi sənədi investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və yeni sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi məqsədilə müvafiq qanunları ilə müəyyənləşdirilən güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu sənəd əsasında Vergi Məcəlləsi və “Gömrük tarifi haqqında” Qanuna əsaslanaraq ilə müəyyənləşdirilən müəyyən güzəştlər nəzərdə tutulur. Belə ki, İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnika, texnoloji avadanlıq və qurğuların idxalının həyata keçirilməsi 7 il müddətinə ƏDV-dən, gömrük rüsumlarından, əmlak vergisindən, mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə, 7 il müddətinə torpaq vergisini ödəməkdən azad edilir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hər bir hüquqi şəxs və fərdi sahibkar əvvəlcədən müəyyənləşdirilən tələblərə uyğun investisiya layihələri üzrə investisiya təşviqi sənədi ala bilər. İnvestisiya təşviqi sənədi İqtisadiyyat Nazirliyi tərəfindən aşağıdakı 3 əsas meyara cavab verən investisiya layihələrinə verilir:

–investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;

–investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

–investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.

İnvestisiya təşviqi sənədinin təqdim olunması üçün müəyyən konkret meyarlar Azərbaycan Prezidentinin 2016-cı il 20 aprel tarixli fərmanı ilə təsdiq edilib.

Xatırladaq, son illərdə respublikada özəl sektorun dinamik inkişafı diqqətdə saxlanılıb, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması və sahibkarların bu prosesə yaxından cəlb olunmasına xüsusi önəm verilib. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin olunması, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azaldılmasına təsir göstərməklə onların büdcəyə vergi ödənişlərinin həcmini də artırıb.

Sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması vacib şərtlərdir. Ona görə də daim sahibkarların hamisi kimi qətiyyətli qərarlar qəbul edən dövlətimizin başçısının müvafiq tapşırığı əsasında reallaşdırılan layihələr davamlı xarakter daşıyır, dövlət strukturları, ayrı-ayrı nazirliklər tərəfindən bu məqama mühüm önəm verilir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən “açıq qapı” siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib.

Ölkədə davamlı investisiya artımını bir sıra amillər şərtləndirib. Belə ki, son illər ərzində Azərbaycan iqtisadiyyatı struktur və məzmunca xeyli dəyişib, yeni çağırışlar fonunda yeni tənzimləmələr aktuallaşıb. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan Azərbaycan iqtisadiyyatının biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb.

Prezident İlham Əliyevin imzaladığı 22 iyun 2022-ci il tarixli “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu da bu sahənin yeni mərhələyə daxil olmasını şərtləndirib. Xatırladaq ki, ölkədə yerli və xarici investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyətə malik adı çəkilən qanun dövlətimizin başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”inə uyğun hazırlanıb.

Azərbaycana investisiya qoyuluşunu sürətləndirmək üçün son illər bir sıra layihələr gerçəkləşdirilib. Məsələn, investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, “Yaşıl dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə”, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.

İnvestisiya mühitinin yaxşılaşdırlması və ölkədə biznes fəaliyyətinin asanlaşdırılması məqsədilə Azərbaycan Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 21 dekabr 2015-ci il tarixli fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib. Rəqəmsal transformasiyaya uyğun olaraq ölkədə xarici investorların biznes fəaliyyətinə başlaması elektronlaşdırılaraq sadələşdirilib.

Həyata keçirilən strategiyada 2026-cı ilə qədər qeyri-neft-qaz sektoru üzrə birbaşa xarici investisiyaların həcminin hər il 10-15 faiz artımı nəzərdə tutulub. Həmçinin investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması, iqtisadiyyatın şəffaflaşması kimi bir sıra məsələlər qarşıya əsas məqsəd kimi qoyulub. Belə investisiya stimulları, ölkədə biznesin və sahibkarlığın inkişafı üçün atılan addımlar ölkəni getdikcə daha da inkişaf etdirir.

*“Xalq qəzeti”*

# Nazirlər Kabinetində

**İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş, 6 ayın sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə verilmiş tapşırığa əsasən Nazirlər Kabinetinin iyulun 15-də imzalanmış Sərəncamı ilə İşçi qrupu yaradılıb.**



İşçi qrupunun üzərinə qoyulmuş vəzifələr ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsidir.

Dünən Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə İşçi qrupun ilk iclası keçirilib. İclasda istehlak səbətinə daxil olan məhsul və xidmət növü üzrə qiymətlərin, o cümlədən kənd təsərrüfatı və sənaye məhsullarının istehsalçı qiymət indekslərində dəyişmələrin daha dərindən araşdırılması, ticarət tərəfdaşlarında inflyasiya, eləcə də idxal inflyasiyası ilə bağlı olaraq idxal olunan məhsulların qiymət indeksləri və daxili bazarda qiymətlərə təsiri, inflyasiyanın artırıcı və azaldıcı faktorları və həyata keçirilən antiinflyasiya tədbirləri, habelə sağlam rəqabətin qorunması, daxili bazarda qiymətlərlə manipulyasiyaya yol verilməməsi və antiinhisar tədbirlərinin gücləndirilməsi məsələləri geniş müzakirə olunub.

İclasın yekununda müzakirə olunan məsələlər barədə aidiyyəti qurumlara konkret tapşırıqlar verilib.

***

**İyulun 21-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi və İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə icraçı orqanların (qurumların) nümayəndələrinin iştirakı ilə geniş tərkibli iclas keçirilib.**

İclasda Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamının və verilmiş digər tapşırıqların icra vəziyyəti ilə bağlı məsələlər müzakirə olunub, tapşırıqların vaxtında və keyfiyyətli icrası üçün müvafiq göstərişlər verilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Sərəncamla Nazirlər Kabinetinə tapşırılıb ki, Dövlət Proqramının Tədbirlər Planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, 2023–2024-cü və 2025–2027-ci illər üzrə Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı layihələr hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin, habelə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi və icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilsin.

Dövlətimizin başçısının tapşırığının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli sərəncamı imzalanıb.

**“Xalq qəzeti”**

# Böyük Qayıdışın uğurlu addımları

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində cari ilin altı ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş növbəti kollegiya iclası keçirilib.**

Dövlət Komitəsindən bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş Böyük Qayıdışa dair I Dövlət Proqramı əsasında irimiqyaslı layihələrin həyata keçirildiyi, məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə qayıdışının təmin edilməsi üçün zəruri tədbirlər görüldüyü diqqətə çatdırılıb. Qeyd olunub ki, dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban Əliyevanın keçmiş qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsinə diqqət və qayğısı onlarda dərin razılıq və minnətdarlıq hissi doğurur. Bildirilib ki, Böyük Qayıdış çərçivəsində indiyədək 217 ailə, 934 nəfər doğma yurdlarına köçürülüb. Dövlətimizin başçısının tapşırıqlarının, Böyük Qayıdış proqramına uyğun komitəyə həvalə edilmiş tədbirlərin icrası istiqamətində məqsədyönlü iş aparılır.

Kollegiyada müzakirə olunan məsələlər üzrə müvafiq qərarlar qəbul olunub və tapşırıqlar verilib.

**“Xalq qəzeti”**

# Baş Prokurorluq Ermənistanın ekoloji cinayətlərini beynəlxalq müstəviyə çıxarır

**Azərbaycan Respublikasının Baş Prokurorluğunda Araz çayı və onun sol qolu olan Oxçuçayın Ermənistan Respublikası ilə həmsərhəd bölgədə çirkləndirilməsinə dair müxtəlif mənbələrdən daxil olmuş, o cümlədən yerli və xarici mediada dərc olunan məlumatlar üzrə araşdırma davam etdirilir. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.**



Müəyyən edilib ki, Ermənistanın iri mədən müəssisələri - Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları uzun müddətdir transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Çirklənmə nəticəsində Oxçuçaya tərkibində xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium və digər ağır metallar olan zəhərli tullantılar axıdılır. Mövcud istehsalatda problemlərin həll olunmamasına baxmayaraq, Yerasx (Arazdəyən) kəndində iri metallurgiya zavodunun inşası aparılır. Bu işdə, həmçinin aparıcı dünya dövlətlərindən olan xarici investorlar beynəlxalq və öz ölkələrinin daxili qanunvericiliyinin tələblərinə zidd olaraq heç bir ətraf mühitin mühafizəsi normalarına riayət olunmasını təmin etmirlər. Dağ-mədən obyektlərinin fəaliyyət göstərməsi və yenilərinin tikilməsi minlərlə insanın həyat və sağlamlığı üçün təhlükə törədir.

Odur ki, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən BMT-nin Transsərhəd Su Məcraları və Beynəlxalq Göllərin mühafizəsi və Espoo (Ətraf Mühitə təsirin ölçülməsi) konvensiyalarının tələbləri rəhbər tutularaq obyektiv araşdırma aparılması, eləcə də qanun pozuntuları, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə müvafiq xarici və beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin İqtisadi Komissiyasına, həmçinin Böyük Britaniyanın və Almaniyanın Ekologiya nazirliklərinə müraciət edilib.

Müvafiq araşdırmalar zamanı dağ-mədən obyektlərinin işinin düzgün təşkil olunması, bu zaman ətraf mühitin mühafizəsi tələblərinə dönmədən riayət olunması şərt kimi göstərilərək müəssisələrin fəaliyyəti nəticəsində ətraf mühitə dəymiş ziyanın müəyyən edilməsində əməkdaşlıq təklif edilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bəyan edilir ki, yol verilən qanun pozuntuları ilə bağlı bütün hallar obyektiv araşdırılmaqla milli və beynəlxalq qanunvericiliyə uyğun lazımi hüquqi tədbirlər görüləcək.

**“Xalq qəzeti”**

# “Azərişıq” ASC-nin sədri vətəndaşları qəbul edib

**Qəbul Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən keçirilib.**

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

Qəbuldan sonra “Azərişıq” ASC-nin rəhbərliyi Ağdam Konqres Mərkəzində regional idarə rəhbərləri ilə toplantı keçirib.



Prezident İlham Əliyevin iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə təməli qoyulan obyektlərdə elektrik təsərrüfatının və şəbəkənin yenidən qurulması istiqamətində işlərə nəzarət daha da gücləndirilib.

# Hərbi Prokurorluqda geniş kollegiya iclası



**Dünən Hərbi Prokurorluqda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2023-cü ilin birinci yarımilində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini - Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, ötən dövrlərdə olduğu kimi 2023-cü ilin birinci yarısında da Hərbi Prokurorluq orqanlarının fəaliyyəti Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəlib.

Qeyd edilib ki, cinayətlərin ümumilikdə 99,1 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizi açılıb. Hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin eyni dövrü ilə müqayisədə ümumilikdə 16,8 faiz, azalıb.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin səmərəliliyinin daim artırılması tələb edilib.

Çıxış edənlər hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanları əməkdaşlarının dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi üçün peşəkarlıqla çalışacaqlarını, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını bildirib.

**“Xalq qəzeti”**

# Qanunsuz tikintinin qarşısı alınıb

**Sabunçu rayonunun Bakıxanov qəsəbəsinin Neftçilər küçəsində vətəndaşa məxsus fərdi yaşayış evinin yenidən qurulması zamanı təsdiq olunmuş layihədən kənara çıxılmaqla mansard mərtəbəsinin tikintisinin həyata keçirildiyi müəyyənləşdirilib.**

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazirliyin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin həyata keçirdiyi müvafiq tədbirlər nəticəsində layihədən kənara çıxılmaqla inşa olunan mansard mərtəbəsinin tikintisi dayandırılıb və mərtəbə sökülüb.

Nazirlik tərəfindən respublika ərazisində qanunsuz tikintilərlə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir.

*“Xalq qəzeti”*

## 22 İyul Milli Mətbuat və Jurnalistika Günüdür

**Azərbaycanın çoxəsrlik milli-mədəni inkişaf tariximizin ən önəmli səhifələrindən olan ilk anadilli qəzetimiz "Əkinçi"nin işıq üzü görməsindən 148 il keçir. 1875-ci ilin 22 iyul günündə bu qəzetin ilk sayının işıq üzü görməsi ilə xalqımızın yazılı söz tarixində yeni bir yüksək mərhələnin başlanğıcı qoyulmuşdur.**

İlk milli qəzetin banisi Həsən bəy Zərdabinin açdığı yol ilə gedən sonrakı bir neçə nəsil qələm sahibləri öz sələflərini amal və əməl qəhrəmanı, mənəvi ata sayaraq onun layiqli davamçıları olmağa çalışmışlar. Nəhayət, 115 il sonra – dövlət müstəqilliyimizin bərpası uğrunda mübarizənin qələbəyə yaxınlaşdığı 1990-cı ilin yayında milli maraqları üstün tutan jurnalistlərin çoxillik arzusu gerçəkləşmiş, 22 iyul anadilli mətbuatımızın yaranması günü kimi rəsmiləşmişdir. Artıq 33 ildir ki, milli təqvimimizin 22 iyulu ölkəmizdə Milli Mətbuat və Jurnalistika Günü dövlət səviyyəsində, media ictimaiyyətinin peşə bayramı kimi qeyd edilir. Milli jurnalistikamızın yubileyləri isə daha geniş, ümumxalq təntənələri ilə əlamətdar olur.

# Azad media Azərbaycanın misilsiz mənəvi sərvətidir




**Builki media bayramı ərəfəsində son 60 ildə peşəkar jurnalistlərimizin 2 nəslinin müəllimi olmuş Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru Akif Rüstəmovla müsahib olduq. Qocaman müəllimmimiz milli mediamızın keçdiyi şərəfli yol və bugünkü durumu barədə aşağıdakıları bildirdi:**

– Milli mətbuatımızın tarixi ilə bağlı ən önəmli cəhət ondan ibarətdir ki, bu sivil fəaliyyət sahəsini, xoşbəxtlikdən, hakim rus müstəmləkəçiliyi siyasətinin tələbatı baxımdan yaratmaq cəhdləri uğursuz olmuş, ilk və sonrakı anadilli dövri nəşrlərimiz milli oyanış və məfkurəvi toparlanma ehtiyacından qaynaqlanaraq ərsəyə gəlmişdir. "Zəmanə ilə saziş"i gerçəkləşdirmək yolunda milli məktəb, teatr və mətbuat üçbucağının zəruriliyini ortaya qoyan Həsən bəy Zərdabi xalqın oxuyub-anlaya biləcəyi qəzetin yaradılmasına daha böyük ümid bəsləyərək bu sahədə misilsiz bir fədakarlıq göstərmiş, "Əkinçi"qəzetini tarixi qaranlığa işıq salan mayaka çevirə bilmişdir.

Həsən bəy "Heç olmaz ki, doğru söz yerdə qalsın" inamı ilə zamanın "Hər bir vilayətin qəzeti gərək onun aynası olsun", "Qələm əhlinin müqəddəs vəzifəsi həqiqəti yazmaq olmalıdır" çağırışlarını Azərbaycanın milli-məfkurəvi, ictimai-siyasi fəaliyyət sahəsinə gətirmişdir. Haqlı olaraq deyildiyi kimi, ötən 148 ildə "Əkinçi"nin səpdiyi toxumlardan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" dövri nəşrləri cücərmişdi, rusdilli "Kaspi" qəzetində milli düşüncə pöhrələmişdi, milli problemlər zəmisini şumlayan "Şərqi-Rus" göyərmişdi.

XX əsrin əvvəllərində azadlıq havası əsdirən I Rus inqilabı Həsən bəy Zərdabinin yetirmələri və davamçıları olan Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir və Ceyhun Hacıbəylilər, Haşım bəy Vəzirov kimi qələm adamlarının, məfkurə və əməl sahiblərinin gözlərini və qulaqlarını söz deyib-eşitmək aləminə bir az da geniş açmışdır.

İlk gündəlik milli qəzet "Həyat", ilk məfkurə jurnalı "Füyuzat", ilk satira jurnalı və xalq tribunası "Molla Nəsrəddin", ilk uşaq jurnalı "Dəbistan", ilk qadın jurnalı "İşıq" mətbuatı xalqımızın ictimai-siyasi həyatı ilə möhkəm və birdəfəlik bağlamışdı. Bir-birinin ardınca işıq üzü görən "İrşad", "Tazə həyat", "Tərəqqi", "Həqiqət", "Açıq söz", "Səda", "Məktəb", "Rəhbər" kimi dövri nəşrlər, adlarından da göründüyü kimi, milli haqlarına doğru addım-addım irəliləyən xalqımızın görən gözü, danışan dili, həqiqəti anladan məfkurə məktəbi olmuşdu.

1917-ci ilin fevralında II Rus inqilabının dağıtdığı imperiyanın ucqarında Azərbaycan dövlətçiliyini bərpa etməkdə həlledici rol oynamış nəslin formalaşmasında, toparlanmasında, istiqlal məfkurəsinin gerçəkləşdirilməsində milli mətbuatımız misilsiz rol oynamışdı. Azərbaycan Xalq Cümhuriyyətini yaradan xadimlərin əksəriyyəti milli mətbu fəaliyyətdə yetkinləşmiş, məramlarını dövrün kütləvi nəşrlərində tirajlamışdılar. Bu prosesin yekununda 1918-ci ilin sentyabrında milli mətbuatımızın daha bir ilki — birinci dövlət qəzeti "Azərbaycan" eyniadlı dövlətin atributlarından biri, söz və fikir azadlığının ilk nümunəsi, timsalı kimi işıq üzü görmüşdür. AXC hökumətinin təsdiq etdiyi mətbuat nizamnaməsi Şərqdə ilk dəfə söz azadlığını bəyan və təmin edən rəsmi sənəd olmuşdur.

Professor sonda AXC-nin süqutu ilə söz azadlığını itirən, demokratik nəşrlərinin fəaliyyəti 71 il dayandırılan Azərbaycan jurnalistikasının kommunist ideoloji əlahiddəliyi şəraitində belə elmi-mədəni yüksəlişə, sosial-iqtisadi quruculuğa, milli düşüncənin inkişafına xidməti ilə xalqa gərəkli olduğunu söylədi:

– Bu dövrün milli varlığa bağlılığını qoruyub saxlayan, peşəkarlığını yüksəldən, maddi-texniki bazasını təkmilləşdirən, radio və televiziyanın yaranması ilə daha böyük auditoriya əldə edən Azərbaycan jurnalistikası sovet epoxasının süqutu ərəfəsində artıq öz demokratik ənənələrinə, milli platformasına qayıda bilmişdi. Milli jurnalistikamızın 148 illik mövcudluğunun çar Rusiyası dövründəki 43, AXC zamanındakı 2 və kommunist epoxasındakı 71 illik tarixinin işıqlı- öyünclü, tutqun-ağrılı səhifələrinə ötəri nəzər salandan sonra dövlət müstəqilliyimizin ötən 32 ilində ölkəmizdə azad, demokratik jurnalistikanın geniş və müasir şəbəkəsi formalaşmışdır. Azərbaycanın dövlət müstəqilliyi bütün maddi sərvətlərimiz kimi, milli-mənəvi dəyərlərimizi, məfkurə irsimizi də xalqımıza qaytardı. Milli jurnalistikamızın ideoloji buxovları qıraraq öz demokratik ənənələrini bərpa etdi.

Tanınmış media mütəxəssisinin dediklərinə əlavə olaraq bildirək ki, demokratik jurnalistikamızın milli ənənələri sovet dövrünün son illərində gerçəkliyə çevrilsə də, yeni azad media dövlət müstəqilliyinin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblərdən çətinliklərlə üzləşdi. Bir tərəfdən, üsyançı nağıl qəhrəmanlarına bənzər idealist demokratlar əvvəlki dövrün jurnalistikasını süpürüb atmaq istəyirdilərsə, digər tərəfdən, xalqa verilmiş söz azadlığından məhəlli məqsədlərlə istifadə etməyə çalışanların, təcrübəsiz həvəskarların açdıqları yüzlərlə dövri nəşr cəmiyyətdə informasiya bolluğu yaratmaq, doğru-düzgün ictimai rəy formalaşdırmaq əvəzinə, fikir qarşıdurmasına, məlumat dolaşıqlığına aparır, dağıdıcı prosesləri körükləyirdi. Cəmiyyətdə hökm sürən siyasi və iqtisadi böhran isə vəziyyəti daha da ağırlaşdırırdı.

Belə bir dövrdə — 1993-cü ilin yayında xalqın tələbi və dəstəyi ilə hakimiyyətə qayıdıb ölkəni sabitlik, inkişaf yoluna çıxaran ümummilli lider Heydər Əliyev demokratik dövlətdə azad medianın inkişafı üçün zəruri olan əsaslı tədbirləri də vaxtında həyata keçirdi. Qısa müddətdə kütləvi informasiya vasitələrinin demokratik cəmiyyətdə fəaliyyətini təmin edən hüquqi baza yaradıldı. 1998-ci ilin avqustunda Prezident Heydər Əliyevin ölkəmizdə senzuranı ləğv etməsi milli jurnalistika tariximizdə yeni bir dövr açdı.

Sahənin maddi-texniki bazasını yeniləşdirmək, maliyyə-sosial problemlərini aradan qaldırmaq üçün real təminatlar da işə salındı. Həmişə KİV-in himayədarı olmuş Heydər Əliyevin iradəsi ilə ədəbi-bədii və uşaq nəşrləri dövlət himayəsinə götürüldü, müvafiq tədbirlərlə digər nəşrlərin də bazar şəraitində fəaliyyətinə əlverişli şərait yaradıldı. Qəzetlərin borclarının dondurulması və silinməsi onların dirçəlməsinə kömək etdi.

Zəmanəmizdə medianın gücündən bəhrələnməklə böyük əməli nəticələr əldə etməyin nadir örnəyini yaratmış dünya miqyaslı siyasətçi və dövlət xadimi Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev isə son 20 ildə KİV-ə dövlət dəstəyinin demokratik nümunəsinə həyat vermiş ölkə rəhbəri kimi tanınmışdır. Dövlət başçısının xoş məramı ilə 2008-ci ildən ölkədə gerçəkləşdirilən KİV-ə dövlət dəstəyi konsepsiyası və 2 il əvvəl isə Media Agentliyinin yaradılması milli jurnalistikamızın inkişafında önəmli rol oynayır. Azərbaycan jurnalistlərin üzərinə heç bir öhdəlik qoymadan onlara pulsuz mənzil verən dövlət kimi də diqqəti cəlb edir. Jurnalistlər bu təmənnasız xidmətlərə görə Prezident İlham Əliyevi də özlərinin dostu elan etmişlər.

Artıq Azərbaycan jurnalistikası, bütövlükdə, demokratik əsaslar üzərində inkişaf edir. Medianın maliyyə və peşəkarlıq problemləri sürətlə həllini tapır. Müstəqillik illərində yenidən formalaşmış, cəmiyyətdə mövqeyini və nüfuzunu möhkəmləndirmiş azad medianın ən mühüm nailiyyətlərindən biri odur ki, ölkədə informasiyanın maneəsiz yayılması, obyektiv ictimai rəyin formalaşması təmin edilmiş, hamının öz sözünü demək və yazmaq imkanı gerçəkləşdirilmişdir.

Bütün bu uğurları Prezident İlham Əliyevin dünən mədəniyyət paytaxtımız Şuşada milli jurnalistikamızın yaranmasının 148-ci ildönümünə həsr edilmiş "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumunda dediyi sözlər ən yüksək səviyyədə bir daha təsdiq etdi: "Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir. Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir. Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir".

Mediamızın yüksək vətəndaşlıq mövqeyi və könüllü sosial məsuliyyət öhdəliyi isə düşmən dairələrin qəsdlərinin ardıcıl, qətiyyətlə neytrallaşdırıldığı, qələbələrimizin qorunub artırıldığı günlərdə milli birliyin daha da möhkəmləndirilməsinə və ölkəmizin daha da qüdrətli olmasına xidmət edir.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Dünyanın ən gözəl peşələrindən biri

**Artıq üçüncü onillikdir ki, müstəqil Azərbaycan Respublikası görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi, iqtisadi, mədəni kursla inkişaf edir. Bugünkü Azərbaycan həqiqətən də tarixdə ən güclü dövrlərindən birini yaşayır. Sosial-iqtisadi inkişafla yanaşı, 44 günlük müharibə zamanı qazanılan tarixi Qələbəmiz də bunu bir daha sübut edi.**




Dövlətçiliyin möhkəmləndirilməsi yolunda son illər görülən böyük işlər həm də milli mətbuatımızda öz əksini tapır. Yazılı və elektron medianın, sosial şəbəkələrin genişləndirilməsi, KİV-in maddi-texniki bazasının modernləşdirilməsi və gücləndirilməsi, fikir azadlığının bərqərar olması demokratik inkişaf baxımından mühüm addımlardandır. Mətbuatın normal fəaliyyətini təmin etmək üçün ölkə rəhbərliyi tərəfindən zəruri qanunvericilik bazasının yaradılması, KİV-ə dövlət dəstəyini əks etdirən mühüm qərarların qəbulu media üçün sərbəst fəaliyyət mühiti formalaşdırmağa yönəlib.

Hələ 25 il əvvəl Prezident Heydər Əliyevin fərmanı ilə mətbuat üzərində senzura fəaliyyətinin ləğvi ulu öndərin milli mətbuatın inkişafı naminə atdığı tarixi addımlardan biri idi. Məhz senzuranın ləğvindən sonra görülən digər analoji tədbirlər müstəqil mətbuatımızın inkişafına, Konstitusiya ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığının təmin edilməsinə şərait yaratdı. Müstəqil mətbu orqanların sayı sürətlə artmağa başladı. Bəzi beynəlxalq qurumların məqsədli və qərəzli iddialarının əksinə olaraq, Azərbaycanda mətbuat azadlığı yüksələn xətlə inkişaf etdi.

Təbii, bu yolda problemlər, həllini gözləyən məsələlər də ola bilər və var. Ancaq bütün dünyada demokratiya fasiləsiz və ardıcıl proses olduğu kimi, mətbuatın inkişaf dinamikası da daimi və davamlı mahiyyət kəsb edir. Bu dinamikada müəyyən problematika mümkündür. Məsələn, jurnalist peşəkarlığı, peşə etikası, mədəni ünsiyyət və davranış normalarına riayət və s. Ancaq bütün bunlarla hər ölkənin mediası rastlaşır, çünki, o, canlı, daima hərəkətdə olan mexanizm formasıdır. Əsas odur ki, mətbuata münasibətdə niyyət xoş olsun!

İmperiyadan qurtulan müstəqil Azərbaycan özünə qapanıb qalmadı, beynəlxalq aləmlə ünsiyyət, xariclə mütəmadi təmaslar dövlət siyasətinin tərkib hissəsi kimi ardıcıl davam etdirildi. Bu isə mətbuatın da üzərinə ciddi öhdəliklər qoydu. Ölkəmizin dünyada tanıdılması, xalqın adət-ənənələrinin, ümumbəşəri mahiyyət kəsb edən dəyərlərinin geniş arealda təqdimatı... Bunlar uzun zaman dəmir pərdələr arxasında qapalı qalan Azərbaycanın həqiqətlərinin dünyaya yayılması baxımından mühüm faktorlardır. Elektron KİV-in, xüsusən müasir dövrün tələbi olan internet resurslarının, sosial media qaynaqlarının vasitəsilə bu proses daha səmərəli və sürətli mahiyyət kəsb edir. Odur ki, mətbuatda çalışan yüksək mədəniyyətli, dərin mənəviyyatlı, geniş intellektli, dövlətçilik və vətənpərvərlik əxlaqına malik peşəkar jurnalistlərin fəaliyyətinə ehtiyac böyükdür.

Əlbəttə, unutmayaq ki, zaman-zaman mətbuat sahəsində fərqli mənzərələrin də şahidi olmuşuq. Demokratiya, əslində, mədəni, savadlı, qabiliyyətli, tərbiyəli, yetkin şüurlu insanların yaşam sistemi olsa da, bir ara köntöy, savadsız və bacarıqsız adamların demokratizmdən daha şövqlə "bəhrələnməyə" çalışdığını görmüşük. Beləlləri məsələnin mahiyyətinə varmadan demokratiyanı "hüdudsuz sərbəstlik", "qoruq-qadağasız" sahə kimi qavramaqla cəmiyyətdə az qala "anarxiyaya" rəğbət aşılayıb. Total nəzarətsizliyə rəvac verən, tənəzzülə aparan bu yol, əlbəttə, məqbul sayıla bilməz... Müdrik şəxsiyyət, böyük dövlət xadimi Heydər Əliyev 1993-cü ildə yenidən idarəetmə sükanı arxasına keçməklə xalqı, Vətəni, dövləti həmin "anarxiya" uçurumundan xilas etdi.

Hər şey müqayisədə daha aydın göründüyü üçün, indi ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın, asudə mühitin qədir-qiyməti daha yaxşı bilinir. Cəmiyyətin aynası olan mətbuatın maarifçilik, dövlətçilik, vətənpərvərlik, informativlik, demokratizmə xidmət vəzifələri ilə yanaşı, həm də müstəqillik yolumuzun keşməkeşli tarixi məqamlarını da nəsillərə xatırlatmaq, tanıtmaq, yaddaşlarda yaşatmaq missiyası var. Və müasir mətbuatımız məhz bu missiyanı şərəflə daşımağa borcludur!

Dünyanın ən gözəl peşələrindən biri olan jurnalistika xalqa həqiqətləri bildirən, həm də xalqın haqq sözünü deyən, ictimai rəyə və şüurlara təsir göstərən unikal fəaliyyət növüdür. Demokratik idarəçilik mətbuata xüsusi imtiyaz və səlahiyyətlər verdiyi kimi, onun üzərinə əlavə məsuliyyət də qoyur. Bu məsuliyyət peşə etikasına riayət etməyi, peşə ləyaqətini yüksək tutmağı zəruri edir. Milli mətbuatımızda bu məsuliyyətin vicdanlı daşıyıcıları olan istedadlı qələm adamları çoxdur.

Ümumiyyətlə, peşəsinin elementar prinsiplərinə riayət etmək hər bir sahədə vacibdir. Ancaq mətbuat kimi həssas sferada bu amil xüsusilə mühümdür. Peşə etikası prinsiplərinin əsas baza müddəalarından biri - obyektivlikdir. Jurnalistin peşə borclarından biri də müxtəlif nəzər nöqtələrini obyektiv, dəqiq və qərəzsiz halda işıqlandırmaqdan ibarətdir. Mətbuatda tənqid hədəfi olan tərəfə cavab haqqı tanımaq obyektivliyin, peşəkarlığın göstəricisidir. Əgər hər hansı səbəbdən mediada texniki səhv, dəqiq olmayan ifadə, yanlış məlumat yayılıbsa, onun təkzibi və üzr istənilməsi peşə etikası çərçivəsində normaldır. Bu hal mətbu orqana başucalığı gətirir, ona inamı artırır. Tərəfkeşlik etmək, təqsirsizlik prezumpsiyasını pozmaq, xəbərə şəxsi prizmadan subyektiv şərh vermək kimi "cəlbedici" məqamlar peşəkar jurnalist amalına uyğun deyil. Hələ onu demirik ki, müəyyən təmənna ilə, yaxud maddi maraq naminə haqsızlıq edərək bilərəkdən tənqid, təhqir yazmaq, şər, böhtan xarakterli mətni çapa, yaxud ekrana, efirə vermək nəinki peşəkarlıq baxımından məqbul deyil, həm də hüquqi məsuliyyətdir. Əslində, özünü mötəbər sayan mətbu orqan nə qədər "qaynar xəbər" əldə etsə də, informasiyanı bir-neçə mənbədən yoxlamadan, tam dəqiqləşdirib düzgünlüyünə əmin olmadan yaymaz.

Sevindirici haldır ki, Birinci Qarabağ müharibəsindən fərqli olaraq, İkinci Qarabağ müharibəsi dövründə cəbhədə baş verənlərin işıqlandırılmasında ölkəmizin əksər mətbu orqanları və qələm adamları məhz bu "qızıl" qaydaya riayət etdi, ümummilli mənafeyə sadiq qaldı, Vətənə xidmət yolunu tutaraq, öz nüfuzunu və mötəbərliyini qorudu.

Bir ağrılı məqam barədə. Nədənsə bəzilərinin anlayışında əgər kimsə "yaxşı intizamlı, çalışqan məmurdursa, deməli, heç də yaxşı adam deyil"; yaxud kim "dövlətə sədaqətlə xidmət edirsə, deməli, xalqdan uzaqdır"; kim "iqtidardadırsa, deməli, bizdən deyil, yaddır"; yaxud kim "hökumət işində çalışırsa, deməli xalqı, dövləti, Vətəni yox, cibini güdür" və s. Bu, əlbəttə, reallıqla tam adekvat olmayan stereotip, şablon qəlibdir, qəribə trafaret anlayışın təzahürüdür. Nəzərə almaq lazımdır ki, reallıqla heç də həmişə üst-üstə düşməyən belə absurd "stereotiplər" sadəlövh, yanlış və gülünc olmaqla, həm də səviyyə və savadca bir o qədər də yüksək olmayan müəyyən qism insanların şüuruna pozucu təsir göstərə bilər.

Alim, müəllim, jurnalist, yazıçı, mühəndis, həkim və s. peşəsinə baxmayaraq, əsl ziyalı üçün peşə etikası, ilk növbədə, vətəndaşlıq, dövlətçilik mövqeyindən çıxış edərək həqiqəti danışmaqdır, obyektiv və prinsipial olmaqdır, öz fəaliyyəti ilə cəmiyyətin mədəni tərəqqisi, xalqın maariflənməsi naminə çalışmaqdır. Yalnız Vətənə, xalqa və dövlətə xidmət edən, cəmiyyətdaxili norma və prinsiplərə riayət edən, dəqiq, qərəzsiz, obyektiv, mədəni və etikalı jurnalist (yaxud media orqanı) tamaşaçı, dinləyici, oxucu auditoriyasının hörmətinə və inamına nail olmaqla nüfuz qazana bilər.

Hər bir peşəkar jurnalist özünün çətin, şərəfli fəaliyyətini məhz deyilən məqbul etik prinsiplər üzərində qurmaqla, xalqın və dövlətin mətbuata ayırdığı xüsusi diqqətə, hörmətə, qayğıya yaradıcı əməyi ilə cavab verə bilər.

***Akif ƏLİ,***
***Əməkdar jurnalist,***
***fəlsəfə doktoru, yazıçı-publisist***

# Milli mediamız cəmiyyətin söz aynasıdır

**22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə bu il də ölkənin hər yerində dövlət və vətəndaş qurumları, ayrı-ayrı idarə və təşkilatlar müxtəlif tədbirlər keçirib. Bu görüşlərdə medianın müstəqillik və demokratiya şəraitində misilsiz rolu vurğulanıb, jurnalistlərimizə ölkənin geniş oxucu, dinləyici və tamaşaçı auditoriyasının sevgi-sayğısı ifadə olunub, təbrikləri çatdırılıb.**

## Bakı

**Paytaxtın Nəsimi rayonunda milli jurnalistikamızın təməl günü münasibətilə ölkə mediasının təmsilçiləri ilə görüş keçirilib.**



Nəsimi Rayon İcra Hakimiyyətində təşkil edilən toplantıda rayon icra başçısı Asif Əsgərov qonaqları salamlayaraq bildirib ki, yaranmasının 148 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olub. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib. Azərbaycan mediasını milli maraqlar zəminində inkişafı isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Rayon rəhbərliyinin kütləvi informasiya vasitələri ilə sıx və məhsuldar əlaqələrə hər zaman mühüm əhəmiyyət verdiyini qeyd edən Asif Əsgərov vurğulayıb ki, bu əməkdaşlıq paytaxtın mərkəzi rayonunun hərtərəfli inkişafına geniş ictimai dəstər qazandırır. Prezident İlham Əliyevin islahatlar, tərəqqi strategiyasının uğurla həyata keçirilməsində də ölkənin demokratik KİV-ləri önəmli rol oynayır.

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov və digər çıxış edənlər milli mediamızın tarixi ənənələrinin müstəqillik illərində uğurla davam etdirilməsindən söz açmış, milli maraqların qorunmasında jurnalistlərin fədakar fəaliyyətini vurğulamışlar.

Görüşdə rayon ictimaiyyətinin media təmsilçilərinə təbrikləri çatdırılıb, Nəsimi RİH-in hədiyyələri təqdim olunub.

***

**Milli Mətbuat və Jurnalistika Günü münasibətilə Qaradağ Rayon İcra Hakimiyyətində də tədbir keçirilib.**



Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov media nümayəndələrini təbrik edib, 148 illik tarixi olan Azərbaycan milli mətbuatının özünəməxsus ənənələr yaratdığını diqqətə çatdırıb. Bildirilib ki, Ümummilli lider Heydər Əliyev demokratik dövlət quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu daim yüksək qiymətləndirərək, Azərbaycanda senzuranın ləğvi və bir sıra digər tədbirlərlə mətbuatın inkişafına böyük dəstək verib.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Nadir Muradov, RİH aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov qeyd ediblər ki, mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə və daha geniş miqyasda davam etdirilir.

Tədbirin sonunda Qaradağ Rayon İcra Hakimiyyəti adından KİV nümayəndələrinə hədiyyələr verilib.

***

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə ölkənin aparıcı media qurumlarını təbrik edib, bir qrup jurnalisti pulla mükafatlandırıb, ehtiyacı olanlara yardım göstərib.**

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi isə qurumun üzvü olan redaksiyaların kollektivlərinə bayram sovqatı olan bağlamalar göndərib.



"Xalq qəzeti"nin kollektivi də bu sıradadır. Redaksiyamız göstərilən diqqətə, səmimi təbriklərə və sovqata görə AHİK-in və sahə həmkarlar ittifaqının rəhbərliyinə təşəkkürünü bildirir.

***

**İyulun 21-də Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Milli Mətbuat Günü münasibətilə keçirilən mükafatlandırma mərasimində bir sıra jurnalistlərə İttifaqın fəxri fərmanları təqdim olunub.**

Tədbirdə Azərbaycan Teatr Xadimləri İttifaqı sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti Hacı İsmayılov Azərbaycan mətbuatının keçdiyi şərəfli yoldan danışaraq, media nümayəndələrini bayram münasibətilə təbrik edib və onlara gələcək işlərində uğurlar arzulayıb. O, kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişafından məmnunluq ifadə edilib, faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminlik bildirilib.

Sonda teatr sənətinin inkişafındakı xidmətlərinə görə və Milli Mətbuat Günü münasibətilə media nümayəndələri təltif ediliblər. Fəxri fərmanla mükafatlandırılanlar onlara göstərilən diqqətə görə İttifaqın rəhbərliyinə dərin təşəkkürlərini bildiriblər.

***

**Dünən "Nar" şirkəti əlamətdar gün münasibətilə media nümayəndələrini ənənəvi olaraq təşkil olunan intellektual yarışmada bir araya gətirib.**

20-dən çox media orqanını təmsil edən jurnalistlər 7 komandada biliklərini yarışdırıblar. Builki yarışmada iştirakçılara 7 tur boyunca milli və dünya mədəniyyətinə, tarixə, texnologiyaya aid müxtəlif çətinlikdə suallar verilib. Bununla yanaşı, komanda quruculuğu oyunları ilə media nümayəndələrinin bir-biri ilə daha yaxından tanışolma fürsəti olub.

Qaliblərin seçimi zamanı həm intellekt yarışının xalları, həm də komanda quruculuğu oyununun nəticələri nəzərə alınıb. Nəticə etibarilə, yarışda qalibiyyəti "Ziya" komandası qazanıb, "Yeni Həyat" komandası 2-ci, "Molla Nəsrəddin" komandası isə 3-cü yerləri tutublar. Qalib komandalara "Nar" tərəfindən xüsusi hədiyyələr təqdim edilib.

***

**Milli Mətbuat Günü münasibətilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları "22 İyul – Milli Mətbuat Günü" adlı virtual sərgi hazırlayıblar.**




Virtual sərgidə Azərbaycan Milli Mətbuatının inkişafına dair rəsmi sənədlər, görkəmli şəxslərin milli mətbuatımız haqqında fikirləri, fotolar, mətbuat və jurnalistikamızın inkişaf tarixini əks etdirən kitab və məqalələr nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər http://anl.az/el/vsb/22_iyul/index.html linkindən istifadə edə bilərlər.

***

**Dünən Bakıdakı Rus evində də Azərbaycanda geniş qeyd olunan Milli Mətbuat Günü münasibətilə jurnalistlərin mükafatlandırılması mərasimi keçirilib.**

"Rossotrudniçestvo"nun Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri İrek Zinnurov jurnalistləri peşə bayramları münasibətilə təbrik edib, onlara gələcək uğurlar arzulayıb. Bildirilib ki, 1875-ci il iyulun 22-də dövrünün maarifçilik hərəkatının görkəmli nümayəndələrindən olan Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetinin ilk nömrəsi işıq üzü görüb. Zəngin tarixə malik Azərbaycan milli mətbuatı ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayıb və oynamaqda davam edir.

Sonra medianın ən çox fərqlənən nümayəndələrinin mükafatlandırılması mərasimi olub. Jurnalistlərə informasiya sahəsində uğurlu əməkdaşlığa görə fəxri diplomlar təqdim olunub.

## Naxçıvan



**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə 22 İyul Milli Mətbuat və Jurnalistika Gününə həsr olunmuş "Heydər Əliyev və milli mətbuat" mövzusunda toplantı keçirilib.**

Məclisi giriş sözü ilə "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova açaraq bildirib ki, Azərbaycan ictimaiyyəti 2 mühüm tarixi hadisənin – Ümummilli liderin doğma Naxçıvana qayıdışının və milli mətbuatın yaranmasının ildönümünü qeyd edir. Ulu öndər respublikada hakimiyyətinin hər iki dövründə mətbuata həmişə böyük yaradıcılıq sərbəstliyi, demokratik meydan yaradıb, müstəqil, demokratik mətbuatın inkişafına xüsusi əhəmiyyət verib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Vahidə Bayramova, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının əməkdaşı Zilhiccə Abdullayeva milli jurnalistikamızın şanlı tarixindən və demokratik cəmiyyətdə oynadığı önəmli roldan söhbət açıblar.

Çıxış edənlər Azərbaycan mediasının nümayəndələrini səmimi təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzulayıblar.

## Sumqayıt



**Sumqayıtda da 22 İyul Milli Mətbuat və Jurnalistika Gününə həsr edilən silsilə tədbirlər keçirilib.**

Şəhər icra hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov, İcra aparatının məsul əməkdaşları Fərman Kazımov və Eyvaz Qocayev Əməkdar jurnalist Rəhman Orxana evində baş çəkiblər. Qeyd edək ki, Rəhman Orxan uzun illər "Vışka" qəzetinin xüsusi müxbiri vəzifəsində çalışıb, 90-cı illərdə özünün təsis etdiyi "Bakinets" qəzetində isə ulu öndərin siyasi hakimiyyətə qayıdışının vacibliyi haqqında cəsarətli yazılarla çıxış edib. Bir neçə il bundan öncə təqaüdə çıxmış Əməkdar jurnalist hazırda səhhəti ilə əlaqədar işləmir.

Qonaqlar peşə bayramı münasibətilə Rəhman Orxanı şəhər rəhbərliyi adından təbrik edərək ona ən xoş arzularını bildiriblər. Rəhman Orxan Milli Mətbuat və Jurnalistika Günü ərəfəsində onu yad etdiklərinə, diqqət və qayğı göstərdiklərinə görə Sumqayıt Şəhər İcra Hakimiyyəti aparatının əməkdaşlarına dərin minnətdarlığını bildirib.

## Masallı

**Masallı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar tədbir keçirilib.**



Heydər Əliyev Mərkəzində təşkil olunan dəyirmi masada rayon icra hakimiyyəti başçısı Araz Əhmədov 22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibəti ilə qələm sahiblərini təbrik edib. Natiq bildirib ki, 148 il öncə nəşrə başlayan "Əkinçi" qəzeti Azərbaycanın milli mətbuatının əsasını qoydu. Həsən bəy Zərdabinin naşirliyi ilə işıq üzü görən "Əkinçi" bəlkə də necə böyük bir ənənənin başlanğıcında dayandığının fərqində deyildi. Amma bir məsələ faktdır ki, məhz "Əkinçi"nin ardından dünya mətbuatı müstəvisinə can atan Azərbaycan mətbuatı ötən 148 ildə böyük inkişaf yolu keçib.



Sonra YAP Masallı Rayon Təşkilatının sədri Seyfəddin Əliyev, "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, "Yeni həyat" rayon qəzetinin baş redaktoru Əlihuseyn Şükürov, "Azərbaycan" qəzetinin bölgə müxbiri Seyran Cavadov, Rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev və başqaları milli jurnalistikamızın uğurlarından və qarşıda duran vəzifələrdən danışıblar.

## Göyçay

**Rəsul Rzanın ev-muzeyində Milli Mətbuat Günü ilə əlaqədar "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda dəyirmi masa keçirilib.**

"Göyçay" qəzetinin redaktoru, Əməkdar müəllim Adil Məmmədov milli mətbuatın yaranma tarixindən danışaraq bildirib ki, Azərbaycan mediası yarandığı ilk gündən qabaqcıl ideyaların– maarifçiliyin, milli azadlığın, demokratik fikrin carçısı olub. Həsən bəy Zərdabi "Əkinçi" qəzetini yaratmaqla cəmiyyətin inkişafında, mənəvi, siyasi, əxlaqi təkamülündə müstəsna rol oynayıb.

Dəyirmi masada çıxış edən "Ədalət" qəzetinin redaktor müavini Məzahir Əhmədov və digərləri bildiriblər ki, Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib, xalqın böyük Zəfərinin müjdəçisi olub. Hər zaman Azərbaycan həqiqətlərinin təbliği missiyasını uğurla həyata keçirən mətbuatımız 44 günlük Vətən müharibəsinin gedişində ölkəmizin düşmən təbliğatına qarşı informasiya mübarizəsinə töhfələrini verdiyi kimi, postmüharibə dövründə də bu işi davam etdirməkdədir.

Görüşdə Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Azərbaycanda jurnalistikanın inkişafına göstərdiyi hərtərəfli dəstəkdən, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində gördüyü tədbirlərdən də geniş bəhs edilib.

## Naftalan

**Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Milli Mətbuatın 148-ci ildönümü münasibətilə bir qrup media nümayəndəsi ilə görüş keçirilib.**

Dəyirmi masa arxasında keçirilən səmimi görüşdə şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov Azərbaycan milli mətbuatının olduqca böyük tarixi inkişaf yolu keçdiyini qeyd edərək kütləvi informasiya vasitələrinin insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr verməsindən söhbət açıb, Ulu öndərin mətbuata və mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğının Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb, jurnalistlərə çətin və şərəfli işlərində uğurlar arzulayıb.

Çıxış edənlər Azərbaycan mətbuatının yüksək dövlət dəstəyi və qayğısı ilə əhatə olunması, bu istiqamətdə ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsi nəticəsində köklü dəyişikliklərin baş verdiyini qeyd edib və buna görə ölkə rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda ŞİH tərəfindən mətbuat nümayəndələrinə xatirə hədiyyələri təqdim olunub.

**T.RÜSTƏMLİ, Ə. ƏLİYEV, H.QASIMOV, S.HƏSƏNOV, "Xalq qəzeti"**

Aktual müsahibə

# “Əruz elə bir dəryadır ki...”

## “XalqTV”-nin qonağı ədəbiyyatşünas Tərlan Quliyevdir

**Həyatın güzgüsü olan ədəbiyyat onun gerçəkləri ilə bərabər, insanların arzu-istəklərini, xəyallar aləmini də əks etdirir. Poeziya, nəsr və dramaturgiya əsərləri oxucu zövqlərinin inkişafına xidmət göstərir, onların mənəvi aləmini zənginləşdirir. Ədəbiyyatşünaslıq isə bu sahələrin tarixi, uğur və hədəflərin tədqiqi, inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar aparır, zamanın tələbləri kontekstində yönləndirmə ilə məşğul olur.**



Ədəbiyyatımızın qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi bu sahə üçün daim aktualdır. “Xalq TV”-nin studiyasında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının humanitar elmlər kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor Tərlan Quliyevlə söhbətimiz çağdaş poeziyamızın, o cümlədən onun geniş tədqiq etdiyi əruz vəzninin hazırkı durumu haqqındadır.

**– Tərlan müəllim, bilirik ki, sizin Azərbaycan klassik poeziyası, xüsusilə də əruz vəzni haqqında ciddi araşdırmalarınız var. “Anadilli şeirimizin poetik inkişaf yolu”, “Əruz və qafiyəşünaslıq tarixi”, “Əruzun təcrübi məsələləri” kimi kitabların müəllifisiniz. Eyni zamanda, siz “Kitabi Dədə Qorqud”un Vatikan nüsxəsinin tədqiqatçısısınız. Şəmsəddin Məhəmməd bin Qeys ər-Razinin “Əl-Möcəm” əsəri ilə bağlı araşdırmalarınız da diqqətə layiqdir. Ümumiyyətlə, ədəbiyyatşünas kimi klassik söz sənətimiz və çağdaş ədəbi proses barədə nə deyə bilərsiniz?**

– Biz mənəvi oksigenimizi elm, təhsil vasitəsilə ədəbiyyatdan alanlarıq. Əgər 2-ci dəfə dünyaya gəlmək şansımız olsaydı, bütün çətinliklərə baxmayaraq, yenə də bu sahəni seçərdik. Missiyamız ədəbiyyatın, dilin, ədəbi-elmi fikrin tarixi və bugünü haqqında xalqımıza yeni məlumatlar çatdırmaqdır. Qeyd etdiyiniz kimi, mən əsasən əruz vəznini araşdırıram. Doğrudur, əruz vəzni ərəb mənşəlidir, amma Nizamidən üzübəri, bizim böyük şairlərimiz onun inkişafına milli töhfələr veriblər. Dahi Nizami fars dilində, fars əruzunda elə işlər görüb ki, öz ana dilində yazan fars şairləri onu bacarmayıblar. “Nizami İli”ndə “Nizami Gəncəvi – səri bəhri” adlı bir məqalə yazmışdım. Orada göstərmişdim ki, bu, çox yüngül bəhrdir və bu bəhrdə irfani-fəlsəfi bir poema yazmaq çox çətindir. Amma Nizami bunu edib və farsdilli ədəbiyyatda böyük bir ənənənin əsasını qoyub. Bizim Nizaminin yaradıcılığı fars ədəbiyyatı üçün bir dərsdir, məktəbdir.

Nizamidən sonra Nəsimi, daha sonra Füzuli əruzu dilimizə o qədər gözəl uyğunlaşdırıblar ki, sonrakı dövr şairlərinin ana dilimizdə, əruz vəznində yazdığı şerlər bizə bu qədər doğma gəlir. Burda artıq deyə bilmirsən ki, əruz gəlmədir, alınmadır. Bu, həm də bizim şairlərimizin çox böyük istedadı sayəsində mümkün olub.

**– Əsasən, hecada yazan şairlərimizin də gözəl qəzəlləri olub və var. Molla Pənah Vaqif bunun heç də asan bir iş olmadığını vurğulasa da, özü gözəl nümunələr yaradıb. Bir şeirində təvazökarlıqla yazmışdı:**

***Xəyal etmişdi Vaqif kim,***
***rəvan bir xoş qəzəl yazsın,***
***Rəvan olmuşdu qasid kim,***
***bunu ancaq xəyal etdi.***
**Lakin şair bu çətinliyin**
**öhdəsindən bacarıqla gəlib...**

– Elədir ki, var. Həqiqətən də, qəlibi çox olan əruz dünya ədəbiyyatında işlənən ən kamil vəznlərdən biridir. Əruzun iki növü var. Biri şairlərin istifadə etdiyi təcrübi əruzdur, digəri də nəzəri əruz. İkincisi ilə biz şairlərin istifadə etdiyi əruzu elmi cəhətdən tədqiqata cəlb edirik. Əgər hansısa bir qəzəldə yanlışlıq olub-olmadığını yoxlamağa ehtiyac yaransa, elmin bu qoluna müraciət etmək lazımdır. Nəzəri əruzun banisi 8-ci əsr dahi ərəb filoloqu Xəlil ibn Əhməddir. O, elə bir nəzəri sistem yaradıb ki, burada 3-cü şəxsin fikrini soruşmağa ehtiyac yoxdur. Qəlibləri qoyduqda şeirin ölçülərə üyğun olub-olmaması üzə çıxır. Sonradan əruzdan əsər yazan alimlər bu nəzəriyyəni şeirin tərəzisi, ölçü vahidi kimi qəbul edirdi.

**– Universitet illərindən onu da xatırlayırıq ki, bəhrlərin qəlibləri “failatun, failatun, failun” formaları asan qavranılsın deyə bəzi tətdiqatçılar onu “dil qələm dil, dil qələm dil, dil qələm” kimi ifadələrlə əvəz ediblər...**

– Bunu mənim ustadım Əkrəm Cəfər edib. Brinci variantdakı sözlərin hamısı məzmunsuzdur. Əkrəm Çəfərin yanaşması isə özünəməxsusdur. Tarixdə də belə yanaşmalara rast gəmək münkündür. “Tən tənə, tən tən tənə”, “dah dadah, dahdah dadah” kimi nümunələr də var.

**– Bu yol bizi aparıb meyxanaya çıxarmaz ki?**

– Çıxarar. Əruzda, bütövlükdə, 19 bəhr var. Azərbaycan şairləri bunun 12-dən istifadə ediblər. Bunlar Əkrəm Cəfərin tədqiqatlarında qeyd edilib. O, ömrünün sonunadək əruzu, Azərbaycan qəzəllərini araşdırırdı. Gözdən qaçan, diqqətdən kənarda qalan vəznləri tapıb üzə çıxarırdı. Geniş istifadə edilməyən bəhrlərdə yazılan şeirlər bizim dilimizdə çox ağır, ləng səslənir, onlar ərəb dilinə daha çox uyğundur. Məhz buna görə də şairlərimiz nümunəsi çox olan bəhrlərdən istifadə ediblər. Məsələn, Səməd Vurğun yaradıcılığında cəmi iki bəhr var: həcəz və rəməl.

**– Səməd Vurğunun özünə ustad saydığı Molla Pənah Vaqifin əruz yaradıcılığı barədə bir-iki kəlmə deyərdiniz. Əksəriyyət onu heca vəznində yazan şair, qoşma, gəraylı, təcnis ustası kimi tanıyır. Amma Vaqifin əruzda da mükəmməl qəzəlləri var.**

– Xalqımızın poetik təfəkkürü ilə fəxr etmək olar. Bizim şairlərimiz həm əruzda, həm də heca vəznində gözəl əsərlər yazıblar. Bu hər xalqın söz ustasının bacardığı bir iş deyil. İlk dəfə Xətai həm hecada, həm də əruzda yazıb. Vaqif isə bu ənənəni daha da inkişaf etdirdi və yüksək zirvəyə çatdırdı. Vaqif heca vəznində ayrı bir ustadlıq səviyəsindədir, əruzda ayrı. Hər iki vəzndə belə mükəmməl olmaq möcüzəyə bərabərdir. Vaqif heca vəzinli ədəbiyyatımızn istiqamətini dəyişdi, lakin əruz vəznində klassikaya sadiq qaldı.

**– Tərlan müəllim, bu söhbətimiz Şuşada Vaqif Poeziya Günlərinə təsadüf edir. Buradan həmin poeziya bayramının iştirakçılarına, çağdaş qələm sahiblərimizə üz tutmalı olsaydınız, nə deyərdiniz?**

– Əvvəla, fəxr edirəm ki, 44 günlük Zəfər yürüşü ilə rəşadətli ordumuz Qarabağı erməni işğalından azad etdi və bütün nailiyyətlərlə yanaşı, Vaqif Poeziya Günləri də bərpa olundu. Amma igidlərimiz bu qələbə naminə canlarından keçdilər, ana və bacılarımız gözüyaşlı qaldılar. Qoy, qələm sahiblərimiz, bax bu barədə daha böyük, mükəmməl əsərlər yazsınlar.

**– Maraqlı müsahibəyə görə sağ olun!**

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

# Rəssamlara dayaq olan mərkəz

**Ölkəmizi hər il dünya miqyasında tanıtmaq, milli və mənəvi dəyərləri təbliğ etmək, uşaqlarda və gənclərdə vətənpərvərlik ruhu, mədəniyyət və incəsənət sevgisi yaratmaq naminə silsilə tədbirlərin təşkil olunduğu məkanlardan biri də Xətai Sənət Mərkəzidir.**



Düz 15 ildir fəaliyyət göstərən mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə rəsm çərçivəsi sifarişləri üçün nümunə stendi, milli suvenirlər, posterlər, dekorasiya elementləri, neftlə çəkilmiş şəkillər sərgilənir. Burada milli ornamentləri özündə ehtiva edən qədim xalçaların nümayiş olunduğu stend də var. Mərkəzdə rəssam üçün avadanlıqların alqı-satqısı da həyata keçirilir. İkinci mərtəbədə miniatür, qrafik guşə yaradılıb. Eyni zamanda, burada yaşından asılı olmayaraq hər kəsin qatıla biləcəyi rəssamlıq kursu fəaliyyət göstərir. İstənilən yaş dövründə sənətin bütün sirlərinə yiyələnmək mümkündür. Kurslar ödənişli əsaslarla həyata keçirilir. Üçüncü mərtəbədə isə sulu boya, etüd və korifey guşəsi var. Burada Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov və digər görkəmli rəssamların çəkdiyi bir-birindən maraqlı və insan duyğularına dərindən təsir edən rəsm əsərləri sərgilənir. Qədim əşyalar, milli suvenirlər, rəsm əsərləri və s. - bunların hər birinin eyni məkanda olması buranı bir sənət mərkəzi olaraq ziyarətçilərə təqdim edir.



Mərkəzdə fərdi və silsilə tədbirlər də təşkil olunur. Belə tədbirlərə “Can Azərbaycan” Respublika Qrafika və Akvarel yaradıcılıq müsabiqəsi, “Yurdumuza bahar gəlir” Respublika Uşaq rəsm müsabiqəsi, Xocalıda şəhid olmuş igid, vətənpərvər oğullarımıza həsr olunmuş “Şəhid şəhər” rəsm festivalı və digərlərini misal göstərmək olar. Son dəfə təşkil olunan tədbirlərdən biri də YUNESCO Rəssamlar Federasiyasının üzvü, Xalq rəssamı Əşrəf Heybətovun “Xətai Əfsanəsi” adlı pannosunun təqdimatı və sərgisi olmuşdur. Burada rəssamın Səfəvi hökmdarına həsr etdiyi “Xətai dövrü”, “Qızılbaş ovçusu”, “Qızılbaş döyüşçü”, “Qızılbaş müridi savaşda”, “Xətainin poetik dünyası” və s. adda 20-yə yaxın əsəri qonaqlara təqdim olunur.

Dünya Sulu Boya Mərkəzinin üzvü olan qalereyaya həm ziyarətçi, həm də alıcı qismində yerli və əcnəbi sənətsevər turistlər də təşrif buyururlar. Onların buraya cəlb olunması mərkəz kollektivinin qarşısında duran vacib məsələlərdəndir. Məkanı çox bəyəndiklərini deyən turistlər daha çox abstrakt mövzularda çəkilən rəsm əsərlərinə maraq göstərir, bu rəsmlərdə qeyri-adi, insan fikirlərinin sərhədlərini aşan nələrsə tapmağa çalışırlar.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAR (foto),***
***“Xalq qəzeti”***

Dövlət Mahnı Teatrı – 55

# Bir görüşün tarixçəsi

## Yaxud Rəşid Behbudovun bir müsahibəsinin unudulmaz təəssüratı

**... 1981-ci ilin mayında SSRİ Xalq artisti, SSRİ Ali Sovetinin deputatı, dünya şöhrətli müğənni Rəşid Behbudov rəhbərlik etdiyi Dövlət Mahnı Teatrının kollektivi ilə birlikdə Kürdəmirə gəlmişdi. Rayon mədəniyyət evində 3 gün konsert oldu.**

Mən o vaxt rayon qəzetində müxbir işləyirdim. Redaktorumuz mənə dedi ki, Rəşid Behbudov təsərrüfatlara gedib pambıqçılarla görüşəcək. Sən də orada ol, qəzet üçün yazı hazırla. Axşam da mehmanxanaya gedib ondan müsahibə alarsan.

...Həmin gün tarlada çalışanların hamısı əziz qonağın, böyük sənətkarın ətrafına cəm olmuşdular.



Böyük sənətkar səmimi görüşlərdən, hal-əhvaldan sonra qavalını götürüb camaata üz tutdu: “Əziz dostlar, undi də mən sizi mahnılarla salamlamaq istəyirəm”. Qarmonun müşayiətilə gözəl mahnılarından oxumağa başladı. İfasını xarici dildə oxuduğu ritmik bir mahnı ilə bitirdi. Alqış sədaları kəsilmək bilmirdi. Sakitlik yarananda dedi: “Eşitdiyiniz bu mahnı “Urdu” dilindədir. Urdu Pakistanın dövlət dilidir”.



Rəşid Behbudovun tarla əməkçiləri ilə görüşündən ətraflı qeydlər götürəndən sonra həmin gün axşam mehmanxanaya gedib ondan müsahibə almalı idim. Deyim ki, bu tapşırıq mənim üçün şərəfli bir iş olsa da, son dərəcə məsuliyyətli idi. Bir tərəfdən sevinirdim ki, bu məşhur sənətkarı daha yaxından görə biləcəyəm, onunla üzbəüz oturub söhbət aparacağam.

Əlbəttə, bu mənim qismətimə düşən bir xoşbəxtlik idi. O biri tərəfdən isə bərk nigaran idim. Çünki mən televiziyada onunla aparılan bir neçə müsahibəyə baxmışdım. Aparıcıların, həmsöhbətlərin suallarından asılı olaraq yeri düşəndə sərtləşirdi, yeri də düşəndə şən zarafata keçirdi. Heç bir söz, heç bir məqam diqqətindən yayınmazdı və hamısına da tutarlı cavablar verərdi. Yerinə düşən, ya düşməyən sözə də, fikrə də həssas idi. Bir sözlə, çalışıb onun rəğbətini qazanmalı idin.

Bütün bunları gözümün qabağına gətirə-gətirə, onunla bağlı görüb-eşitdiklərimi ürəyimdən keçirə-keçirə dərin tərəddüdlər içərisində mehmanxanaya, dahi sənətkarla söhbətə gedirdim. 3-cü mərtəbədə, birnəfərlik otaqda qalırdı. Mahnı Teatrının kollektivi də bu binada yerləşmişdi.

Qapını ehmalca döydüm. İçəridən “gəlirəm”, – deyib qapını açdı. Özümü təqdim edib qəzetdən gəldiyimi dedim. Bilirəm, – dedi, – redaktorunuz mənə deyib.

**Mehribanlıqla məni içəri dəvət edib əyləşməyə yer göstərdi. Həyəcanımı hiss edirdi. Odur ki, gülümsər halda dedi:**

– Heç narahat olmayın. Əvvəlcə bir stəkan çay içək, sonra nə qədər desəniz danışarıq.

Çoxdan bəri məni çulğamış həyəcanım, deyəsən, yavaş-yavaş keçib gedirdi. Amma ona verəcəyim sualların məsuliyyəti məni hələ də sıxırdı.

Dedim:

– Rəşid müəllim, nə əcəb, rayonun qonaq evində qalmamısınız? Sizin üçün ora daha rahat olardı.

– Bunu mənə dedilər, razı olmadım. Axı, mən tək deyiləm, sayımız çoxdur. Hamımız ora sığmazdıq.

– Tək Siz özünüz qala bilərdiniz.

– Bu, necə ola bilər, mən rahat olum, bəs kollektiv? Axı, mən onlarla bir gəlmişəm, yaxşı-pis, bir yerdə də qalmalıyıq...

Onun bu dedikləri, eləcə də özünə xas olan düşüncələri müsahibə zamanı verəcəyim bəzi suallara ətraflı, dəqiq və səmimi cavablar idi. Ona görə də bu qənaətə gəldim ki, onunla söhbətimizi konkret sual-cavab şəklində qurmağa ehtiyac yoxdur. Elə söhbət əsnasında ürəyimdən keçən sualların cavabını ondan ala bilirdim. Rayona gəlişi, xüsusilə də yaz fəslində, yaşıl tarlaların qoynunda əmək adamları ilə görüşləri, hər yerdə böyük hörmətlə qarşılanması ilə bağlı təəssüratları müsahibəm üçün maraqlı faktlar idi.

Söhbətimiz Mahnı Teatrının üzərinə gəldi. Dedim:

– Rəşid müəllim, yaratdığınız Mahnı Teatrı hamının ürəyindəndir. Teatrın yaranma zərurəti haqqında nə deyərdiniz?

O, ani olaraq fikirləşdi və dedi:

– Mahnı Teatrı ana südündən, ata vicdanından yaranmış teatrdır.

Sonra da gülümsəyib sözünə əlavə etdi:

– Mən sualınıza bircə cümlə ilə cavab verdim. Bunların nə demək olduğundan özünüz nəticə çıxarın.

Bir cümləlik bu cavabın arxasında nələr yox idi?! Onun teatr haqqında dediyi bu sözlərin dastanlar qədər yükü, dastanlar qədər çəkisi vardı. Hazırlayacağım yazıya elə o anlardaca yaxşı bir sərlövhə tapdım: “Ana südündən, ata vicdanından yaranmış teatr”.

Dünya şöhrətli müğənni Mahnı Teatrına olan marağımı görüb bu haqda əlavə fikirlər də söylədi:

– Fikirləşdim ki, mahnıların, muğam parçalarının, rəqs nümunələrinin təqdimatında nəsə bir yenilik, bir dəyişiklik edim. Elə bir yenilik ki, bunlar tamaşa halında olsun. Teatra bənzər bir üslubda təqdim olunsun. Janr müxtəlifliyi və rəngarənglik tamaşaçıda, dinləyicidə maraq yaratsın, onların zövqünü oxşasın. Bütün bunları nəzərə alaraq Mahnı Teatrı yaratmaq qərarına gəldim və şükür ki, buna nail oldum. İndi əsas məsələ budur ki, biz bu işin öhdəsindən necə gəlirik və yaxud gələ bilirikmi? Qoy bunu tamaşaçılar, dinləyicilər desin...

...Xudahafizləşib ayrılanda dedi:

– Qəzet çıxanda ondan bir-ikisini də mənə gətirərsiniz.

...Qəzet çıxdı. Şəkli ilə birlikdə bir səhifəlik müsahibəm dərc olunmuşdu. Mehmanxanaya gedib qəzetin nüsxələrindən bir neçəsini ona təqdim etdim. Maraqla alıb baxdı. Yazının sərlövhəsində öz sözlərini gördü: “Ana südündən, ata vicdanından yaranmış teatr.”

Razılıq hissi ilə dedi:

– Çox sağ olun ki, mənim bu sözümü başlığa çıxarmısınız...

...O vaxtdan 42 il keçib. Hər dəfə Mahnı Teatrının qarşısından keçəndə qeyri-ixtiyari ayaq saxlayır, Rəşid Behbudovun burada ucalan heykəli önündə dayanır, vaxtilə onun Kürdəmirə gəlişi, zəhmətkeşlərlə səmimi görüşləri, maraqlı konsertlər verməsi, xüsusilə də onunla üzbəüz oturub həmsöhbət olduğum o unudulmaz məqamlar gözlərimin önünə gəlir, gözəl ifaları qulağımda səslənir. Onunla bağlı bu xatirələr mənim üçün tayı-bərabəri, bənzəri olmayan bir mənəvi sərvətdir.

Bir vaxtlar böyük həvəslə yaratdığı və daim fəxr etdiyi Mahnı Teatrı onu həmişə yaşadacaq.

***Tofiq ABDULLAYEV,***
***Azərbaycan Jurnalistlər***
***Birliyinin üzvü***

## Beynəlxalq həyat

# Rusiyada orduya çağırış həddi 30 yaşa qədər artırılır



**Rusiyada çağırış yaşının həddi 18 yaşdan 30 yaşa qədər artırıla bilər. Bu barədə iyulun 21-də jurnalistlərə Dövlət Dumasının Müdafiə Komitəsinin rəhbəri Andrey Kartapolov məlumat verib.**

Onun sözlərinə görə, qanun layihəsinin ikinci oxunuşuna müvafiq düzəliş Dövlət Dumasının Müdafiə Komitəsi tərəfindən dəstəklənib: "Əsas düzəliş ondan ibarətdir ki, çağırış yaşının yuxarı həddi 30 yaşdır və aşağı həddini isə 18 yaşda saxlamaq qərara alınıb. Çünki bir çox oğlanlar 18 yaşında xidmət etmək istəyirlər. İndi onlara belə bir şans verilir".

Qanun layihəsinin birinci oxunuşunda çağırış yaşının aşağı həddinin 18 yaşdan 21 yaşa qaldırılması nəzərdə tutulurdu. Kartapolovun sözlərinə görə, çağırış yaşının 30-a qaldırılması ilə bağlı yeni qaydalar bu ilin payız çağırışına şamil edilmir: "Qanunun 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsi təklif edilir".

Xatırladaq ki, birinci oxunuşda çağırış yaşının mərhələli şəkildə 21 yaşa qaldırılması haqqında qanun layihəsi iyunun 14-də Dövlət Dumasında qəbul edilmişdi. Layihənin özü mayın 13-də Dövlət Dumasına təqdim edilib və iyunun 8-də Müdafiə Komitəsi onu təsdiqləyib. Bundan əvvəl, 21 dekabr 2021-ci ildə Rusiyanın müdafiə naziri Sergey Şoyqu çağırış yaşının artırılmasını təklif edib. Bundan başqa, o vurğulayıb ki, vətəndaşlara onların müraciəti əsasında xidmətə getdikləri ilk gündən müqavilə ilə hərbi xidmətə daxil olmaq imkanı yaradılmalıdır.

# Buğda idxalçıları Ukraynadan taxıl almağı davam etdirəcək

**Dünyanın ən böyük buğda idxalçıları Rusiya Federasiyasının istəyinə zidd olaraq Ukrayna taxılını alacaq. Onların arasında Misir də var. Bu ölkə Rusiyanın Ukrayna taxılının ixracına imkan yaratmaqdan geri çəkilməsini tənqid edib və müqavilənin dayandırılmasından sonra da Ukrayna buğdasını idxal etməyə davam edəcəyini bildirib.**



Bu bəyanatla Misirin təchizat naziri Əli əl-Museyihi çıxış edib. O, Rusiyanı taxıl müqaviləsi ilə bağlı qərarına yenidən baxmağa çağırıb. Nazir həmçinin qeyd edib ki, dünyanın ən böyük buğda idxalçılarından biri olan Misir Ukrayna buğdasını Avropa vasitəsilə qəbul etmək niyyətindədir. Nazir deyib: "Rusiyanın BMT-nin taxıl ixracı ilə bağlı sazişindən çıxmasından narazıyıq. Misir iqtisadiyyatı taxılın qiymətinin qalxmasından zərər çəkir".

Kiyev isə alıcılarına taxılı Qara dəniz vasitəsilə ixrac etmək üçün istənilən riskə getməyə hazırdır. Bunu Ukraynanın xarici işlər naziri Dmitri Kuleba "Time" nəşrinə müsahibəsində bildirib. O əlavə edib ki, Ukrayna təhlükə səviyyəsini azaltmaq üçün maraqlı tərəflərlə əlaqə qurmağı planlaşdırır. Kuleba hesab edir ki, Rusiya bu dəfə taxıl müqaviləsi ilə bağlı mövqeyini dəyişməyəcək: "Biz istənilən riskə hazırıq. Düşünürəm ki, dünyaya mesajımız budur– Rusiya bizə lazım deyil".

Rusiya isə buna imkan vermək niyyətində deyil. Bu ölkənin hərbçiləri Odessa vilayətində taxıl və kənd təsərrüfatı avadanlıqlarının saxlanıldığı terminalı gecə saatlarında "Kalibr" raketləri ilə atəşə tutub. Bu barədə Cənub Müdafiə Qüvvələrinin spikeri Nataliya Qumenyuk bildirib: "Düşmən terroru davam etdirir, bu, şübhəsiz ki, "Taxıl sazişi" ilə bağlıdır. Bu gecə işğalçılar Odessa vilayətində kənd təsərrüfatı müəssisəsini vurublar". Məlumata görə, işğalçılar 100 ton noxudu və 20 ton arpanı məhv ediblər.

Bunların fonunda cəbhədə döyüşlər davam edir. Ukrayna ordusu Donetsk vilayətinin Baxmut şəhərinin cənub cinahı istiqamətində 1,8 kilometr irəliləyib. Amerika təhlilçilərinin hesablamalarına əsasən, Ukrayna Silahlı Qüvvələri Orexovadan cənuba və cənub-şərqə gündə təxminən 100 metr irəliləyir.

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

# Maqnit qasırğalarının gözəgörünməz zərbələri

**Artıq Yer kürəsini uzun müddətdir ki, maqnit qasırğası bürüyüb. Dünyada olduğu kimi, ölkəmizdə də bəzi insanlar bunun təsirini az, bəziləri isə xəstəlik dərəcəsində hiss edirlər. Belə günlərdə hətta bir çoxlarının halsızlığa, narahatlığa tab gətirməyib yatağa düşdüklərini də eşidirik. Mütəxəssislərin fikrincə, iyulun 12-dən başlayan maqnit qasırğası K-indeksinin 6-cı sinfinə aiddir. Bu, 9 miqyasda 6 bal gücünə malik nəhəng geomaqnit qasırğasıdır. Bir neçə gün sonra geomaqnit sabitlik dövrü başlasa da, qasırğanın gücü, təxminən, iyulun 26-na kimi 3 nöqtə ətrafında qalacaq.**

**Elmi-Tədqiqat Kardiologiya İnstitutunun ürəyin işemik xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimova maqnit dalğalarının insan orqanizminə təsiri ilə bağlı sualımızı cavablandırır:**



– İnsultların, hipertoniyanın və infarktların, təxminən, 70 faizi məhz belə havalarda– maqnit burulğanları olan zaman baş verir. Tədqiqatçı alimlərin fikrincə, orqanizm instinktiv olaraq, maqnit sahəsinin dalğalanmalarını həyat üçün təhlükə kimi qəbul edir. Çünki bu, təzyiqin artmasına və digər simptomlara səbəb olur. Bunlar arasında ən çox rast gəlinənlər baş ağrısı, başgicəllənmə, kardiopalmus, təngənəfəslik, yorğunluq və ya əksinə, hiperaktivlik, asteniya (əzələ zəifliyi), sümüklərdə ağrılardır.

Bu əlamətlərin başvermə səbəbinə gəlincə deyə bilərəm ki, maqnit sahəsinin dalğalanmaları zamanı kapilyarlarda (kiçik damarlarda) qan axınına manеə yaranır və toxumaların oksigen aclığı baş verir. Məhz qanda oksigen çatışmazlığından başgicəllənmə, ürək nahiyəsində ağrılar, gözlərin qaralması və şüurun itməsi əlamətləri yaranır.

Bundan başqa, oynaqlarda ağrılar baş-layır. Çünki xarici (atmosfer) təzyiqin azalması oynaqlarda daxili təzyiqi çoxaldır. Bu, oynaq kapsulunun və bağların uzanması ilə əlaqədardır ki, bu da ağrıları artırır.

İnsanlar, həmçinin yuxu pozulmasından, depressiyadan, diqqətsizlikdən, əsəbilikdən, narahatlıqdan şikayətlənirlər.

**– Maqnit qasırğası ən çox kimlərə təsir edir?**

– Əsasən ürək xəstəliyi olan insanlar və qan təzyiqinin aşağı, yaxud yuxarı həddə olmasından daim əziyyət çəkənlər maqnit fırtınasını daha tez hiss edirlər. Belə havalar təzyiqlə bağlı xroniki xəstəlikləri olan insanlara çox təsir edir. Elə insanlar var ki, havadan asılı olurlar. Belə ki, havanın dəyişəcəyini, yağış yağacağını öncədən hiss edirlər. Onlar da maqnit qasırğasından əziyyət çəkirlər. Bundan başqa, hava dəyişikliyi hamilə qadınlara, körpələrə və yaşlılara da neqativ təsir göstərir. Onu xüsusilə qeyd etməliyik ki, maqnit qasırğası havası təmiz, texnologiyadan müəyyən qədər uzaq kənd, dağ yerlərinin əhalisinə təsir etmir. Ondan əsasən, böyük şəhərlərin sakinləri əziyyət çəkir.



**– Bu zaman hansı tədbirlər görülməlidir?**

– Əvvəla, texniki avadanlıqlarla işləmə vaxtını azaltmaq lazımdır, çünki maqnit fırtınaları təkcə insanlara təsir etmir. Maşın sürənlər ehtiyatlı olsunlar, çünki maqnit qasırğalarsı zamanı konsentrasiya və diqqət azalır. Stress və emosional partlayışlardan çəkinmək lazımdır. Həddindən artıq yüklənməmək üçün xüsusi konsentrasiya tələb edən işlə məşğul olmaq məsləhətdir. Həddindən artıq fiziki fəaliyyətdən imtina etmək, bunun əvəzinə, gimnastika ilə məşğul olmaq, daha çox gəzmək faydalıdır. Günün saat 12.00 ilə 16.00 arsında çöldə olmamaqda fayda var. Bu, insanları Günəşin ultra-bənövşəyi şüalarından qoruyar. Tez-tez kontrastlı duş qəbul etmək, otağı mütəmadi olaraq havalandırmaq lazımdır. Zərərli, həddindən artıq duzlu və yağlı yeməklərdən, spirtdən istifadə etməmələ, meyvələrə, tərəvəzlərə, təzə sıxılmış şirələrə və suya üstünlük verilməlidir. Həddindən artıq yemək, bədən üçün əlavə stressdir. Yuxu cədvəli hazırlamaq, pərdələri möhkəm bağlayaraq adi günlərdəkindən çox yatmaq tövsiyə olunur.

***Söhbəti qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# "İstedadlı Gənclər üçün Təqaüd Proqramı"

## *Bu layihə dünya səviyyəli milli kadr hazırlığına xidmət edir*

**BP şirkəti ölkənin yüksəkixtisaslı yerli kadrlar yetişdirmək istiqamətindəki səylərinə dəstək olaraq həyata keçirdiyi daha bir sosial sərmayə layihəsinin nəticələrini elan edib. Xatırladaq ki, bu təhsil layihəsi BP-nin dünya səviyyəli təcrübə və bacarıqlar formalaşdırmaqla ölkəmizin dayanıqlı gələcəyinin qurulmasına dəstək olmaq öhdəliyinin bir hissəsi olaraq seçilib. Layihə çərçivəsində şirkət aparıcı beynəlxalq universitetlərdə təhsil almaq üçün 15 istedadlı Azərbaycan gəncinin hazırlıq təlimlərini maliyyələşdirib.**

"İstedadlı Gənclər üçün Təqaüd Proqramı" layihəsinin bağlanış mərasimində çıxış edən Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirdi ki, hazırda iqtisadi tərəqqi innovativlik səviyyəsindən asılıdır, ölkələrin gücü bununla ölçülür. Azərbaycanın da inkişaf yolunun buna əsaslandığını vurğulayan nazir müavini qeyd etdi ki, Prezident İlham Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, ölkəmizdə güclü insan kapitalı və müasir innovasiya məkanı formalaşdırılmalıdır. İnnovativ cəmiyyətin qurulmasında ən mühüm amil insan kapitalıdır. Aztəminatlı ailələrdən olan yüksək potensiallı gənclər üçün nəzərdə tutulan bu təqaüd proqramı 10 istedadlı azərbaycanlı tələbəyə dünyanın nüfuzlu ali təhsil müəssisələri tərəfindən təklif olunan və beynəlxalq səviyyədə tanınan keyfiyyətli təhsil almağa kömək edib.

BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında təqaüd proqramının nəticələrinin möhtəşəm olduğunu bildirdi. Layihəyə qoşulmaqdan məmnunluğunu bildirən vitse-prezident qeyd etdi ki, BP Azərbaycanın parlaq gələcəyini quracaq istedadlı, dünya səviyyəli milli kadrların yetişdirilməsi istiqamətində ölkənin səylərinə dəstək olmaq öhdəliyinə sadiqdir. B. Aslanbəyli sonda nüfuzlu beynəlxalq universitetlərdən qəbul təklifi almış istedadlı gəncləri təbrik edərək onlara təhsillərində uğurlar arzuladı.




Sonda layihə iştirakçılarına sertifikatlar verildi. Universitetlərə qəbul olunmuş gənclərə isə əlavə olaraq BP şirkəti tərəfindən planşetlər hədiyyə edildi.

Qeyd edək ki, layihə iştirakçıları bu cür yüksək keyfiyyətli hazırlıq kurslarının xərclərini qarşılamaq imkanı olmayan aztəminatlı ailələrdən seçiliblər. Layihə çərçivəsində qrup və fərdi şəkildə təklif olunan 10 aylıq hazırlıq kurslarında iştirakçılar əksər beynəlxalq kollec və universitetlərin tələbə qəbulu üçün istifadə etdiyi SAT və IELTS testlərinə və qəbul imtahanlarına hazırlaşıblar. Dəyəri 42 min 450 manat olan bu layihə yerli təşkilat olan "ROOF Academic Training" tərəfindən yerinə yetirilib.

*M. YAQUBZADƏ, "Xalq qəzeti"*

# Türkiyədə yeni neft yataqları axtarılır

**Türkiyə mediasında yayılan məlumatda bildirilir ki, qardaş ölkənin Gümüşhane Universitetinin alimləri 1926-cı və 1930-cu illərdə Türkiyə Mineral Tədqiqatlar və Kəşfiyyat Baş İdarəsi tərəfindən Bayburtda aparılan neft kəşfiyyatı işlərini dərinləşdiriblər.**



Bölgədə neft ehtiyatları olduğunu müəyyənləşdirən elm adamları bu ərazidə fəaliyyətin zəruriliyini vurğulayıblar. Ərzincandakı neft sızıntıları ilə bağlı rus neftinə bənzər əlamətin mövcudluğuna dair məruzələr də edilib.

Gümüşhane Universiteti geofizika mühəndisliyi fakültəsinin rəhbəri professor Nafiz Maden Aşağı Çimağıl kəndində gördükləri işlər nəticəsində suyun səthində neft sızıntılarının müşahidə edildiyini, hətta neft iyinin də hiss olunduğunu bildirib.

Xatırladaq ki, bir müddət əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin cənub-şərqində 150 milyon barel xalis neft ehtiyatı olan, təxminən 21,3 milyon ton ehtiyata malik yatağın kəşf edildiyini açıqlamışdı.

*"Xalq qəzeti"*

## "Bakıenerjitikinti" ASC səhmdarlarının nəzərinə!

23 sentyabr 2023-cü il saat 11.00-da "Bakıenerjitikinti" ASC səhmdarlarının 2022-ci ilin yekununa həsr olunmuş ümumi yığıncağı Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu dairəsi 37 nömrəli ünvanda "Bakı enerjitikinti" ASC-nin inzibati binasında keçiriləcəkdir.

Bütün səhmdarların iştirakı xahiş olunur.

## Düzəliş

"Xalq qəzeti"nin 21 iyul 2023-cü il tarixli nömrəsində "Azərsu" ASC –nin "Dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar məsləhətçi şirkətin cəlb olunması" predmeti üzrə texniki-iqtisadi əsaslandırma və layihə tapşırığının hazırlanması, layihənin icrası ilə bağlı digər məsləhət xidmətlərinin satın alınması məqsədilə dərc edilmiş elanında tələb olunan sənədlərin, təkliflərin son təqdim olunma tarixi və vaxtı 7 avqust 2023-cü il saat 16:00, zərflərin açılış tarixi və vaxtı isə 8 avqust 2023-cü il saat 16:00 kimi, Ceyranbatan – Maştağa - Nardaran magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi işlərinin satın alınması və "Pirşağı –Bilgəh" şərq kanalizasiya kollektorunun tikintisi işlərinin satın alınması məqsədilə tələb olunan sənədlərin son təqdim olunma tarixi və vaxtı 25 avqust 2023-cü il saat 16:00, təkliflərin son təqdim olunma tarixi və vaxtı isə 4 sentyabr 2023-cü il saat 16:00 kimi, zərflərin açılış tarixi və vaxtı isə 5 sentyabr 2023-cü il saat 16:00 kimi oxunmalıdır.

***Tender komissiyası***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 152 (30268) 22 iyul 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

## Azərbaycan kuboku: Yeni mövsümün təqvimi müəyyənləşib

**Komandalar turnirdə mübarizəyə noyabrda start verəcəklər. Bu barədə Peşəkar Futbol Liqası məlumat yayıb.**



2023–2024-cü illər mövsümünün təqviminə görə həmin ay ilk iki təsnifat mərhələsinin matçları olacaq. Əsas mübarizə - səkkizdəbir final mərhələsi isə dekabrın 19–20-də baş tutacaq. Bu raundların hamısında qalib bir oyunla bilinəcək. Ölkə kuboku yarışlarında dörddəbir final mərhələsinin görüşləri gələn ilin yanvar-fevral aylarına təsadüf edəcək. Apreldə isə yarımfinalın həm ilk, həm də cavab qarşılaşmaları təşkil olunacaq. Turnirin final matçı iyunun 2-də gerçəkləşəcək və bununla mövsüm başa çatacaq.

Qeyd edək ki, ölkəmizdə 2023-2024-cü illər mövsümünə avqustun 4-6-da keçiriləcək Premyer Liqanın birinci tur oyunları ilə start veriləcək.

## AFFA: Belarus Futbol Federasiyası ilə əməkdaşlıq müzakirə edilib

**AFFA-nın baş katibi Sərxan Hacıyev Belarus Futbol Federasiyasının prezidenti Nikolay Şerstnyovla görüşüb.**



Görüşdə AFFA ilə Belarus Futbol Federasiyası arasında əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. N.Şerstnyov qonaqpərvərliyə və "Dinamo" (Minsk) – "Jeleznyçar" oyununun yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Mərasimdə Belarus Futbol Federasiyasının vitse-prezidenti Andrey Vasileviç, baş katibi Sergey Jardeçkiy də iştirak ediblər.

Qeyd edək ki, Belarus Futbol Federasiyasının prezidenti Nikolay Şerstnyov "Azersun Arena"da keçirilmiş "Dinamo" (Minsk) – "Jeleznyçar" (Bosniya və Herseqovina) oyununu izləmək üçün ölkəmizə səfərə gəlib.

## Qadın basketbolçularımız ilk dəfə Avropa yarışında

**Azərbaycanın qadın basketbolu tarixində ilk dəfə yığmamız FİBA-nın bayrağı altında təşkil olunan qitə birinciliyinin seçmə mərhələsində mübarizə aparacaq.**

Belə ki, qadın basketbolçularımız 2025-ci ildə keçiriləcək Avropa çempionatının (EUROBASKET) seçmə mərhələ oyunlarında iştirak edəcək.

Avropa çempionatının final mərhələsinin baş tutacağı ölkələrin adları hələlik məlum deyil.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

## Texnologiya yenilikləri



## "Uçan taksi"lər xəyaldan gerçəyə çevrilir

**Braziliyada yerləşən təyyarə istehsalçısı "Embraer" şirkəti yeni "uçan taksi" layihəsi hazırlayıb. Bunun üçün zavod inşa ediləcəyi bildirilib.**

Məlumata görə, hava taksiləri elektriklə işləyəcək və eniş üçün xüsusi zolağa ehtiyac olmayacaq. İlk uçuşlarda pilot iştirak edəcək, lakin sonradan özünüidarəedən taksilər fəaliyyət göstərəcək. Kiçik helikopteri xatırladacaq taksilərin xidmət haqqı bir nəfər üçün 50–100 dollar nəzərdə tutulub.

Zavodun Braziliyanın Taubate şəhərində 2026-cı ilə qədər tikilməsi planlaşdırılıb. "Uçan taksi"lər insanların sıx olduğu şəhərlərdə tıxacları azaltmağa kömək edəcək. Onun yükdaşıma üçün alternativ olduğu da qeyd edilib. Artıq 3 minə yaxın sifariş alındığı bildirib.

*Əfsanə ƏHDLİ, "Xalq qəzeti"*

## Amerikalı seysmoloqlar Azərbaycanda

**Amerikanın Missuri Universitetinin professoru Erik Sandvol və universitetin əməkdaşı Dastin Rey ölkəmizə gəliblər.**



Respublika Seysmoloji Xidmət Mərkəzindən (RSXM) "Xalq qəzeti"nə bildiriblər ki, səfərin məqsədi "Qafqaz kəsilişi" layihəsi çərçivəsində birgə həyata keçiriləcək tədqiqat işləri ilə bağlıdır. Amerikalı seysmoloqlar səfər çərçivəsində "Zəlzələ ocaqlarının dinamikası" şöbəsinin mühəndisi Feyzullayev Rəsul ilə birlikdə çöl işlərində olublar.

Qonaqlar AMEA nəzdində RSXM-nin Monitorinq Mərkəzində "Zəlzələlərin tədqiqi bürosu" və "Zəlzələ ocaqlarının dinamikası" şöbəsinin əməkdaşları ilə aparılan elmi işlər barədə müzakirə aparıblar. Amerikalı seysmoloqların səfəri iyulun 26-na qədər davam edəcək.

*L.AZAD, "Xalq qəzeti"*

## Maraq dünyamız

## "3D çap" insan orqanları da yarada biləcək

**3D çap xüsusi printerlərdən istifadə etməklə üçölçülü obyektlər yaratmağa imkan verən texnologiyadır. Bu texnologiya ehtiyat hissələrin istehsalından tutmuş unikal sənət nümunələrinin yaradılmasına qədər müxtəlif sahələrdə geniş tətbiq olunur.**



Bununla belə, 3D çapın ən heyrətamiz tətbiqlərindən biri insan orqanlarının yaradılmasıdır. Bir neçə il əvvəl elm adamları süni orqanların yaradılmasının ənənəvi üsullarından xilas oldular, əvəzində yeni orqanlar yaratmaq üçün 3D çapdan istifadə etdilər. Bu texnologiya hələ erkən mərhələdədir, lakin hər il daha təkmil və dəqiq olur.

Beləliklə, 3D printerlərin tibbdə tətbiqi insan həyatını xilas etməyə kömək edir. Belə printerlər uğurlu əməliyyatın təmin edilməsi üçün insanın skeletinin tam surətini yarada bilir. 3D çap protez və stomatologiya sahəsində daha geniş istifadə olunur. Tibbi üçölçülü modellər canlı hüceyrələr də daxil olmaqla müxtəlif materiallardan hazırlana bilər.

Bu çap üsulu xəritərin yaradılmasında da istifadə olunur. 3D printerlərdən istifadə edərək, ərazinin mənzərəsini dəqiq əks etdirən və hətta müxtəlif landşaftların yerləşmə səviyyələrini göstərən iri rəngli xəritələr yaratmaq olar.

Onun tətbiq sahəsi daha genişdir.

## Pişiklər insanları saya salmır



**İnanılmasa da, həqiqətdir: pişiklər insanları səsləri ilə fərqləndirir, amma onlara məhəl qoymamağa üstünlük verirlər.**

Pişik sahibləri bu barədə məlumatlıdırlar. Bu fakt təcrübi olaraq yalnız 2013-cü ildə təsdiqlənib. Yapon alimləri 20 pişiyə insan səslərini dinlədiblər. Pişiklər tanış və tanış olmayan səslərə fərqli reaksiya veriblər, lakin heç birinə ciddi maraq göstərməyiblər.

Xatırladaq ki, pişiklərin əhilləşdirilməsinin tarixi 11 min ildir.

## Dünya və maraq dünyamız

**Dünya inanılmaz qəribəliklərlə doludur. Çoxları bunlardan xəbərsizdir. Məsələn:**



1. Məşhur uşaq nağıllarının müəllifi Hans Kristian Andersen, demək olar ki, bircə sözü düzgün yaza bilmirdi.
2. İndiyə qədər aşkar edilmiş ən böyük dinozavrın uzunluğu 30 metrdən, çəkisi isə 80 tondan çox olub.
3. Yer Günəş sistemində mifik tanrıların adını daşımayan yeganə planetdir.
4. İkinci Dünya müharibəsi zamanı Berlinə atılan ilk bomba şəhər zooparkındakı yeganə fili öldürüb.
5. Qadınların, təxminən, 30 faizi lotereyada nəsə udduqlarını biləndə bileti yaxalarında gizlədirlər.
6. İnsan bədəninin bütün qan damarlarının uzunluğu, təxminən, 96 min kilometrdir.
7. Rusiyada temperaturun qeydə alındığı tarixdə ən soyuq qış 1740-cı ildə olub.
8. Dünyanın ən zəngin 3 ailəsinin sərvəti ən yoxsul 48 ölkədə olduğundan daha çoxdur.

*P. ƏFƏNDİ, "Xalq qəzeti"*

## Düşüncələri yazıya alan cihaz

**San-Dieqo Universitetinin alimləri düşüncələri avtomatik yazıya alan cihazı sınaqdan uğurla keçiriblər.**



Bu cihaz vasitəsilə alimlər düşüncəni saniyələr içərisində istənilən dildə çap edirlər. Alimlərin fikrincə, bu kəşf nitq qabiliyyəti tam məhdud olan insanlara daha çox kömək edəcək.

Yeni cihaz hələ ki, Harvard Tibb Məktəbi və Braun Universitetinin həkimləri tərəfindən sınanıb. Həkimlər gələcəkdə bu kəşfin daha da təkmilləşdiriləcəyini düşünürlər.

*S.RZAYEVA, "Xalq qəzeti"*

## Sağlamlıq

## Gicitkəndən uzağa qaçmayın!

***Antioksidant təsirli və A, C və K vitaminlərinin "anbarı" sayılan gicitkən sidikqovucu, iltihab əleyhinə və hüceyrə qoruyucu xüsusiyyətləri ilə seçilir. Bu dərman bitkisi immunitet və qan dövranı sistemini dəstəkləyir, mövsümi və ya xroniki xəstəliklərin müalicəsində köməkçi rol oynayır.***



100 qram gicitkənin tərkibində 500 mikroqramadək K vitamini var. Bu, sağlamlıq üçün vacib elementdir. K vitamini qanın laxtalanması prosesində iştirak etməklə yanaşı, sümüklərin möhkəmlənməsinə, ateroskleroz və diabetə qarşı mübarizəyə kömək edir, xərçəngin inkişaf riskini azaltmağa qadirdir.

Qastroenteroloq Sergey Vyalovun sözlərinə görə, K vitamini gündə 100 mikroqramı keçməmək şərtilə qəbul etmək vacibdir. Onun böyük miqdarda qəbulu trombozun yaranmasına səbəb ola bilər. K vitamini ilə yanaşı, gicitkən orqanizmi dəmir, kalsium, maqneziumla təmin edir. Bu bitki damarlara və ürəyə təsir edərək onların xəstələnmə ehtimalını azaldır.

Gündə 2–3 stəkan qədər içilən gicitkən çayı immun sistemini dəstəkləməklə yanaşı, arıqlama prosesində də rol oynayır. Bu çayı yeməkdən əvvəl və ya sonra – ac və ya tox mədəyə içməyin fərqi yoxdur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## Proqnoz



## İsti olacaq, az yağış yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 22-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam saatlarında yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 29-34° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 17-22° isti olacaq.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

✓ Azərbaycan – Macarıstan Məzunları İctimai Birliyinin 1119-Q69-3753 nömrəli qeydiyyat şəhadətnaməsi, dövlət reyestrindən çıxarış və ictimai birliyin nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə xalası

**ŞƏKURƏ MƏŞƏDİ ƏLƏKBƏR QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Fərhad və Ataş Təhməzov qardaşlarına əziziləri

**SONA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə əzizi

**HƏBİBƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4602
SİFARİŞ 1792
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00